M. RZAQULUZADƏ

# EL GÜCÜ

("Dədə Qorqud" boyları üzrə hekayələr)



Bakı-UŞAQGƏNCNƏŞR-1948

# NƏŞRİYYATDAN

Gənclərimizi əsasən müasir mövzulu əsərlərlə təmin etməklə yanaşı, klassik ədəbiyyatın, xalq ədəbiyyatının ən yaxşı nümunələri ilə tanış etmək də nəşriyyatımızın qarşısında duran vəzifələrdəndir.

V. İ. Lenin «Gənclərr ittifaqlarının vəzifələri» haqqındakı məşhur tarixi nitqində demişdir ki:

«...Yalnız bəşəriyyətin bütün inkişafı nəticəsində yaranmış mədəniyyəti dürüst bilməklə, onu yalnız təhlil etməklə proletar mədəniyyəti yaratmağın mümkün olduğunu aydın surətdə anlamadan bu vəzifəni həll edə bilmərik»[1].

«...Adam yalnız o zaman kommunist ola bilər ki, bəşəriyyətin hazırlamış olduğu bütün sərvətləri bilsin və öz zehnini zənginləşdirmiş olsun»[2].

Gənc nəslin bədii ədəbiyyat vasitəsilg tərbiyəsinə xüsusi bir əhəmiyyət verən və bu yolda həm öz bədii yaradıcılığı, həm da nəzəri və əməli təklifləri ilə çox iş görmüş olan böyük sovet yazıçısı Maksim Qorki də uşaq və gənclər ədəbiyyatının mövzuca geniş və çox növlü olmasını vacib bilirdi. O digər mövzularla yanaşı uşaq və gənclər ədəbiyyatı üçün tarixi mövzulardan və xalq ədəbiyyatı mövzularından istifadə ilə bədii əsərlər yazılmasını da lazım və faydalı hesab edirdi. M. Qorki özü. Ondan əvvəlki və sonrakı böyük rus ədib və şairləri L. Tolstoy, A. S. Puşkin, Krılov və başqaları, Azərbaycanın məşhur şair və ədiblərindgn Q. b. Zakir, S. G. Şirvani, A. Şaiq, A. Səhhət, M. G. Sabir və başqaları xalq ədəbiyyatı mövzularından istifadə ilə bir çox qiymətli əsərlər yazmışlardır.

Bu məsələ, yəni xalq ədəbiyyatının ən yaxşı nümunələrini toplayıb üzərində işləmək, onların ən yaxşı xüsusiyyətlərindən istifadə ilə o mövzularda xususən uşaq və gənclər üçün müasir ədəbiyyatın müxtəlif janrlarında müasir mövzulu əsərlərlə yanaşı yeni əsərlər yaratmaq indi də lazım və faydalıdır.

Bütün dünya xalqları ədəbiyyatında folklor mövzuları üzrə yalnız uşaq və gənclər üçün deyil, ümumiyyətlə müxtəif janrlarda yeni əsərlər yaratmaq ənənəsi ən qədim, zamanlardan, zəmanəmizə qədər davam etməkdədir. Məsələn, yunan xalqının əsatirindən olan «Prometey» mövzuunda ən qədim zamanların ən görkəmli ədib, şair və dramaturqlarından tutmuş zəmanəmizə qədər bütün yazmaqdadır. Şərq xalqları ədəbiyyat və incəsənətində də əsasən folklor əsərləri

1 V. İ. L e n i n , Gənclər İttifaqlarının vəzifələri, Azərnəşr, 1943, səh. 10.
2 Y e n ə  o r a d a, səh. 12.

xalqların sənətkarları müxtəlif janrlarda saysız-hesabsız əsərlər yazmış və olan «Leyli və Məcnun», «Fərhad və Şirin» və sair bu kimi mövzulardan istifadə ilə yeni-yeni dastanlar, səhnh hshrlhri, romanlar, rübabi şeirlər yaradılmış və yaradılmaqdadır: «Leyli və Məcnun», «Əsli və Kərəm», «Şah Sənəm», «Koroğlu» operaları, «Fərhad və Şirin», «Qaçaq Nəbi», «Məlik Məmməd», «Eloğlu», «Qaraca çoban» dramaları və sairə...

UİK(b)P Mərkəzi Komitəsinin ədəbiyyat və incəsənət məsələlərinə dair qərarları və Jdanov yoldaşın «Zvezda» və «Leninqrad» məcmuələri haqqındakı məruzəsini şərh edən «Kultura i jizn» qəzetinin «Sovet ədəbiyyatının bolşevik partiyalılığı haqqında» sərlövhəli məqaləsində tarixi mövzu məsələsindən danışılırkən, deyilir ki:

«Tarixi mövzulara həsr edilmiş əsərlərdə bu və ya digər müəssisə və şəxslərin irticaçı rolunu ört-basdır etmək ayrı-ayrı tarixi şəxsiyyətlərin bir tərəfli təsvirini vermək, onların yalnız müsbət tərəflərini göstərib, dünyagörüşlərinin yaxşı cəhətlərini nümayiş etdirməklə, onların tarixi məhdudluqlarını göstərən zəif və mənfi cəhətlərini pərdələmək vasitəsilə keçmişin təhrif edilməsinə dözmək olmaz. Stalin yoldaş bizə öyrədir ki, tarixi nə yaxşılaşdırmaq, nə də pisləşdirmək olmaz».

Oxucularımıza təqdim etdiyimiz «El gücü» kitabı qədim Azərbaycan qəhrəmanlıq dastanları olan «Kitabi-Dədə Qorqud» mövzuları üzrə yazılmış üç hekayədən ibarətdir. «Dədə Qorqud» kitabı bundan təxminən min il əvvəl yazılmışdır. Lakin bu kitabdakı dastanlar xalq tərəfindən çox daha əvvəl yaranmışdır. Bu dastanlarda xalq öz azadlıq və istiqlaliyyəti uğrundakı mübarizəsini, bu mübarizənin qəhrəmanlarını tərənnüm edir. Onları ideallaşdırır, özünün arzu etdiyi mərdlik, cəsarət. möhkəm və sarsılmaz iradə, fədakarlıq, sədaqət kimi ən yaxşı və nəcib insani sifətlərlə vəsf edib umumiləşdirir.

Hər bir xalqın bu cür qəhrəmanlıq dastanları vardır: rusların «İqor qoşunu haqqındakı dastanı», ermənilərin «Sasunlu David», qazaxların «Manas» haqqındakı dastanları da belədir.

Hər xalqın milli mədəniyyət və ədəbiyyatına böyük bir hörmət və məhəbbətlə yanaşan sovet hakimiyyəti zamanı belə qəhrəmanlıq dastanları böyük bir qayğı ilə aşkara çıxarılmış və bunların tarixi yubileyləri Sovet İttifaqı qardaş xalqlarının ümumi mədəniyyət bayramı kimi təntənə ilə qarşılanmışdır. Bu yaxın illərdə «Dədə Qorqud» dastanlarının yazılmasının da min illiyi tamam olacaqdır.

«Kitabi Dədə Qorqud»1939-cu ildə Azərnəşr tərəfindən çap edilmişdir. Kitabın muqəddiməsində H. Araslı yoldaş yazır:

«Əsərdə igidlikləri təsvir edilən qəhrəmanlar mərd, namuslu, xalqı sevən, düşməndən qorunmağı bacaran, qorxmaz insanlardır. Onlar yarım köçəri həyat keçirirlər. Bədöy atların belində ölkəni xarici düşmənlərdən qoruyurlar. Gəncə, Bərdə, Şərur, Dərbənd bu qəhrəmanların vətənidir. Onlar abxazlar, bizanslılar,

gürcülər və ermənilərlə qonşudurlar. Eposda qadınlar namuslu, sədaqətli və igid göstərilir. Onlar da müharibədə iştirak edir, ox atır, qılınc oynadır, at çapırlar».

«El gücü» kitabındakı hekayələr «Dədə Qorqud» dastanlarının nə müasir dilə tərcüməsi, nə də təbdilindən ibarət deyildir. Burada müəllif, nəşriyyatın tapşırığı üzrə, haman dastanlardakı mövzu və məzmundan istifadə ilə həm əsas məfkurə, həm də ədəbi növ etibarilə yeni hekayələr yazmışdır. Bu hekayədərdəki başlıca hadisələr və qəhrəmanlar dastanlardakı hadisə və qəhrəmanlar olmaqla bərabər, onlar xeyli dəyişdirilmiş, hadisə və qəhrəmanların səciyyələrinin ictimai kök və səbəbləri düzgün göstərilməyə çalışılmışdır. Məlum olduğu kimi, ümumiyyətlə dastanlarda və o cümlədən «Dədə Qorqud»da da keçmiş həyat və qəhrmanlar ümumiləşdirilmiş bir halda ideallaşdırılır. Hekayələrdə isə, bunlar müəyyənləşdirilmiş və müsbət cəhətlərlə yanaşı o zamankı həyat və qəhrəmanların mənfi cəhətləri də göstərilmişdir. Məsələn, «Ana ürəyi—dağ çiçəyi» hekayəsində Dərsə xanın xasiyyət və rəftarındakı qabalıq, iradəsizlik, yasavulbaşının fitnəkarlığı, riyakarlığı, xalqı soyub talamaq arzuları və düşmənlərə satqınlığı və xanın bütün bunlardan xəbərsiz olub şəxsi həyatına qapanıb qalması kimi mənfi cəhətlər xeyli qabarıq və aydın verilmişdir.

«El gücü» hekayəsində Qazan xanın xudpəsəndliyi, sərhəddi qorumaq kimi mühüm vəzifəni unudub şəxsi keyfinə qapılması, ölkə və xalqın mənafei, düşmən üzərinə el gücünə dayanıb hücum etməyi tələb etdiyi halda, onun şəxsi şöhrətpərəstliyi xatirinə xalqdan üz döndərməsi, ətrafındakı bəylərin kor-koranə itaətkarlığı və xana yaltaqlanmaları təsvir edilmişdir. «Dəli ozan» hekayəsində də xanların və bəylərin el qayğısından uzaq, öz şəxsi həyatları ilə yaşamaları, Qoçərin bəylər-xanlar arasındakı haqsızlıqları, azad sevgiyə mane olan milli budətləri görüb onlardan üz çevirməsi, bəylikdən əl çəkməsi, Şöklü Məlik və yalançı rahibləri «möcüz» ətrafındakı fırıldaqları, beyrək və yoldaşlarının köləliyə qarşı mübarizələri və sair bu kimi hallar hekayələrdə təsvir olunan dövrün həyatı həm də qəhrəman və sair iştirakçıların səciyyə və xasiyyətləri nöqsanları ilə birlikdə təsvir edilmişdir.

Bu kitabdakı hekayələrin « Dədə Qorqud» dastanlarına münasibətinə gəlincə, məslən, dahi Nizaminin ölməz əsərləri mövzuunda yazılmış «Fərhad və Şirin» və «Nüşabə» dramları və ya «Fitnə» və sair hekayə və poemalar heç bir dərəcədə o ölməz əsərləri nə təhrif, nə də əvəz etmədiyi kimi, bunlar dao misilsiz dastanları əvəz etmək üçün deyildir. Əksinə, belə əsərlər əsas məxəzləri olan böyük əsərləri populyarlaşdırmaq, onları ideya cəhətdən şərh etmək və onlara olan rəğbət və məhəbbəti daha da artırmaq məqsədinə xidmət edir.

Hekayələrdə dövrün xüsusiyyətlərini azacıq da olsun, əks etdirmək məqsədilə, dil və üslub cəhətindən xüsusən bəzi mükalimələrdə «Dədə Qorqud»dakı bəzi ünsürlər saxlanılmışdır.

Hekayələrin məfkurəvi nəticələrinə gəlincə, bunlarda vətən eşqi. ata-ana məhəbbəti, xalq və vətən düşmənlərinə qarşə amansızlıq («Ana ürəyi-dağ çiçəyi»), el gücünə arxalanmaq, vətən və xalq mənafeini şəxsi mənafedən üstün tutmaq, ümumi düşmənə qarşı əlbir mübarizə aparmaq çətinliklər, qarşısında ruhdan düşməmək, möhkəm və mətanətli olmaq («El gücü»), məhəbbət və yoldaşlıqda sədaqət və fədakarlıq, istismarçılara, riyakarlıqvə yaltaqlığa nifrət, beynəlmiləl dostluq və qardaşlıq, azadlıq və səadət uğrunda mübarizə («Dəli ozan») ideyaları tərənnüm və təbliğ edilir. Bunlar hər zaman və xüsusən bizim zamanımızda gənclərdə tərbiyə edilməsi lazım və faydalı olan yüksək insani ideyalardır.

# АНА ҮРӘЙИ ДАҒ ЧИЧӘЙИ



# 1. İGİDİN ADI

Uca dağların almas kimi parıldayan qarlı-buzlu təpələrindən sis-duman çəkilir, göylərin gözəl qızı nazlı-nazlı gülümsəyir, üfüqləri seyr edirdi. Təbiət qış yuxusundan oyanır, göylər də, yerlər də əlvan rənglərə boyanırdı. Yamaclarda boynu bükük bənövşələrin, alabəzək dağ çiçəklərinin ətri saçılır, ağaclarda rəngbərəng çiçəklər açılır, məxmər otların arasından billur sular süzülür, qönçələrə, düyməcələrə parlaq incilər düzülürdü.

Bahar füsunkar, əfsanəvi gözəlliyi ilə bizim ellərə gəlirdi. Baharla birgə onun şux elçiləri: qaranquşlar, sığırçınlar şən nəğmələrlə dəstə-dəstə uçuşub ötüşür, bu ellərin daimi vəfalı nəğməkarları: nazlı turaclar, xınalı kəkliklər, çil bildirçinlər, onlarla səs-səsə verib baharı salamlayır; bütün quşların dilini bilən kəkilli, boz turağaylar ucalıb havadan asılaraq, qonaq sevən ev sahibləri kimi, baharı və gələn quşları, hərəni öz dilində qarşılayırdılar:

Xoş gəldin, gözəl bahar!
Xoş gəldiniz, a quşlar!

Bir yamacın döşündə yurdun gözəl, çevik, qıvraq qızları, oğlanları halay vurub yallı gedir, onlar da quşlar kimi səs-səsə verib günəşi, baharı, quşları salamlayırdılar:

Xoş gəldin, gözəl günəş!
Sən, ey müqəddəs atəş!
Xoş gəldin, nazlı bahar!
Xoş gəldiniz, a quşlar!..

El dədə-baba adətincə bayram edirdi; bu bayram günəş bayramı, bahar bayramı, zəhmət və bərəkət bayramı idi.

Xanlar xanı Bayındır xan misilsiz bir bayram şənliyi qurmuş, sağında-solunda

oxlu-yaraqlı, əlvan bayraqlı bəylər, xanlar, uçan quşlardan da bac alan adlı cəngavərlər, hünərli ərlər durmuşdular.

Yurdun hər bucağından ox atan, at oynadan igid cavanlar, adlı-sanlı pəhlivanlar, saz çalıb söz qoşan məşhur ozanlar axışıb gəlmişdi. Allı-güllü geyinib bəzənmiş badam gözlü, şəkər sözlü qızlar, gəlinlər də yığışıb gəlmiş, rəngin çəmənliklərdən daha gözəl bir məclis düzəlmişdi.

Ortada, gömgöy otlarla atlas kimi döşənmiş geniş bir meydan vardı. Bu meydan ər meydanı, hünər meydanı idi. Gücdə-qüvvətdə, şeirdə, sənətdə, hər cür məharətdə, mənəm deyənlər burada yarışardı. İgid cavanlar bəxtini burada sınar, adsızlar burada ad qazanardı.

Şeypurlar, zurnalar, nağaralar çalındı. Pəhlivanlar güləşdi; atlılar çapdı, keçdi; ozanlar deyişdi... Bayramın sonu, ən maraqlı əyləncənin vaxtı yetişdi.

Xanın doqquz ay qaranlıq tövlədə bəslənmiş harın buğasını meydana çıxardılar. Buğa bir buğa idi ki, buynuzunu daşa vursa—toza dönər; dırnağını qayaya vursa— od qopardı.

Üç pəhlivan sağdan, üç pəhlivan soldan buğanın boynundakı zənciri möhkəm tutmuşdular. Bura özü kimi harın bir buğa ilə döyüşəcəkdi. Birdən buğa nərə çəkib başını silkələdi, zənciri qırıb meydana cumanda, hamı dəhşətlə çığırdı və yerində donub qaldı. Gözü qızmış buğa meydanın qızlar-gəlinlər yerləşən hissəsindəki ala-bəzək rəngləri görüb, düz oraya çapırdı. İndi yəqin qanlar tökəcək, canlar alacaq, şən bayramı qara matəmə çevirəcəkdi.

Hər kəs, hətta silahlı keşikçilər də, şaşqın bir həyəcan içində ikən, on beş yaşlarında bir oğlan bir qaplan çevikliyilə meydana atılıb düz buğanın üstünə cumdu və heyvanın buynuzlarından yapışdı. Bura fınxırıb dik ayağa qalxdı; oğlanın ayaqları yerdən üzüldü və buranın başı üzərindən geri atıldı. Bura bir anda hərlənib ona sarı cumdu. Oğlan onun hücumuna hazır durmuşdu.

Bura yetişən kimi oğlan yenə onun buynuzlarından yapışdı, bura nərə çəkib başını silkələyəndə oğlanın ayağı yenə yerdən üzüldü və bura boynunun qüvvətilə onu kənara atdı. Oğlan yenə yıxılmadı. Bu dəfə buğanı gözləməyib özü onun üstünə cumdu və meydanın ortasında hər ikisi üz-üzə gələndə, oğlan yumruğunu onun alnına, ayaqlarını isə yerə möhkəm dirədi.

Buğa güc gələndə oğlanın ayaqları topuğuna qədər torpağa yeridi. Ancaq o yerindən tərpənmədi. Buğanın qan daman qızarmış gözləri dəhşətlə hərlənirdi. Oğlan gördü ki, təkcə güclə buğanı yıxa bilməyəcəkdir; burada tədbir də lazımdır. Öz-özünə dedi: Damı dirək saxlar, mən niyə buna dirək olum?

Birdən yumruğunu buğanın alnından çəkib özü yana sıçradı. Buğa öz gücü ilə ağzı üstə yerə sərildi. Oğlan bir anda onun başına qonub bıçağını çəkdi, boğazını kəsdi.

— Sağ ol!

— Var ol!

— Yaşa!!!—nidalarilə hər yandan meydana allı-güllü ipək yaylıqlar yağdırıldı. Gənc qızlar yüyürüşüb oğlanın başına ətirli dağ çiçəklərindən, rəngarəng çiçəkli budaqlardan hörülmüş çələnglər qoydular.

Xanın buyruğu ilə şeypurlar çalındı. hay-küy kəsilib hamı öz yerinə çəkildi. Oğlanı xanın hüzuruna çağırdılar. O, baş əyib durdu. Xan onu başdan ayağa süzdü.

O, yaşına görə boylu, enli kürəkli, qarayanız bir oğlandı. Azacıq çatma qara qaşları altında şahin baxışlı qonur gözləri vüqarla parıldayırdı. Tərlan dimdiyinə bənzər zərif burnu, qabarıq dodaqları üstündə eri yenicə tərləmiş yumşaq bığları və bir az enli çənəsinin ucundakı batıq, uzunsov, yuvarlaq üzünə xüsusi bir yaraşıq verirdi.

Əynində tünd-göy rəngli dar qaftan[1], ayağında gən innabı şalvar, belində zərif nəqşli tirmə qurşağa taxılmış ağ şirmayı dəstəkli, qırmızı məxmər qınlı bir bıçaq, ayağında qısa boğazlı, sarı meşin məst var idi. Başındakı xurmayı papağın altından qara, qıvrım saçları çıxıb geniş alnını və qulaqlarının üstünü bürümüşdü.

Xan gözəl olduğu qədər də hünərli və çevik olan bu cavanı seyr etməkdən zövq alırmış kimi, bir müddət sükutdan sonra soruşdu:

— Kimsən igid? Adın nə?

Oğlan hələ tamam bərkiməmiş cinkiltili, lakin sərbəst axan bir səslə cavab verdi:

— Mənə Dərsə xan oğlu deyərlər, xan çap olsun, hələ adım yoxdur...

— Sən bu gün hünər göstərdin, ad almağa haqq qazandın, oğlan,—deyə xan yanındakılara buyruq verdi:—Dədə Qorqud gəlsin, bu oğlana ad qoysun!

Ozanlar ozanı Dədə-Qorqud gəldi, sədəfli qopuzunu sinəsinə basıb igidə belə ad qoydu:

El bəyəndi səni, oğlan, bəy olasan,
Mən demirəm bu hünərlə tək olasan:
El içində artsın tayın-tuşun sənin,
Boş dönməsin ovdan qızılquşun, sənin
Bədöy atın kişnəyəndə, göy titrəsin.
Qılıncına şimşəklər də, «Əhsən!» desin.
Öyün, belə oğul doğan ana, öyün!
Ad almağa haqq qazandı oğlun bugün.
Qızlar qoydu çiçəklərdən başına tac;
Buğa yıxdı—mən adını qoydum—Buğac!

---

Qaftan-qədim üst geyim , çuxa.

## 2. Ç U Ğ U L

Qap qaranlıq bir gecə...

Dəyənin bucağında Dərsə xanın yasavul başçısı Qaragün uzanmışdı (anadan _ olanda gün tutulduğu üçün, adını belə qoymuşdular). Çırağın tutqun işığında onun iri, ətli üzündəki çopurlar daha dərin, çuxura düşmüş tək sağ gözü daha qorxunc, alnının sol tərəfindəki dərin göyümtül çapıq və sol gözünün boş qalmış yuvası bir qaya oyuğu kimi görünürdü. İşıq titrədikcə, onun qaya parçası kimi hərəkətsiz üzündə əcayib kölgələr oynaşır, üzü suya düşmüş qorxunc bir əks kimi elə bil yayılıb yığılır, iri, yöndəmsiz burnu, qalın dağınıq qaşları, yoğun bığları sanki ayrı-ayrı hərəkətə gəlir, sonra yenə donub qayaya dönürdü.

Onun başının üstündən, divarda, zolaq-zolaq bir pələng dərisi üzərində mal damarından hörülmüş qaba bir qamçı, qotazlı bir qılınc, qalxan, yay və sadaq[1] asılmışdı.

Yasavulbaşının altındakı döşək, dirsəkləndiyi balış və mütəkkələr yumşaq quzu yunundan, zərif qu tükündən idisə də, o yenə dincələ bilmirdi. Tez-tez yerində o tərəf-bu tərəfə çevrilir, ufuldayır, surahıdakı tünd al şərabdan piyalə-piyalə içir, yenə rahat, ola bilmirdi.

Qaragünün dərdi böyük idi. Buğacın, dünənki uşağın eldə-obada, xüsusən xanlar-bəylər arasında belə ad-san qazanması onu rahat qoymurdu. Onun gözü ac, ürəyi qurdlu idi.

Yasavulbaşı bir zaman düşünürdü ki, «Dərsə xanın evladı yoxdur—sabah ölər, mən xan olaram...»

Xanın oğlu olanda, Qaragün ümidini itirməmişdi; öz-özünə demişdi: «Kim bilir böyüyənə qədər başına nələr gələcək... gəlməsə də, gətirərik...»

Ancaq on beş yaşlı cavanın birdən-birə belə hünər göstərməsi, xanlar xanı Bayındır xanın buyuruğu ilə ona indidən bəylik verilməsi Qaragünün gününü qara, bütün xülyalarını alt-üst eləmişdi.

Yasavulbaşı yenə ufuldadı, yerində dikəlib şərabdav bir dolu piyalə içdi; əlini uzadıb divardan qamçını aldı. Şirmayı dəstəsilə üç dəfə qalxana vurdu. Dəyənin qalın palaz pərdəsi aralandı, qıyıq gözlu, seyrək, uzun bığlı bir yasavul başını içəri uzatdı.

Qaragün onun üzünə baxmadan, xırıltılı bir səslə əmr etdi:

— Çağır gəlsinlər!

Qapıçı kimi çağıracağını yaxşı bilirdi, neçə gün idi ki, yasavulbaşı hər gecə bu vaxt öz əlaltıları ilə burada görüşür, pıçıltı ilə danışır, tədbir tökürdü...

Sadaq-ox qabı.

*
* *

Dərsə xan artıq qocalmışdı. Oğlu Buğaca bəylik verib onu yaxın obalara göndərmişdi. Oğlunun özünə layiq bir xələf olacağından fərəhlənib, xan qocalıq günlərini şad və rahat keçirmək umidində idi. Bütün gecəni Dərsə xan arvadı Anaxatunla şirin söhbətdə keçirmişdi:

«...Buğac daha böyüyüb, göz dəyməsin, adlı-sanlı bir igid olub... Bir neçə il sonra ölkənin ən gözəl və kamallı qızını, rənglərin və çiçəklərin dilini bilən, toxuduğu füsunkar ipək xalçalarilə hamını heyran edən Aybikəni Buğaca alacaq, oğul toyu da görəcəklər... Nəvələri olacaq... Qocalıq günlərini onların sevinci ilə dolduracaq, şən keçirəcəklər...»

Ata-ananın ən şirin xəyalları, ən gözəl arzuları!..

Xan bu dadlı xəyallarla səhərə yaxın yuxuya getmiş, gözəl bir röya görmüşdü: nəvəsini, eynən Buğacın körpəliyinə bənzəyən, totuq bir oğlanı qucağında oynadır, atıb-tutur. Nəvəsi onun çal bığlarını, ağ saqqalını kiçik barmaqlarına dolayır, zərif əllərilə burnundan, qulağından yapışır, boğazının altını qıdıqlayır...

Xan gülə-gülə yuxudan ayıldı. Gün artıq üç mızraq[2] boyu ucalmışdı. Gen çapanını əyninə geyib qəbul otağına keçəndə, taygöz yasavulbaşını qapıda gördü. Yasavulbaşı xanı görən kimi ayaqlarına yıxıldı, yalvarmağa başladı: —

Amandır, bağışla, xan, cavanlığına bağışla.... Bilməyib, taqsırından keç!

Xan heyrətlə iki addım geri çəkilib təəccüblə so¬ruşdu:

—Nə var, nə olub ki?

—Xan sağ olsun, Buğacı deyirəm, bağışla cavandır!..

—Qalx görüm, bir adam kimi söylə, nə var axı?!

—Vay, xəbərin yoxmu xan?—deyə yasavulbaşı guya dediyinə peşman olmuş kimi, bir təəssüflə kəkələməyə başladı:

—Dilim-ağzım qurusun, xan... Onda nahaq dedim... heç e...e...heç...

Xan şübhə, maraq və qəzəb duyğuları içində, əsəbi bir halda soruşdu:

—Yox, yox... sözünü danma, söylə görüm nə var!

Yasavulbaşı əzilib-büzülməyə başladı:

—Göyə, yerə and olsun, xan, elə bildim sənə deyiblər.. gəldim ki, yalvarım, taqsırından keçəsən... yoxsa...

Xan büsbütün qızışıb qəzəblə bağırdı:

—Sənə buyururam söylə, yassar, yoxsa!..

Xan hirslə, altdan yuxarı divardakı qılınca baxdı. Yasavulbaşıya da bu lazım idi. O, xanın ürəyinə şübhə toxumu sala bilmişdi. Yaltaq bir əda ilə Buğacı çuğullamağa başladı.

---

[2] M ı z r a q —nizə, cida.

— Dilim yansın, xan, deyirlər ki, oğlun Buğac bəy...o, «bəy» sözünü xüsusi bir əda ilə ifadə etdi.—Deyirlər ki, səni öldürmək fikrinə düşüb!..

— Sus, murdar!—deyə xan iki əli ilə onun yaxasından yapışıb silkələdi.—Nə çərənlədiyini bilirsənmi?!

Xanın əlləri sustaldı. Yaxası xanın əlindgn çıxan kimi, yasavulbaşı yenə onun ayaqlarına düşdü.

— Xan sağ olsun, yasavullar gecə yarısı qəsrin yanında, qapının ağzında şübhəli bir adam yaxaladılar. Onu sabaha qədər işgəncələrlə dindirdim. Nəhayət oğlun Buğacın təhrikilə səni öldürməyə gəldiyini boynuna aldı... İstəyirsən çağırım, özün dindir... Ancaq, xan çap olsun, Buğac cavandır, bəlkə yoldan azıb, bağışla, başa sal, nəsihət elə...

Xanın başı hərlənirdi. O, sərsəm kimi, ayaqları dolaşa-dolaşa, divar dibinə qədər yeriyib oradakı döşəklərin üstünə çökdü.

Qaragün, xanın sarsıldığını, susduğunu görüb ürəkləndi, qəzəb və həyəcanını görüb sevindi. Onun sinəsini yandıran odun üstünə su səpməyə başladı; ancaq elə bir su ki, alovu daha da coşdursun:

— Xan sağ olsun, nə olar, cavandır, bağışla... Ancaq deyirlər ki, qırx igidi başına yığıb eli-obanı talayır: qızlara-gəlinlərə toxunur; ağsaqqal qocaları söyür, ağbirçək qarıları döyür...

Yasavulbaşı bilirdi ki, bəlkə də xan, özunə qarşı edilən sui-qəsdi əfv edə bilər, amma elə, xalqa qarşı təcavüzü əsla bağışlamaz, odur ki, dediklərini bir az da qüvvətləndirməyə çalışdı:

— Xan sağ olsun, camaat şikayətə elçilər göndərib, buyurub dindirə bilərsən...

Xan boğulurmuş kimi, zorla eşidilən xırıltılı bir səslə dedi:

— Gedin mənə onun başını gətirin!

Yasavulbaşı arzusuna çatmışdı. Özünə gəlməyə xana fürsət verməyib dilləndi:

— Xan sağ olsun, indi ona yaxın düşməkmi olar? Özü güclü-zorlu, başında qolu zorba quldurlar.. Buyuruq ver sabah ova çıxaq, onu tək çağıraq, onda bəlkə bir təhər...

Xan bircə kəlmə ilə hökmünü verdi:

— Olsun!..

## 3. O V

Bənövşə rəngli üfüqdə almas parçası kimi parıldayan dan ulduzu əriyir, getdikcə billurlaşan havaya qarışırdı. Gündoğan tərəf utancaq bir qız yanağı kimi qızarır, incə bulutlar mor, pənbə, lacivərd rənglərə boyanır, səma ağır-ağır dalğalanan bir sədəf gölü kimi hər an rəngdən-rəngə girirdi.

Sərin-sərin dan yelləri əsdikcə, dənizin xoş rayihəsini, ucsuz-bucaqsız düzlərdəki güllərin-çiçəklərin ətrini yayırdı.



Alaqaranlıqda hələ yer ilə göy bir-birindən seçilmir , sübhün əbədi aşiqləri olan boz turağaylar havalanıb səhər nəğmələrini oxuyur , bildirçinlər , turaclar səs-səsə verib doğacaq günəşi pişvaz edirdi.

Ötüşən quşların civiltili nəğməsi, pıçıldaşan ətirli güllərin, çiçəklərin, atlas yarpaqların xəfif səsi, billur suların şirin zümzüməsi, səhərin təranəsi...

Kainat nə möhtəşəm, təbiət nə gözəl, həyat nə dadlı, insan nə bəxtiyardır!.. Bəxtiyardır; çünki bütün bu gözəllikləri duyan da, anlayan da insandır!..

Səhər açılırdı. Sabahın bu ahəngdar musiqisini ordan-burdan ucalan insan bağırtıları, at kişnəmələri, it hürüşmələri, şeypur nidaları pozurdu.

Dərsə xan ova çıxmışdı. Xanın sağında-solunda düzülən yasavullar, qollarında qızıl quş, şonqar, qaraquş aparan quş bəyləri, yedəklərində tazı-tula gedən şikarçılar, nökərlər böyük bir yarım dairə təşkil etmişdilər.

Hava işıqlaşanda, kolluqlardan bildirçin, turac, kəklik pırıldaşıb qalxdıqca, alıcı quşları buraxıb ovlayırdılar. Tazılar dovşanları qovalayır, nökərlər hay-küylə at çapırdılar.

Hələ nə xan, nə Buğac ova qarışmır, əsl ovlağa—Ceyran düzünə çatmağı gözləyirdilər.

Xan da, Buğac da, yasavulbaşı da dalğın idilər. Hərənin öz daxili aləmi, öz xəyal və düşüncələri vardı.

Xan, yasavulbaşının riyakar bir sədaqətlə uydurduğu iftiranın təsirilə bütün gecəni yatmamışdı. Qorxunc xəyallar içində sübhə qədər oğlu ilə pəncə-pəncəyə əlləşmişdi. İndi də o kabusdan qurtarmayıb oğlunun hər bir hərəkətindən diksinir, yuxu ilə oyaqlıq arasında idi.

Yasavulbaşı, xanın ürəyində imiş kimi, onun həyəcan və dalğınlığının səbəbini yaxşı bilirdi. Tez-tez atını sürüb oğlu ilə onun arasına girir, guya özünü süpər edib onu olğundan qoruyurdu. Əslində isə, çalışırdı ki, onların arasında heç bir söhbət olmasın, fitnənin üstü açılmasın.

Buğac isə, bütün vəsvəsələrdən uzaq olub cavan bir ovçu ehtirasilə yalnız, qarşıdakı ov barəsində həyəcanla düşünməkdə idi. Necə də həyəcanlanmasın? İlk dəfə idi ki, atasilə birgə cah-cəlalla ova çıxmışdı! Bugün o, hələlik  özünə və yaxın yoldaşlarına, öz qırx igidinə məlum olan ovçuluq məharətini atasına da göstərəcək idi. Bütün ölkədə ən məşhur və ən mahir ovçu sayılan atasının təhsin və təqdirini qazanacaqdı...

Buğacın gözlərinin önündə indidən ceyranlar qaçışır; o atasının qarşısında bir oxla iki ceyranı birdən vurur, bir kəməndlə  ikisini birdən tuturdu... Atası da onu bağrına basıb sevinir, öyünür; Buğacın köksü fərəhlə qabarırdı...

Bu dadlı xəyallarla öz-özünə gülümsəyən, gözlərində sevinc şimşəkləri parlayan Buğacın üzünə arabir keçici bir bulut da qonurdu. Belə anlarda o düşünürdü ki,—Ah, nə olaydı, gözəl Aybikə də burada olaydı, onun hünərini, məharətini bir də görəydi!.. Hələ yoldaşları, onun daimi ov və savaş yoldaşları, qırx ikidi... Görəsən atası onu niyə tək çağırmışdı?!

Bugünkü ovdan hərəsi ayrı-ayrı məqsədlər güdən bu iki cəngavər ovçu ilə bir yassar tülkü (yəni yasavulbaşı) bir-birinə  zidd olan belə xəyal və düşüncələr içində Ceyran düzünə çatdılar.

Ov qaydasilə adamları öz yerlərinə göndərdilər.

Buğac atını çaparaq hərlənib surəyə getdi ki, ceyranları tapıb atasına sarı qovsun.

Aradan bir az keçməmiş, dəniz üfüqü kimi dümdüz  üfüqdə, kolluqlar üzərində bir neçə nöqtə göründü. Nötələr  getdikcə  yaxınlaşır, yaxınlaşdıqca iriləşir, seçilirdi. Buğac üç ceyranı qabağına qatıb düz xana sarı qovurdu. O, el qanadlı atını qəsdən çapmırdı ki, ovu atasının gözü önündə ovlasın.

Xana bir ox mənzili qalanda, Buğac atı üstündə dikəlib oxunu atdı; ceyranlardan biri dik atılıb yerə sərildi.

İkinci ceyranı Buğac bir az da qovlayıb oxu xanın qarşısında o qədər yaxından atdı ki, kamanın vıyıltısı  ilə, oxun qıjıltısı aydın eşidildi və buynuzlu təkə düz xanın ayağı altına yıxıldı.

Ox qıjıltı ilə gələndə, yasavulbaşı qondarma bir canfəşanlıq ilə özünü, xanın qabağına verdi və guya sinəsilə onu oxdan qorumaq istədi:

— Aman... tanrı qorudu  xan!..—deyə o bir iblis vəsvəsəsilə xana pıçıldadı:—Görürsənmi, namərd oğul oxla səni vurmaq istəyir. Amandır, çəld ol, ? O səni öldürmədən, sən onu öldür!..

Buğac üçüncü ceyranı kəməndlə diri tutmaq və atasına bu məharətini də götərmək istəyirdi. Ceyranı hərləyib xanın lap yaxınında əlini kəməndə atıb, qolaylandı.

Doğrudan da vahiməyə düşüb rəngi qaçmış xan bir oxu da boşa çıxmayan möhkəm yayını əlinə alıb üç haçalı bir oxu kirişə qoydu, ayağını üzəngiyə basıb

dikəldi və ömründə ilk dəfə əli əsə-əsə, oxu atıb gözlərini yumdu. Ox qıjıldadı və arxası xana, qolaylanıb kəmənd atan Buğacın iki kürəyinin arasına sancıldı.

İgid pəhlivan ani bir hərəkətlə başını çevirib əlində kaman tutmuş atasını gördü, açıla qalmış qollarını atının boynuna dolayıb onu qucaqladı. Vəfalı dost yaralı cəngavəri alıb gedərkən, onun yanıqlı fəryadı eşidildi:

— Atacan!.. ata!..

# 4. ANA ÜRƏYİ—DAĞ ÇİÇƏYİ

Ana ürəyi həyəcan içində idi. Uzun illər bala həsrətilə keçən ömrünün novbarı, bəxtinin çiçəyi, evinin dirəyi, igid oğlu Buğac ilk dəfə idi ki, atası ilə ova çıxmışdı. Anaxatun yaxşı bilirdi ki, Buğac bugün ovda yenidən ad çıxaracaq. «Dostları sevindirəcək, düşmənlərin sinəsinə dağ çəkəcək; bəylər, xanlar yanında atasının başını ucaldacaqdı. Dərsə xan sevinəcək, öyünəcək, oğluna məhəbbəti qat-qatt artacaqdı...

Ovdan gələnləri layiqilə qarşılamaq lazımdı. Anaxatun qırx gözəl qızla hər tədarükü görmüşdü... İri ocaqlar üstündə dolu qazanlar buğlanır; dadlı qızarmış ət qoxusu ətrafa yayılırdı. Surahılar şərbət və şərablarla doldurulub sərin bulaqlara qoyulmuş, məzələr, xuruşlar boşqablara düzülmüşdü. Ovçular üstbaşlarını dəyişib əl-üzlərini yuyana qədər ov ətlərindən şişlik bişirmək üçün, incə ətirli budaqlardan şişlər, ocaqlarda yaqut kimi,qızaran gözlər hazırlanmışdı...

Axşam yaxınlaşdıqca, ananın səbri tükənir, ürəyi döyünürdü. (Axır o dözə bilmədi; qırx qızla birgə atlanıb ovçuları qarşılamaq üçün obadan aralandı.

Bir az sonra uzaqdan dəstə göründü. Amma nədənsə, nə ov şeypurları çalınır, nə də ovçuların şən hayqırtıları eşidilirdi. Həmişə xan ovdan qayıdanda dağa-daşa səs düşərdi. Bəs indi nəyə belə?! Olmaya...

Ana ürəyindən sanki bir tel qırıldı. Bu tel həzin-həzin səsləndi:

«Bəlkə bir fəlakət baş verib?!»

Ana atını sürüb xanla üz-üzə gəldi. Sağına-soluna baxdı, Buğacı görmədi. Ürəyindən sanki bir tel də qopdu. Həyəcan və təlaşla dilə gəldi:

— Bəs mənim balam hanı?!

Xan dinmədi. O, başını köksünə əyib gözünü atının yalına zilləmişdi; rəngi saqqalının tüklərindən də ağ idi.

Xanın bu məşum sükutu ən acı xəbərdən də ağır idi. Ana qatlaşa bilmədi. Ana ürəyinin sanki bütün telləri birdən qırıldı və çoşqun, sarsıdıcı bir səslə hayqırdı:

— Bağrım çatladı, xan, dillənsənə, söyləsənə, hanı mənim balam? Qoşa getdin, tək qayıtdın xan, balam hanı?

Sarp qayadan aşırdınsa, gizlətmə, de! Azğın, çoşqun sulara verdinsə, söylə mənə! İti dişli aslanlara, qaplanlara qapdırdınsa, gizlətmə, de! Qara üzlü, qolu

zorlu yağılar alıb apardısa, söylə mənə!

Sarp dağları dırnağımla parçalaram. Mən balamı taparam! Azğın, çoşqun suları bu sinəmlə durduraram, mən balamı alaram! İti dişli aslanları, qaplanları dişimlə didərəm, mən balamı xilas edərəm! Qara üzlü zor yağını bir nərəmlə, bir zərbəmlə sarsıdaram, mən balamı qurtararam!

Ürəyimdən al qanımın son damlası-tökülməyincə, bağrımdakı odlu nəfəsim buza dönüb sönməyincə, ağca tənim qara külə dönməyincə mən balamdan dönmərəm xan, söylə, hanı mənim aslanım, hanı mənim Buğacım?!

Xan yenə dinmədi. O, saralmış dodaqlarını, çal bığlarını gəmirirdi.

İşi belə görən yasavulbaşı ananı da aldatmaq istədi, İrəli gəlib ona baş əydi.

— Anaxatun, heç nigaran qalma. Oğlun Buğac sağ-salamatdır. Xan yoruldu, qayıtdı; o cavandır, ovdan doymadı, dağlarda, düzlərdə ceyran qovub ov ovlayır. Sabah, biri gün qayıdıb gələr, arxayın ol, qayıt gedək…

Ana ürəyi onun gözlərindəki saxta boyanı, sözlərindəki hiylə və riyanı duydu. Atını məhmizləyib qırx qızla birgə çölə, ovlağa sarı üz qoydu.

Ana, yaz-qış başı qarlı Alaca dağa çatdı; bir təpəyə çıxdı; ətrafa göz gəzdirdi.

Batmaqda olan günəşin son şüaları bulutlara əks etmiş, göylər al qana boyanmışdı. Güllü-çiçəkli uca dağın sinəsindən büllur sulara üfüqün rəngi düşmüş, sanki dağın köksü qanamışdı. Ananın da ürəyindən qara qanlar gedirdi...

Ana, oğul həsrətilə həyəcanlı gözlərini üfüqlərə gəzdirəndə, bir dərənin üzərində qarğaların, quzğunlarım halay vurub hərləndiyini gördü və atını düz oraya sürdü.

Çatanda nə gördü!

İgid Buğac üzüquylu bir bulağın kənarına sərilib hərəkətsiz yatır. Vəfalı atı isə onu, qan görüb axışan yırtıcı quşlardan və heyvanlardan qoruyur. Buğacdan aşağı, bulağdan su yerinə qan axır...

Ana oğlunu belə görəndə, sinəsindən odlu bir fəryad qopdu:

— Gözüm çıxaydı, oğul, səni belə görməyə idim! Axar suların qurusun, Alaca dağ, göz yaşlarım qurudu. Otların, çiçəklərin külə dönsün, Alaca dağ, ciyərim yandı, külə döndü. Cüyürün-ceyranın qırılsın, Alaca dağ, bircə balama necə qıydın!..

Çanım, gözüm oğul, sənə aslanmı qıydı, qaplanmı?! Anan qurban oğul, bir hay versənə!..

Belə deyib ana oğlunun bum-buz olmuş başını bağrına basdı.

Qulağında mehriban ana səsini, uzundə ılıq ana nəfəsini duyan Buğac gözlərini yarı açdı. Ananın munis çöhrəsini görəndə, gülümsündü və dərindən çıxan zəif bir səslə dedi:

— Dağa-daşa qarğıma, anaçan!.. Otlar-çiçəklər neyləsin? Cüyürlərin-

ceyranların günahı yox... Aslanlar, qaplanlar mənə neylər, ana! Onlara qarğıma... Bu bəla atamdandır, anacan, atamdan!..

Yazıq ananın yaralı qəlbinə sanki bir ox da vuruldu. Dağ-daş başına hərləndi.

Buğac yenə haman zəif, lakin inamlı səsilə davam etdi:

—Qorxma anacan, mənə bu yaradan ölüm yoxdur. Burada bihuş yatarkən, ağ saçlı, ağ saqqallı nurani bir pir... mənə meydanda ad verən o qoca ozan gözümə göründü. Yaramı üç dəfə sığalladı. Dedi ki: «Ana südü ilə dağ çiçəyi sənə mərhəmdir...»

Qırx gözəl qız bir anda yamaca yayılıb ana vətənin şirəsini içmiş ətirli dağ çiçəkləri yığdılar. Ana döşünü sıxdı, süd gəlmədi; bir də sıxdı, yenə gəlmədi; bir də var gücilə sıxanda, südlə qan qarışıq gəldi.

Ana südü ilə dağ çiçəyini igidin yarasına sürtdülər, sarıdılar, atına mindirib öz obasına apardılar.

## 5. Ç A P A R

Ovdakı məşum hadisədən sonra birinci gecə xan yatmaq istərkən, gözlərini yumar-yummaz, oğlu Buğac al qan içində gəlib—«Atacan, ata!..» deyə onu qucaqlayanda, sinəsindən çıxan üç haçalı oxun ucu xanın sinəsinə batırmış kimi, o sərasimə oyanmışdı. O, gecədən bəri xan gözlərini bir daha yuma bilmirdi. Saçı-saqqalı qar kimi ağarmış, çuxura düşmüş gözlərinin dövrəsi qaralmış, əli-ayağı əsir, bütün vücudu uçunurdu. Xan havalı kimi bu otaqdan o otağa qaçır, bu küncdə-o küncdə yumaq kimi yumurlanır, sanki kimdənsə gizlənmək istəyirdi. Birdən çılğın nərə çəkib yerindən qopur, rast gələn hər şeyi qırırdı.

Hələ ilk günlərdə bir dəfə yasavulbaşı onu yoluxmağa gələndə, xan çoşqun bir qgzzblg onun üzərinə atılmış və dişlərilə boğazını üzmək istəmişdi. Yasavullar onu zorla xanın pəncəsindən qurtarmışdılar.

Yasavulbaşı o gündən bəri bütün qapıları xanın üzünə qapadıb onu xəstə elan etmiş, qapılara öz adamını keşikçi qoymuşdu. Xanın yanına kimsəni buraxmır, özü də gözünə görünmürdü.

Aradan qırx gün keçmiş, xan artıq taqətdən düşmüşdü. Saatlarla bihuş qalır, ara-bir yaralı aslan kimi boğuq nərə çəkirdi. Daş ürəkli keşikçilər belə onun tük ürpərdən bir səslə: «Oğul... Buğac!..» fəryadını eşidəndə, sarsılırdılar.

Yasavulbaşı xanın bugün-sabah «öz əcəlilə» öləcəyini və xanlar xanı Bayındır xandan elçi gəlib ona xanlıq müjdəsi gətirəcəyini gözləyirdi.

Bir gün səhərə yaxın bu xülyalarla yerinin içində xumarlanırkən, birdən otağının qapısı açıldı və qıyıq gözlü, seyrək uzun bığlı sadiq köpəyi başını içəri-uzadıb dedi:

— Ağa, bir çapar gəlib...

Ürəyi səksəkəli olan yasavulbaşı onu narahat etdikləri üçün hirslənmək istədisə də, bacarmadı:

— Gəlsin!—dedi.

Üst-başı toz-torpaq içində, qısa boylu, cücə kimi sısqa və iri çopur burnu qırmaq kimi əyri bir topal, yumaq kimi yumalana-yumalana içəri girdi. Yasavulbaşı bu köhnə casusunu görən kimi canına lərzə düşdü.

Ovdakı hadisədən sonra o Buğacın cəsədini gətirmək üçün adam göndərmiş, onu tapmadıqdan sonra hər yana adam salmış, ancaq Buğacın nə ölüsündən, nə dirisindən, nə də Anaxatundan bir soraq əldə edə bilməmişdi. Öz köhnə, təcrübəli casusunu Buğacın obasına göndərib bir xəbər bilməyi tapşırmışdı. Buna görə də indi haman casusu görəndə, rəngi qaçdı, dili-dolaşdı, kəkələyə-kəkələyə soruşdu:

— Nə var topal, xeyirmi, şərmi?

Casus, adəti üzrə, danışmadan əvvəl yan-yörəsini gözdən keçirdi. Bayquş kimi boyunsuz, bədəninə görə yekə, lakin mütəhərrik başını əcayib və iyrənc bir surətdə hərləyib düz arxasına, indicə girdiyi qapıya baxdı. Kəsilmiş bir xortum kimi dəyirmi qalın dodaqlarını bir-neçə dəfə uzadıb yığaraq, sanki ətrafı qoxladı. Arxayın olmayıb qarğa kimi səkə-səkə yasavula yaxınlaşdı, qulağına nə isə pıçıldadı.

Yasavulbaşı ilan vurmuş kimi yerindən sıçradı. Dili- dodağı əsə-əsə, zarıltılı bir səslə soruşdu:

— Necə?.. Ola bilməz!..

Casus ilan fışıltısı kimi iyrənc bir pıçıltı ilə:

— Bəli, bəli, ağa, öz gözümlə gördüm... Düz bura gəlirlər. Üç at bağrı çatlatmışam...

Yasavulbaşı hövlənak bir hərəkətlə divardakı damar qamçını qapıb şirmayı dəstəsini qalxana elə çırpdı ki,. Dəstə çilik-çilik olub ipək xalının üstünə səpələndi.

Qapıçı başını uzatdı.

— Çağır gəlsinlər! Bir qırpımda!..

Yasavulbaşı əlaltıları ilə qısaca bir məsləhətdən sonra qəsrdəki bütün xəzinə və ağır-yüngülü quldurlara məxsus bir surət və səliqə ilə dənləyib topladılar.

Taqətdən düşüb artıq hər şeyə laqeyd baxan və heç bir müqavimət göstərməyən qoca xanı da sicimlə bir atın belinə sarıyıb tələsik yola duşdulər.

Xəzinəni aralarında bölüşəcək, xanı da düşmən şahına təslim edib ona sədaqət izhar edəcəkdilər...

## 6. ATA SEVGİSİ

Ana südü ilə dağ çiçəyi mərhəmini qoyandan sonra qırx gün keçmişdi ki, Buğac bir sabah erkən qırx igidini başına yığıb ova çıxdı.

Bir oxu da yayınmadı, bir kəməndi dg boşa çıxmadı. Qolu əvvəlkindən də güclü, canı əvvəlkindən də saz idi.

Buğacın məqsədi ov deyildi. O öz gücünü, çevikliyini bədəninin dözümünü sınayırdı.

Axşam şad, gülər üzlə anasının yanına gəlib əllərindən öpdü və dedi: — Atamla görüşə hazıram, anacan!..

Ananın şəfqət və qürurla parlayan gözlərində sanki şimşəklər çaxdı, bulut keçdi, büllur kimi iki damla göz yaşı solğun yanaqlarına süzüldü.

Buğac onun ürəyindən xəbər vermişdi.

Anaxatun yaxşı bilirdi ki, Dərsə xan oğlunu ata qəlbinin zahirən xəsis, lakin əslində dəniz kimi əngin məhəbbətilə sevir. O yaxşı bilirdi ki, gözünün ağı-qarası bircə oğlunu, evinin dayağını, qarı düşmənə göz dağını, yeganə vəliəhdini vurmağa xanın əli gəlməzdi.

Buğac hələ şıltaq bir körpə ikən, gecələri sübhə qədər onunla baş-başa verib beşiyini yırğalayan, bəzən hətta yoğun səsilə ona gülünc və əcayib bir surətdə layla çalan o deyildimi? Uşağın ən kiçik bir narahatlığını ürəyinə salan, bəzən günlərcə ac-susuz qalan o de¬yildimi? Nəhayət, o məşum ovdan bircə gün əvvəl, sabaha qədər Buğacın ad qazanmasından deyib öyünən, onun toyunu həsrətlə arzulayan, hətta nəvə görməyə dadlı ümidlər bəsləyən o deyildimi?

Yox, yox, Dərsə xan oğluna qıya bilməzdi. Burda bir sirr, bir hiylə vardı!

Ana bircə an ayrılmadığı bu saf, səmimi düşüncələrini hələ yarası tamamilə saralmamış oğluna demək istəməmişdi...

Buğac da belə düşünürdu:

Hələ aldığı yaranın ağrısından yata bilmədiyi uzun iztirablı gecələrdə, qızdırmanın şiddətindən sayıqlayanda da, atasının ta uşaqlığından hafizəsinə nəqş olunmuş mehriban baxışları gözləri önündən getməz, «Atacan, xan baba!..» sözləri dilindən düşməzdi.

Əqli kəsdiyi zamandan, uşaqlıq günlərindən bəri atasından nə pislik görmüşdü?

Hələ dörd-beş yaşlarından yadında qalan bu idi ki, atası iki əli ilə qoltuğunun altından yapışıb onu havaya qaldırır, atıb-tutardı. Uşağın ürəyi uçunardı; o çığırar, lakin bu oyundan xüsusi bir həzz alardı. «Yenə yenə!..» deyib, başını yuxarı qaldıranda, atası onun boğazının altından öpər, onun qıdığı tutub gülməkdən uğunardı. Atanın sərt bığlarının yeri saatlarla göyərər, günlərcə izi getməzdi. Bəzən ata gözlərini yumub yuxlamış kimi görünər, oğul tumbul əllərilə onun bığlarını oynadanda, ata birdən hayqıraraq onun əlini qapmaq istəyəndə, o

diksinər, qaçardı...



Daha sonralar atasilə taxta qılınclarla, keçə ilə sarılmış ucu yumşaq toppuzlarla vuruşar və ya yumruqlaşar, güləşərdi. Bu zaman atasının bəzən qəsdən onu sınamaq üçün, bəzən də özü bilmədən vurduğu bir az şiddətlicə zərbələrdən gözləri yaşarardısa, heç də bunu bildirməzdi. Bu zərbələrdən duyduğu ağrılar da ona anasının ılıq ipək busələri kimi dadlı gələrdi.

Buğac yarası Sağalıncaya qədər, hər ehtimala qarşı gizlində saxlandığı bu qırx gün müddətində bütün uşaqlıq xatirələrini bir-bir yad etmişdi. Heç atası onu na-haq yerə incitmişdimi?

Buğac bir hadisəni, dünən olmuş kimi, yaxşı xatırlayırdı:

Yeddi-səkkiz yaşlarında ikən, özünə qoşa nar çubuğundan bir yay və qarğıdan oxlar qayırmışdı. Bir gün bağçada quş atarkən, birdən kolun dalından bir çığırtı qopmuşdu. Ox bağçada gül-çiçək dərən balaca Aybikənin ayağına dəyib qanatmış, qanı görən qızcığaz daha bərkdən çığırmağa başlamışdı. Bağçada gəzişən xan səsə gəlmiş və işi belə görəndə, yayı onun əlindən alıb yambuzuna bir-iki çəkmiş və parça-parça edib tullamışdı.

Buğaca elə gəlirdi ki, çubuğların yeri indi də ağrıyır; onu daha çox ağrıdan özü qayırdığı yayın sındırılması olmuşdu.

Ertəsi gün atası onu yanına çağırıb balaca, qəşəng, doğruçu bir yay və zərli, oxlarla dolu gözəl meşin bir sadaq bağışlamışdı. Oxu harada və necə atmaq lazım olduğunu yaxşı-yaxşı tapşırmış, hətta özü də saatlarca onunla əylənib nişan atmışdı.

Bununla belə Buğac o zaman ona çox ağır gələn bu cəzanı heç unuda bilmirdi. Ancaq atası haqlı deyildimi?!

Bəli, Buğac yaxşı bilirdi ki, atası onu ciddi, tələbkar, lakin eyni zamanda hədsiz-hüdudsuz bir ata məhəbbəti ilə sevir.

Yox-yox!.. Belə ata öz oğluna qıya bilməzdi...

Yox-yox, bu qəza deyil, fəlakət deyil, bu bir cinayət idi, həm də əsrarəngiz bir cinayət!..

İndi Buğac bu cinayətin üstündəki əsrarəngiz pərdəni açmaq üçün atasının hüzuruna getmək məqsədilə anasının yanına gəlmişdi.

Buğac anasının dinməyib gözlərinin yaşardığını və nə isə çox dərin düşüncələrə daldığını görüb yalvarıcı bir əda ilə dedi:

— Gedək, anacan, sən də gedək, gedib atamın əllərindən öpəcəyəm. Bir günahım varsa, canım ona qurbandır!..

Ananın saf ürəyində çağlayan bir dəniz vardı. Onun coşub-daşmasına zorla mane olub nəvazişlə qollarını igid və mərd oğlunun boynuna doladı, onu bağrına basdı:

— Can bala!—dedi,—ürəyimdən xəbər verdin!..

Sonra əllərinin dalilə gözlərinin sevinc yaşlarını silib dərindən köksünü ötürdü:

— Eh, nə deyim, ay oğul, tanrı atana insaf versin!..
— Yox, anacan, tanrı ağamı namərdlərin şərrindən qorusun...

## 7. CANA—CAN, QANA—QAN

Ana qırx gözəl qız, oğul da qırx igidlə xan qəsrinə çatanda, gün xeyli ucalmışdı. Qəsr əsrarəngiz bir sükuta qərq olmuşdu. Nə keşikçilərdən, nə qapıçılardan, nə də sair xidmətkarlardan əsər-əlamət yox idi.

Ana-oğul atdan düşüb içəri girəndə, xanın otaqlarını bom-boş, xəzinəni isə, talanmış gördülər. Onlar heyrət və dəhşət içində qəsrdgn çıxarkən, xanın ilxılarını otaran qoca, çılpaq bir at belində çaparaq gəlib sinəsi yana-yana xəbər verdi:

— Çaldılar, çapdılar, namgrdlgr apardılar... xanı da apardılar...—deyg o, yasavullar gedən səmti göstərdi, —elə-obaya haray salmağa macal qalmadı...

Buğac anası ilə qızları qəsrdə qoyub atlandı, qırx igidlə qaçaqların dalınca at başı saldı.

Qaçaqlar sabah ertə, hələ dan sökülməmiş qəsrdən çıxıb bütün günü çaparaq getmişdilər. Yorulan atları çölə buraxıb yenilərinə minmiş və axşama yaxın sərhəddə çatmışdılar. Bahar sularından aşıb-daşmış sərhədd çayı yolu kəsmişdi. Gecə ayazının düşməsini, suların bir az çəkilməsini gözləməli olmuşdular.

Onlar yerli-yataqlı, şax-budaqlı qocaman bir çinarın dibində doyunca eyib al şərabdan içmiş, yatıb xumarlanırdılar.

Qoca xan, yalnız bu sabah əli-qolu sarınıb, talanan xəzinəsilə birgə özü də ata yükləndikdə, əsl həqiqəti, başına gələn faciənin dəhşətini anlamışdı. Birinci mudhiş zərbə, oğlunun öz əlilə qətl edilməsi onu sarsıtmışsa, ikinçi zərbə, bugün anladığı mudhiş həqiqət, acı bir əlac kimi onu ayıltmış, huşunu başına gətirmişdi.

Xanı ağaca sarımışdılar. O arxasını, qocaman çinarın sağlam gövdəsinə dirəyib gözlərini məchul bir nöqtəyə zilləmiş, igid oğlunun nakam taleini, vəfalı arvadının qara bəxtini düşünürdü...

Birdən xana elə gəldi ki, qarşıdakı təpədə qaralan kollar, sıx ağaclıqlar arasından oğlu Buğac öz köhləni üstündə bir anda görünüb yox oldu.

Onu yenə də qaramı basırdı? Xan, qeyri-ixtiyarı bir hərəkətlə gözlərini ovuşdurmaq istəyəndə, möhkəm sarılmış keçi qılı sicim biləklərini zəncir kimi kəsdi. Xan gözlərini yumub hirsindən dodaqlarını gəmirdi. Başı köksünə əyildi.

Bir an sonra boquq at tappıltıları gşidgn kimi oldu başını qaldırdı. yox, yox, bu artıq qorxunc bir röya, qara bir xülya deyildi: oğlu Buğac, başında qırx igidi, əvvəlki vüqar və əzəmətilə at belində, düz ona doğru çapırdı.

Xan sevinc və dəhşət qarışıq qeyri-insani bir səslə hayqırdı:

— Buğa-a-ac!..

Xanın bu nərəsinə xumardan sərasimə ayılan qaçaqlar dəhşətdən yerlərində donub qaldılar. Buğac qırx igidilə onların başlarının üstünü alıb tərpənməyə

qoymamışdı.

Buğacla bərabər iki cəngavər cəld atdan sıçrayıb çinara doğru yüyürdülər, xanın əl-qolunu açdılar, ata ilə oğul bir-birinə sarmaşdı.

İki cəngavər ilan vurmuş kimi yerində qıvrılan yasavulbaşını sürüyüb haman sicimlə çinarın gövdəsinə sarıdılar.

Uzun və hərarətli qucaqlaşmadan sonra Buğac atasının əlindən tutub bir neçə addım kənara çəkildi və səf çəkib yarım dairə vurmuş igidlərinə əlilə bir işarə etdi.

Qırx ox birdən qıjıldayıb xaini çinarın kötüyünə mismarladı. İndi o, kötüyə yapışmış yekə, yöndəmsiz, iyrənc bir kirpi leşinə bənzəyirdi. Oxların arasından murdar qara qanı sızıb axırdı...

Buğac üzünü qalan xain qaçaqlara tutub dedi:

— Sizin günahınız ondan böyük, cəzanız ondan ağırdır! Sizə ölüm azdır. Siz miskin qullar, yurdsuz-yuvasız sərgərdanlar kimi yaşamalı, bizim səadətimizi, yurdumuzun-elimizin cah-cəlalını görüb gündə yüz dəfə ölməli-siniz!..

Buğac əlilə uzaqları, üzərinə qara bulutlar çökmüş yad torpaqlarını göstərib əlavə etdi:

— Gedin, bütün yadlara-yağılara, bütün cahana bildirin ki, bizim eldə can deyənə—can deyərlər, qan deyənə —qan!..



# 1. QARA QAYĞI

Səhər açılmışdısa da, hələ gündən bir əlamət yox idi. Qalın meşənin göylərə baş qaldırmış qocaman ağacları üzərini qara bulutlar qaplamışdı.

Payızın orta ayı idi. Günəşli günlərdə yerlərə səpilmiş yaşıl, qırmızı, sarı, çəhrayı və ağlagəlməz  əlvan boyalı yarpaqlarla rəngin ipək xalılarla döşənmiş kimi görünən meşə indi tutqun, bozumtul bir rəng almışdı.

Yuxarı baxdıqda, bir az seyrəlmiş alabəzək yarpaq şəbəkələri arasından zərif nəqşli göy mina kimi görünən səma, indi sanki ağır boz bir pərdə kimi çökmüş, hər tərəfi nə səhərin şəfəqli, nə də axşamın munis toranlığına bənzəməyən xoşa gəlməz bir qaranlıq bürümüşdü.

Səhəri həmişə şaqraq civilti və cəh-cəhləri ilə qarşılayan meşə nəğməkarları susmuş, yalnız oradan-buradan gecə quşlarının iniltiyə bənzər ulamaları eşidilirdi.

Meşədən həmişəki ürəkaçan ətirli rayihə əvəzinə rütubətli çürüntü qoxusu gəlirdi.

Qazan xan səyyar səfər çadırının içində, gərnəşib ayıldı. Başında, bədəninin bəndlərində bir ağırlıq və sızıltı duydu. Bu ağırlıq və sızıltı dünən çoxca içdiyi şərabın xumarı idimi, gecə gördüyü o pis yuxunun təsiri idimi, yoxsa bu bulanıq havanın, çürüntülü rütubətin nəticəsi idimi?

Xan çadıra göz gəzdirdi. Bir an yanından ayrılmayan dünya görmuş qoca məsləhətgüzarı yatağının başında durmuş, ona baxırdı.

Xan bir an gözlərini yumdu. Yuxuda gördüyü qorxunc məxluqlar yadına düşdü. Dəhşətlə gözlərini açıb məsləhətgüzardan imdad istəyirmiş kimi ona baxdı.

Qoca, xanın nəzərlərindən onun həyəcanını duydu. Bir addım irəli gəlib baş əydi:

— Sabahın xeyr olsun, xan!—dedi.

— Xeyrə qənşər gələsən, dədə!—deyə xan yarımağız cavab verib düşündüklərini söyləməkdən qorxan ürəyi dolu bir adam tövrilg könülsüz susdu və görməyən nəzərlərini məchul bir nöqtəyə zillədi.

Ən qanlı savaşlarda qorxu bilməyən, ən mudhiş həqiqətlərlə üz-üzə gəldikdə, gözünü belə qığımayan Qazan xan röyadan çox qorxardı. Əslini-nəslini bilmədiyi o qorxunc həyulalar, əcayib-qərayib məxluqlar onu dəhşətə gətirər, bu vahimələr bəzən günlərlə onu narahat edərdi.

Bir müddət sükutdan sonra xan kənardan, meşədən eşitdiyi gecə quşlarının nəhs ulamasından diksindi və yatağında dik oturub bu müdhiş sükutu pozmaq üçün nəhayət dilə gəldi.

— Dədə, çox yaman yuxu gördüm. Ürəyimə qara qayğı çökdü.

— Xeyr olsun, xan, tanrı xeyrə calasın... Sən söylə, mən yozum...—deyə qoca, xanın bu zəifliyini yaxşı bildiyindən, ona ürək vermək istədi.

— Yox, dədə, xeyr olacağa bənzəmir... Gördüm ki, qap-qaranlıq göylərdən qara qanadlı; qara caynaqlı əjdahalar başımın üzərində hərlənir, qızıl şahinimi qapıb aparırlar... Gördüm ki, qap-qaranlıq göylərdən qap-qara qarlar yağır, ağ ban gvlgrimi buruyur, qara quduz qurd^ lar gvimi dglir, qara qarqı saçım uzanıb kezlgrimi er- tur... Bilgyimdzn on barmaqımı qara qanlar içindg kerdum, dgdg...

Xan bunları seylgrkgn, vaĞkmgli uzundg bgrglmiş kezlgri İgdgqgdgn çıxmış, dgĞşgtdgn dili-dodaqı gsir- di. Qoça onu sakit gtmgk uçun öxunu belg yozdu:

— Qara bulut dediyin, sənin dövlətindir, qar dediyin, ləşgərindir, saç qayğıdır, qan qaradır, qalanını mən yoza bilmərəm, tanrı özü yozsun, xeyrə calasın...

Xan bu sözlərdən umduğu təsəllini ala bilmədi, qalxıb tələsik geyindi, çadırdan çıxdı.

Çadırın ağzında mürküləyən keşikçilər içəridən hənirti eşidib çoxdan ayılmış, mizraqlarına dayanıb durmuşdular. Xana hörmətlə təzim etdilər. Xan ətrafa nəzər saldı. O biri çadırlardakı bəylər, qonaqlar, şikarçı və nökərlər çoxdan hazır durub xanı gözləyirdilər.

Xan bulanıq havanı görüb könlü bir az da bulandı. Hava ov yavası deyildi...

Başındakı ağırlıq, bədənindəki sızıltı, xüsusən, gördüyü pis yuxunun hələ də davam edən kəsaləti olmasaydı, o, başındakı xumarı şərabla dağıdacaq, ovlağa çıxacaq, dünənki kimi, heç kimin məsləhətini dinləmədən, hamını ova sürüyəcəkdi...

Xan kefsiz bir halda çadırına qayıtdı. Ürəyini qara qayğular aldı. Xanın fikrincə bugünün falı dünəndən pis açılmışdı: dünən Qazan xanın qəsrində qonaqlıq idi. Doyunca yeyib içdikdən sonra tünd şərabdan başı qızışan Qazan xan yerindən qalxmış, qonaqlarına belə təklif etmişdi:

— Hey bəylər, ağalar, yatmaqdan yanımız ağrıdı, durmaqdan belimiz qurudu... Qalxın ova kedək, ceyrandan, cüyürdən vurub gətirək, həm əl-qolumuz, həm ürəyimiz açılsın!..

Şərabdan beyinləri dumanlanmış bgylərdən bir çoxu haman saat ayağa qalxmış, bəziləri könülsüz olsa da, qalxmalı olmuşdular; çünki Qazan xanın belə hallarda dediyindən dönmədiyini hamı yaxşı bilirdi. Lakin ağlı-fikri yerində olan qoca məsləhətgüzar, xanı bu fikrindən daşındırmağa çalışıb demişdi:

— Xan bilirsən ki, acgöz canavar sürüləri bir an gözlərini sənin yurdundan, yuvandan çəkmirlər. Sərhəddi başsız qoyub hara gedirsən?

Gözü qızanda hər şeyi unudan xan qocanın sözlərinə istehza edib demişdi:

— Hə, dədə, qocalığı boynuna al... eləsə, dur hazırlaş, sən də gedək... Aslan

yatağına canavar girməz...

İndi, xan gördüyü qorxunc röyadan sonra bu hərəkətinə özü də peşman olmuşdu.

## 2. BASQIN

Qoca məsləhətgüzar haqlı idi.

Qazan xanın yurdu Dərbənd ağzında, sərhədd boyunda idi. Azğın, coşqun sərhəd çayının o tayında yaşayan köçəri tayfalar fürsət tapdıqca, bu bərəkətli, varlı yurda basqın edər, kəndləri, obaları çalıb-çapar, dağlara çəkilərdilər.

Xanlar xanı Bayındır xan buna görə öz qoçaq cəngavər bəylər bəyisi Qazan xanı buraya təyin etmişdi. Son illərdə bir neçə basqında burunları yaxşıca ovulmuş qıpçaqlar çoxdan bəri buralara üz çevirmirdilər. Qazan xan da buna arxayın olub igidliyin birinci şərti olan ehtiyatı yaddan çıxarmışdı.

Ac qurd kimi pusquda duran hiləgər düşmən, casusları vasitəsilə xanın və bəylərin uzaq səfərə getdiklərindən xəbər tutub hərəkətə keçmişdi.

Ayaz payız gecəsinin sonu, xan qəsrində hamı şirin yuxuda idi. Dənizdən əsən rütubətli soyuq külək iliklərə işləyirdi. Qəsrin keşikçiləri başlıqlarını möhkəmcə sarıyıb yapıncılara bürünmüş, orada-burada mürgüləyirdilər.

Bu zaman sərhədd çayının qalın kolluqlar, sıldırım qayalıqlar arasında, əldən-ayaqdan uzaq, güman gəlməz keçidlərində kiçik atlı dəstələri toplaşıb iki-bir, üç-

bir ehtiyatla çaydan keçir və fınxırmamaq üçün atlarının burunlarını möhkəmcə sıxaraq, səssizcə, əvvəlcədən təyin edilmiş bir səmtə gedirdilər.

Dörd tərəfi qocaman ağaclar, qalın tikanlı kollarla bürünmüş bir talada bir an üçün parlayıb sönən şimşəyin göyümtül işığında dairə vurmuş böyük bir atlı dəstəsi göründü. Dairənin ortasında iri gövdəli, keçi saqqallı bir atlı ətrafına yığılmış dəstə başçılarına boğazdan gələn boğuq xırıltılı bir səslə nə isə anladırdı...

Bir də şimşək çaxanda, atlılar nəhəng, əfsanəvi bir ilan kimi dağ meşə cığırı ilə qıvrıla-qıvrıla haraya isə çapır, talada bu ilanın quyruğu kimi son atlılar sürünüb meşədə yox olurdular.

Çapqınçıların bütün üstünlüyü bundan ibarət idi ki, onlar gözlənilməz bir qasırğa kimi bir anda qopub qarşılarına çıxan hər şeyi çapıb talayır və yox olurdular.

Bu alaqaranlıq, çiskinli-küləkli payız gecəsi Qazan xanın qəsri üzərində də belə bir qasırğa qopdu. Çaparaq qəsrə soxulan çapqınçılar rast gəldikləri yuxulu keşikçiləri boğazladılar və qəsri çapıb-talamağa başladılar.

Qəsrin kiçik həyətində durmuş iri gövdəli, keçi saqqallı, batıq xırda gözlu

düşmən başçısı qəsrdən daşınıb gətirilən cavahirat və qızıl-gümüşə, ipək xalça və tirmə şallara əsla etina etməyib boğuq, xırıltılı səsilə nə isə çığırır, əlini-qolunu oynadaraq, əlaltılarını ora-bura göndərirdi. Gətirilən şeyləri alıb tələsik atların heybələrinə dolduran dəstə başçıları bundan istifadə edərək, ovuc-ovuc cəvahiratı yaxalarının arasına, ciblərinə doldururdular.

Düşmən başçısını maraqlandıran şey yalnız talan deyildi. O, Qazan xandan hayıf almaq, onun ciyərini dağlamaq istəyirdi. Üç il əvvəl belə bir basqın zamanı Qazan xan onun iki oğlunu tutub Bayındır xana göndərmişdi. Bayındır xan onları girov saxlamış, qıpçaqların əlini-qolunu bağlamışdı. İndi bu da Qazan xanın oğlunu, arvadını ələ keçirmək, onun sinəsinə dağ çəkmək istəyirdi. Bəlkə, beləliklə, oğlanlarını xandan geri ala biləydi. Xanın oğlunu və arvadını heç kimsə nişan verməmdiyinidən, düşmən başçısı qəsrdəki bütün arvad-uşağı həyətə yığdırdı, onları da talan edilmiş şeylərlə bərabər atlara, dəvələrə yükləyib apardılar.

# 3. QARACA ÇOBAN

Köpəklər hürüşəndə, Qaraca çoban qazma qara damda dik atılıb ayıldı. Bir əlinə iri çomağını, bir əlinə də ucu xələfi nöyütə batırılmış məşəli alıb küncdə yanan qara çıraqdan alışdırdı, qardaşlarını səsləyib ayıltdı, bayıra cumdu. Onlar da çomaq və məşəllərini qapıb onun ardınca çıxdılar.

Qaraca çoban ağıla qurd daraşdığını zənn edib köpəkləri səsləyə-səsləyə o tərəfə yüyürərkən, sabahın ala toranlığında məşəlin işığında irilib-kiçilən, nağıllardakı divlər-ifritələr kimi at ayaqlı, bədəni, başı tüklü əcayib bir məxluqun nərildəyə-nərildəyə üstünə gəldiyini gördü. Çoban bunun nə olduğunu düşünməyə fürsət tapmamış, at onun üstünü aldı, çoban ani bir hərəkətlə məşəli atın başına çaldı. Hürkmüş at dik atıldı və üstündəki süvari yerə sərildi. Çoban ona qalxmağa fürsət verməyib çomağı başına çırpdı və özü bağır yaran bir səslə qıy vurub irəli şığıdı. İki qardaşı da gəlib ona qoşuldular.

Atlılar hər tərəfdən bunların üzərinə ox yağdırır və çapa-çapa gələrək, qılınc və mızraqla vurmaq istəyirdilər. Ancaq atlar məşəllərdən hürküşüb qaçır, çoban və qardaşları uzun çomaqlarilə atlıları vurub yıxırdılar.

Qaraca çoban baxıb gördü ki, atlılar çoxdur. Üç qardaş bunların öhdəsindən gələ bilməyəcək. yüyürüb yaxındakı ot tayasına yetişdi, məşəllə tayanı bir neçə yerdən odladı ki, elə-obaya xəbər olsun. İki qardaşı və qonşu ağıllardakı çobanlar da bunu görüb bir necə tayanı odladılar.

Düşmənin bir dəstəsi həm qəsrə hücum edən dəstənin hərəkətini pərdələmək, qəsrlə kəndlərin arasını kəsmək, həm də Qazan xanın qoyun sürülərini sürüb aparmaq üçün onun ahıllarına soxulmuşdular. Onlar güman edirdilər ki, qarşılarına heç

bir kimsh çıxmayacaq və ya işdir, bir neçə sarsaq çoban tərslik etmiş olsa, haman saat onları qırıb, minlərlə qoyunu asanlıqla sürüb aparacaqlar...

Ancaq Qaraca çobanın surətli müqaviməti, iki qardaşı ilə birgə hələ ilk həmlədə beş-on atlını vurub yıxmaları basqınçıların qəzəbini artırdı. Yaralı yırtıcılar kimi nərildiyə-nərildiyə, bir dəstə atlı birdən çobanların üstünə şığıdı. Alışan tayaların işığında hürküşüb bir-birinə qarışmış qoyun sürüləri mələşir, atlar sürülərin içinə soxulub qoyunları ayaqlaya-ayaqlaya irəliləyirdilər.

Qaraca çoban əlindəki məşəli və çomağı bir-bir yaxınlaşan atlılara sarı tolazlayıb bir neçəsini atdan yıxdı. Ağılın dövrəsindəki çəpərin payalarından bir yekəsini çəkib çıxardı və iki əli ilə bir uccundan yapışıb başının üstündə hərləyə-hərləyə, atlılara doğru irəlilədi. Ucu irəlidə ikisi arxada—beş atlı onun üstünə çapmaqda idi. Çoban var gücü ilə payanı hərləyib elə çırpdı ki, irəlidə olan atlılar üçü də çuval kimi yumalandı. Arxadakı iki atlı bunu görüb geri dönmək istədilər. Surətlə gələn atların başını çəkdilər; bir-birinə soxulmuş qoyunlar atların ayaqlarına dolaşır, onların hərəkətinə mane olurdu. Buna görə də çobana arxa çevirən atlılar qaçmağa fürsət tapmadılar. Çobanın endirdiyi paya onların ikisini də birdən yerə sərdi.

Bu anda Qaraca çoban arxadan bir ufultu eşidib döndü və altı-yeddi atlının iki qardaşını araya aldıqlarını görüb o tərəfə cumdu.

Arxaları Qaraca çobana olan basqınçıların, başları leş didməyə qızışmış acgöz canavarlar kimi, təhlükədən xəbərləri yox idi. Onlar iyrənc səslərlə hayqıra-hayqıra, tez-tez əyri qılınclarını qaldırıb endirirdilər.

Qaraca çoban payanı bir endirəndə, üçünü, bir endirəndə, ikisini atdan uçurdu. Qalan iki-üç atlı isə, aslan görmüş çaqqallar kimi quyruqlarını qısaraq qaçdılar.

Qaraca çoban özünü qardaşlarına yetirəndə, biri vurulub yıxılmış, biri də başından ağır yaralanmışdı. Onu qan aparırdı. Qaraca çoban yaralı qardaşını qucağına alıb artıq sönmək üzrə olan tayaya tərəf apardı.

Bu zaman arxadan bir ox qıjıltı ilə çobanın sol çiyninə sancıldı. Çoban ona əhəmiyyət verməyib tayaya çatdı,. qardaşını uzatdı, ılıq küldən bir ovuc götürüb əraya, basdı və möhkəm sarıdı.

Bu anda çoban qayalara çarpan nəhəng dalğaların uğultusuna bənzər səslər eşitdi, diqqət yetirdi. Getdikcə yaxınlaşan, yaxınlaşdıqca artan bu səslər cəngavər xalqın zəmətli döyüş nərəsi idi:

— Vurhay, Vurha!..

Çobanın arzusu yerinə yetmişdi. Sərhədd boyunda yaşayıb belə gözlənilməz basqınlara alışmış olan xalq, Hər an döyüşə hazır idi. Çobanın alışdırdığı tayaların alovu, həyəcanlı bir çağırış kimi, hamını ayağa qaldırmış, igidlər silahlanıb atlanmış və təhlükə yerinə çatmışdılar.

— Vurhay, Vurha!..

Çobanın nigaran gözləri qürurla parladı. Bu parıltı artıq sönməkdə olan tayaların alovunu əks etdirən əvvəlki həyəcanlı parıltı deyil, üfüqdə doğan, qara bulutları qovan, qaranlıqları boğan günəşin əzəmətli parıltısı idi.

Qazan xan, başındakı bəylər və sair atlılar, səhərdən) bəri davam edən sıxıntılı, üzücü səfərdən yorulmuşdular. İkindi çağı idi; hamının ürəyindən keçirdi ki, əylənib azacıq dincəlsinlər. Ancaq başı aşağı, dinməz- söyləməz, qara xülyalara dalmış xana kimsə cürət edib bir söz deyə bilmirdi. Bəzən, xüsusən sərxoş olanda, çox sadə və mehriban görünən xudpəsənd xan belə dəqiqələrində qəzəbli və qorxulu idi.

Xan və atlılar bir dərəni enərkən, qarşıdakı yoxuşun başında bir nöqtə göründü. O, eniş aşağı yuvarlanan iri bir daş kimi toz qopara-qopara, surətlə enirdi.

Hamının gözü qeyri-ixtiyari olaraq, bu əcayib şeyə tikilmiş, atlar durmuş, hamı donub yerində qalmışdı.

Yalnız enişi yarıdan ötdükdən sonra bunun bir atlı olduğunu seçə bildilər. Xanın onsuz da vahiməli urəyi həyəcanla döyündü. Görəsən bu çapar nə xəbər gətirəcək?!

Xan bu dəhşətli həyəcan içində çırpına-çırpına gözlərini çapardan ayırmırdı. Birdən onun sinəsindən yanıqlı bir fəryad qopdu... Enişin ətəyinə çatarkən, birdən at oxla vurulmuş kimi yıxıldı. Bir neçə dəfə yumalanıb hərəkətsiz qaldı.

Hamı həyəcanla hayqırdı və atlar yerlərindən qopdular. Xan hamıdan əvvəl atdan sıçrayıb çapara doğru yüyürdü. Köpüklənmiş dərisi buğlanan atın bağrı çatlamış, çapar isə, yıxılıb atın altında qalmışdı. Onu zorla çəkib çıxardılar. Ancaq huşu özündə deyildi. Sinəsini, qollarını, gicgahlarını ovuşdururdular. Xan özü bir əlini onun sinəsinə qoyub, bir əli ilə başını arxadan tutmuşdu. Çaparın yarı qapalı gözləri süzüldü. Bir əlini qaldırıb gəldiyi səmti göstərərək, nə isə demək istədi, ancaq ağzından söz deyil, köpüklü qan gəldi.

Xanın əli qəliz qara qana bulandı. Bunu görən xan bir an içində o qorxunc röyanı bir həqiqət bilib elə dəhşətlə bağırdı ki, hamının tükü biz-biz oldu. O, dəli kimi yerindən qopub atına sıçradı və ildırım sürətilə çapdı.

## 4. ANA—OĞUL

Əsirləri iri bir qazma dama doldurmuşdular. Düşmən başçısının yekə keçə alaçığı da bu dama o qədər yaxın qurulmuşdu ki, oradan dəstə başçılarının sərxoş nərələri aydın eşidilirdi.

Peşələri quldurluq və soyğunçuluq olan kiçik dəstə başçıları əldə etdikləri bol qənimətlərin və içdikləri tünd şərabın nəşəsi ilə sərməst ikən, əsl quldurbaşı içdikcə daha artıq kədərlənirdi. O, basqından umduğu əsl məqsədinə çata bilməmiş, Qazan xanın hərəmi Burla-xatunu ələ keçirə bilməmişdi. O yaxşı bilirdi

ki, Burla- xatun əsir edib gətirdiyi bu otuz-qırx arvaddan biridir. Ancaq hansıdır?

Hər cür hədə və hilə ilə qadınlardan onu öyrənə bilməmişdi. Hamı özünü Burlaxatun adlandırır, ona ediləcək hər bir işgəncəni çəkməyə hazır idi.

Onun əlində ən təsirli yeganə vasitə xanın yeniyetmə oğlu Uruz idi. Ancaq nə qədər çalışmışsa, ondan da bu sirri öyrənə bilməmişdi. Oğlan nə yalan vədlərə, nə də vəhşi təhdidlərə uymayıb inadla susur, heç bir cavab vermirdi.

Burlaxatunun ürəyindən tara qanlar gedirdi. O, xan arvadı olsa da, qızlığında, gəncliyində çox zəhmət və məşəqqətlər çəkmiş, yeri gələndə, əldə silah, özünün və elin namus və ismətini qorumuşdu. Cavanlıqda bir savaşda Qazan bəyi ölümdən qurtarmış və Qazan onun gözəlliyi ilə bərabər mərdlik və cəsarətinə aşiq olmuş, evlənmişdi.

Burlaxatun hər məşəqqətə dözər, Qazan xanın, özünün, bütün əlin namus və qeyrətini qoruyardı. O, rəfiqələrindən, bu vəfalı, ismətli el qızlarından da arxayın idi. Ancaq oğlu! Axı o hələ uşaq idi. O ara bir at minib ox süzdürsə də, qılınc-qalxan oynatsa da, ananın nəzərində hələ körpə bir quzu idi. Onun hələ kəmikləri bərkiməmiş, bərkdən-boşdan çıxmamışdı... Bəlkə onun körpə bədəni bu vəhşilərin işgəncələrinə dözmədi, bəlkə onun körpə xəyalı bu tülkülərin hiylələrinə aldandı. Bəlkə o, anasını ələ verdi!..

Yox, yox... İraq olsun, iraq...

Quldurbaşı ziyafətin ən qızğın bir çağında içmək üçün qaldırdığı iri qədəhi var gücü ilə yerə çırpdı. hamı olduğu vəziyyətdə donub qaldı. Xan vəhşi bir nərə ilə bağırdı.

— O, qurd küçüyünü bura gətirin!

Bir anda iki silahlı quldur Uruzu gətirdilər. Bu on iki yaşlarında zərif bir oğlan idi. Azad bir quş kimi böyüyüb bu yaşa çatmış Uruzu yuxusuzluqdan, aclıq və yorğunluqdan çox, çəkdiyi mənəvi iztirablar sıxmışdı...

Onun əl-qolunu möhkəm sarımışdılar. Solğun zərif üzündə çatma qaşları düyünlənmiş, vüqarlı gözlərində qorxu və həyəcandan artıq məğrur bir istehza parlayır, rəngi qaçmış incə dodaqlarının ucları əsəbi bir halda xəfifcə qıvrılırdı.

O, quldurbaşını görməyirmiş kimi, ona yox, harasa, məchul bir nöqtəyə baxırdı. Quldurbaşı aciz bir qəzəblə ona baxıb acıqlı-acıqlı soruşdu:

— Hə, oğlan, əqlin başına gəldimi?!

Uruz bu sözləri əsla eşitmirmiş kimi, üzündə bircə əzələ də qımıldanmadı. Xan hirsindən dilini-dodağını gəmirə-gəmirə, Uruzu gətirən quldurlara bağırdı:

— Aparın bu canavar balasını cəngələ asın. Ətini qiymə doğrayın. Qara qovurma bişirin. Əsir arvadlara verin. Hər kim yeməsə, Qazan xanın arvadı odur. Gətirin gəlin, bizə şərab paylasın, keyf versin!..

Uruzun başı hərləndi, gözləri qaraldı, yerində sarsılıb azacıq yırğalandı, canına qorxu düşdü. Özünü ələ alıb zorla eşidilən bir səslə dedi:

— Yaxşı, gedək!..

Bu ani müvəffəqiyyətdən fərəhlənən quldurbaşı yekə vücuduna yaraşmayan yöndəmsiz bir çevikliklə ayağa qalxdı və özü irəli düşüb arxasınca Uruz və əli məşəlli iki keşikçi ilə qazmaya yönəldi.

Qaranlıq qazmada birdən-birə parlayan məşəllərin işığında gözləri qamaşan qadınlar heç bir şey seçə bilmədilər. Bir az sonra gözləri işığa alışıb, sərxoş quldurbaşını və əli-qolu bağlı, bənizi uçuq Uruzu görüncə, hamının qəlbini dəhşət aldı.

Burlaxatun son qəti dəqiqələrin gəldiyini hiss edib bir-birinə zidd duyğular içində vəsfə gəlməz iztirablar çəkirdi. Bir tərəfdən bircə balasına olan şəfqət və mərhəmətli bir ana məhəbbəti, bir tərəfdən də onu bu canavarların pəncəsinə verəcək ciyərparəsinə qarşı coşqun bir nifrət bu dözümlü ana qəlbini ikiyə parçalayırdı.

Uruz bunu duyurmuş kimi, uzun müddət susmadan və heç bir kimsəyə müraciət etmədən, gözünü qadınların başı üzərində uca bir nöqtəyə zilləyərək, zərif, məlahətli, lakin eyni zamanda məğrur və inamlı bir səslə dedi: Anacan, bu qaranlıq gecələr qəhrəmanı səxavətə gəlmiş, sizə bir qonaqlıq hazırlayır. Məni cəngələ asacaqlar, ətimi qiymə çəkəcəklər, qara qavurma bişirib sizə yedirəcəklər. Başqaları bir tikə yesə, anacan, sən ikisini ye! Qoy səni bu azğınlar yaxşı tanısınlar! Atamın, yurdumun, elimin namusunu ləkələmə! Sənin kimi analar sağ olsun, ana, mənim kimi oğullar çox olar!

— Can oğul!..

Bu sözləri bir ağızdan söyləyən otuz-qırx qadının içində Burlaxatunun səsi hamıdan coşqun və həyəcanlı idi. Bunu duyan Uruzun gözləri güldü, başına zərbə vurulmuş kimi, yerində yırğalanan xan isə, sərsəm-sərsəm baxırdı. O, bu əsir qadınların və bu on iki yaşlı uşağın önündə məğlub olmuşdu...

## 5. XAN VƏ ÇOBAN

Saçı saqqalı bir-birinə qarışmış, rəngi qaçmış Qazan xan, ardınca, əlli-altmış atlı, qəsrə çatanda, artıq qaş qaralırdı.

Dan ağarandan qaş qaralana qədər çaparaq yol gələn atların da, atlıların da çoxu yorulub yollarda qalmışdı.

Xan atdan sıçradı. Gözləri bərəlmiş, burun pərəkləri geniş açılmış, köpüklü sağrısı buğlanan ceyran kimi zərif Qarabağ atı, özünü saxlaya bilməyib on-on beş addım da yügürdü və birdən qılçaları biçilmiş kimi yerə sərildi.

Xan bir an mıxlanmış kimi yerində donub qaldı. Qəsri əli silahlı kənd igidləri, çobanlar çevrəyə almışdılar. Hamıdan irəlidə durmuş Qaraca çoban xana təzim

etdi. Xan heç bir şey görmürmüş kimi, əsla qımıldanmadan və gözlərini qırpmadan, mat-mat baxırdı. Birdən o yuxudan ayılan kimi oldu. Sürətli addımlarla qəsrə doğru irəlilədi. Qəsrin qalın taxta qapısı rəzəsindən qopub ayaq altına düşmüşdü. Darvazanın iki tərəfində yuxlamış kimi büzüşüb yumurlanmış iki keşikçinin meyiti düşmüşdü. Xan bunlara əsla baxmadan, həyətə keçdi. Qəsrin həyətində orada-burada bir neçə keşikçi meyiti ilə yanaşı heyvan leşinə bənzər bir cəsəddə yerə sərilmişdi. Bu bir düşmən meyiti idi. Xan bunun yanından keçərkən, bir an durdu. Ayağı ilə cəsədin çiyinindən qaldırdı. Meyitin can çəkişmə əzabı içində uzun sarımtıl dişləri bir-birinə kilidlənmiş, iri qalın dodaqları gərilmiş, qıyıq, ətli gözləri yarı açıq qalmışdı. Sanki meyit iyrənc bir surətdə istehza ilə gülürdü.

Xan nifrətlə üzünü çevirib ayağını çəkdi və sürətli addımlarla qəsrə çıxan pillələrə sarı getdi. Pillə başında xanın və ailəsinin iqamətgahına açılan dar və Möhkəm qapı taybatay açılmış, astanada isə, bir meyit yolu kəsmişdi. Xan bunu tanımaq üçün bir az əyildi və sinəsindən qeyri-ixtiyari bir hayqırtı qopdu. Bu xanın eşik ağası, əlin qoca oğlu Sarı Qomraşın cəsədi idi. Onun pambıq kimi ağ saç-saqqalında qara qan laxtalanmış, əynindəki ağ ipək gecə xələti üzərində qanlı ayaq izləri qalmışdı. Basqınçılar onun cəsədini ayaqlayaraq, içəri girib çıxmışdılar. Xan öz doğma atası kimi sevib hörmət etdiyi bu mehriban qocanın cəsədindən ayrılıb tələsik öz yataq otağına sarı getdi.

Qəsrin bütün otaqları alt-üst edilmişdi. Ayaqları altında farfur, büllur qabların qırıntıları qıcırdaya-qıcırdaya xan, arvadının və oğlunun yataq otaqlarına yaxınlaşdıqca, dizləri kəsilir, dili-dodağı əsirdi.

O, yaxşı bilirdi ki, oğlu Uruz hələ çox kiçik olsa da, özü kimi məğrur və inadlı olduğundan, basqınçılara diri başlı təslim olmayacaq. Arvadı Burlaxatun, neçə-neçə qanlı savaşlarda ona silahdaş olmuş bu dişi qaplan son nəfəsinə qədər vuruşmuş olacaqdır... İndi yəqin ki, onların hər ikisini otaqlarında al qan içində görəcəkdir.

Yataq otağının qapısı ağzında bir an duruxdu, birdən mudhiş bir uçuruma atılan bir adam kimi, içəri girib yerində donub qaldı. Otaq bom-boş, yataqlar və müxəlləfat alt-üst idisə də, lakin heç bir yerdə vuruşma əlaməti yox idi. O əyilib yataqları yaxından gözdən keçirdi. Əllərini yorğan-döşəyə, balışlara sürtüb yoxladı. Diz çöküb döşəməyə baxdı. Heç bir yerdə bircə damla da qan izi görmədi. Oğlunun sarı məsti, xurmayı papağı taxtın altında idi.

Xan indi anladı ki, basqın zəlzələ kimi ani olmuş və çox ehtimal ki, qəsrdəkiləri yuxudan ayılmadan, yataqlarında yaxalayıb əl-qollarını bağlamış, başaçıq, ayaq- yalın aparmışlar...

Xan dünən gecə meşədəki çadırında gördüyü o məşum yuxudan ayıldığı zaman olduğu kimi sevincə bənzər bir şey duydu:

«Deməli ki, onlar ölməmişlər, onları qurtarmaq bəlkə də mümkündür...» Lakin bu ümid qığılcımı bir an parlayıb yenə də söndü. «Kim bilir, bəlkə...»

Xanın azacıq aydınlaşmış olan şüur və düşüncəsi yenə talan edilmiş qəsri kimi alt-üst oldu. O nə edəcəyini hələ yaxşı bilmədən, qəfəsdən qaçan azğın bir aslan kimi, qəsrdən çıxdı.

Artıq qaranlıq çökmüş, adamlar kölgə kimi görünürdülər. Qəsrin qapısı ağzında Qaraca çoban qoca məsləhətgüzara və başına toplaşmış yorğun-arğın bəylərə ucadan və həyəcanla nə isə danışırdı. Xan onun sözlərinin axırını eşitdi:

«...Hamısını quduz canavarları qıran kimi qırdıq, beş-on nəfər zorla qaçıb qorxaq dovşan kimi çaya atıldı. Onları da azğın dalğalar uddu. Qəsrdən xəbərimiz yox idi. Bunlar ayrı yol ilə getmişdilər... Burlaxatunu, Uruz bəyi başaçıq, ayaqyalın dustaq aparmışlar...»

Bu sözləri eşidəndə, qan xanın beyninə vurdu. Gözləri şimşək çaxdı. Özü də səbəbini bilmədən, acıqla çobana bağırdı:

— Ağzın qurusun, çoban, dilin çurusun, çoban! Nə öyünürsən, nə söylənirsən!..

Qaraca çobanın mərdlik və tədbirlərinə heyran olmuş. Məsləhətgüzar və bəylər xanın ona qarşı bu haqsız qəzəbinə təəccüblə, hamı dönüb ona baxdı. Çoban soyuqqanlılıqla xana çavab verdi:

— Nə qarğarsan, nə qaxarsan, ağam Qazan! Suçum nədir? Handa itib-batmışdın? Bari gedərkən bizə deyəydin! Üstümüzə basqın oldu. Eli-obanı qaldırdım, yağılarla savaşdıq. İki qardaşım yolunda qurban oldu.Üç yerdən yaralandım... Suçum bumudur?

Çobanın bu sadə, amma güclü məntiqi, qabaca, amma doğru ithamı xanın gərgin əsəblərinə, yaralı izzəti-nəfsinə toxundu. Dalaşmağa bəhanə axtaran və ağlından çox gücünə güvənən tərs bir uşaq kimi xan deyindi:

— Çoban-çoluq savaşı belə olur. Qoyun-quzunu qorudun, xatınım, oğlum dustaq getdi. Qəsrim talandı...

Qaraca çoban bu haqsız və acı ithama acı cavab vermək istədi. Ancaq xanın bu vəziyyətdə mühakiməsini itirməsini təbii bilib özünü saxladı və bir az yumşaq cavab verdi:

— Ağam Qazan! Çoban-çoluq dediyin sənin elin, arxandır. Mən çobanam, qoyun-quzunu mənə tapşırmışdın, qorudum... Qəsrini də bəylərindən, yasavullarından sor!..

Çobanın sözləri acı da olsa, doğru idi. Bəyləri başına toplayıb ova aparan, qoca məsləhətgüzarın sözlərini saymayıb ehtiyatı unudan xan özü deyildimi?!

Ancaq bununla bərabər, xan bu həqiqəti dərk edə bilmirdi. Bir tərəfdən hamıda və hamıdan çox mənsəb sahiblərində olan xudpəsəndlik, bir tərəfdən onun gözlərini pərdələyən şəxsi qürur, bir tərəfdən də bəylərin önündə bir çobana baş

əyməyin çətinliyi xana mane olurdu. Buna görə də xan çobanın haqlı olduğunu dərk və qəbul etmir, hətta onun bu cürətkarlığına qızırdı da. Xanın bütün vücudu əsdi, dişləri qıcırdadı, gözləri dumanlandı; o qeyri-ixtiyari olaraq, titrək əlini qılıncın qəbzəsinə apardı. Lakin araya qaranlıq çökdüyündən, xanın bu azğın qəzəbini ona ən yaxın duran qoca məsləhətgüzardan başqa kimsə duymadı.

Ağıllı qoca araya çökən bircə anlıq sükutdan istifadə edərək, sözə qarışdı, xanın ürəyindgəki qəzəb atəşinə su səpməyə çalışdı:

— Xan Qazan,—dedi,—indi söz-söhbət yeri deyil, onları düşünmək gərək!

Xanın üstünə sanki, buzlu su töküldü. «Onlar» sözü xanı özünə gətirdi. Oğlu, arvadı yadına düşdü. Qəbzəyə uzatdığı əli qırılmış kimi, yanına düşdu. Qoca sözlərinə davam etdi:

— Qaraca çoban sağ olsun, əlindən gələni etmiş, eli-obanı qaldırmış, yüzlərlə atlı-yaraqlı əl iyidləri döyüşə hazır, buyuruq gözləyir. Buyur, yağı üzərinə axın olsun!

Hamı xanın buyuruğunu gözləyirdi. Ancaq o susmuş, nə isə düşünür, qərar verə bilmirdi.

İndi Qazan xanı düşündürən başqa şeydi: Xanlar xanı Bayındır xana xəbər çatacaqdır: «Qazan bəyləri yığmış, ova getmiş; yağılar basqın etmiş; eli-obanı talamış, Qazanın oğlunu, xatınını, xəzinəsini aparmışlar. Qaraca çoban eli qaldırmış, yağını basıb qovmuş, Qazanın xatınını, oğlunu, xəzinəsini qurtarış...»

Qazan xan Bayındır xanın ulu divanını gözü önünə gətirdi. Onun qəzəb və istehza ilə dolu gözləri Qazanın qəlbinə işləyir; sair xanlar, bəylər pıçıldaşıb istehzalı nəzərlərlə ona baxırlar, sanki bu nəzərlər: «Xatınını, oğlunu çoban qurtarmış!»—deyə gülüşürlər.

Qazan xan öz-özünə: «yox, yox, bu mənidə başıma qaxınc olar, bundansa ölüm eyidir!» deyə düşündü və başını qaldırıb ucadan dedi:

— Çoban-çoluq yardımı mənə gərəkməz! Yağılara özüm vararam, ya ölərəm, ya namusumu qurtararam... Haydı bəylər, atlanın!..

Bu sözləri eşidəndə, Qaraca çoban hirsindən əlindəki qamçını elə sıxdı ki, qamçı şaqqıltı ilə iki parça olub yerə düşdü. O da əsəbi addımlarla öz atlılarına sarı gedib atına sıçradı və guruldayan bir səslə bağırdı:

— Haydı, iyidlər, atlanın!..

## 6. EL GÜCÜ

Qazan xan, başında Əli məşəlli bir dəstə bəylə ən yaxın yoldan sərhəddə doğru çaparkən, Qaraca çoban da öz atlıları ilə kəndə, obalarına doğru yol aldı. Onun qulaqlarında xanın təkəbbür və həqarətlə söylədiyi «çoban-çoluq» sözləri

hələ də səslənməkdə idi. Bu sözlər onun qüruruna toxunmuş, qəlbini qırmışdı.

İnsan nə qədər nankor olurmuş! Xanın özünü, bütün xanları, bəyləri, onların cah-cəlalını haman bu çoban-çoluq yaşatmırdımı? Yurdun-elin azadlığa yolunda aparılan böyük qanlı savaşlarda xan özü haman bu çoban-çoluğun igidliyi sayəsində ad qazanıb bu rütbəyə çatmamışdımı?

Hər cür şöhrət və təkəbbür duyğularından uzaq olan çoban, xanın bu inadının səbəbini başa düşmürdüsə də, ancaq o yaxşı bilirdi ki, xan bir ovuc bəylə heç bir şey edə bilməyəcək, yenə bu çoban-çoluğun yardımına sığınacaqdır. Onun qəlbində xandan inciklik hələ təzə olduğundan, xanın, bəylərin yağılar əlində tələf və ya əsir olmalarının nə kimi nəticələr verə biləcəyini yaxşı dərk etmirdi. O, kimsə ilə dinib-danışmır, bu gün dan ağarandan qaş qaralana kimi başından gəlib keçən macəraları düşünürdü. Qardaşlarının ölümünü xatırlayanda, hər şey yadından çıxdı. Sinəsindən qeyri-ixtiyari, yanıqlı bir ah qopdu. Onlarla keçirdiyi günlər, dadlı uşaqlıq xatirələri, sonra şirin gələcək arzuları, oba qızları içindən nişanlı seçmələri, toy-bayram söhbətləri bir-bir xatirindən gəlib keçdikcə, gah yuxu görən məsum bir körpə kimi gülümsəyir, gah qaşlarını çatıb dişlərini bir-birinə sıxaraq qıcırdadırdı.

Qaraca çoban dəstəsilə gəlib güzdəyə çatanda, ona söylədilər ki, anası, bacıları gəlib qardaşlarının meyitlərini obaya aparmışlar. Bir tərəfdən ana-bacılarının acı fəryadlarını, göz yaşlarını eşidib görməmək, bir tərəfdən də qəlbində nə isə tutqun bir nigaranlıq hiss etdiyi üçün, obaya getməyib güzdəkdə, ağılların yanında qaldı. Atlıları evə buraxmadan əvvəldəstəbaşılar təyin etdi. Hər çağrımda növbətçi qoymalarını, hər ehtimala qarşı hazır və sayıq olmalarını, işarə verilən kimi düz bura yığılmalarını tapşırdı. İki nəfəri də öz yanında saxladı. .

Qazma dama girib, çaxmaq çaxıb qov alışdırdı; qara çırağı yandıranda, qardaşlarının yığışdırılmamış yatağlarını, pal-paltarlarını, qab-qaşıqlarını gerçək, dam başına dolandı. Taxtın üstünə üzüquylu düşdü, boğuq-boğuq hönkürdü. O, yalnız indi dərk etdi ki, aldığı yaraların ən dərini—qoşa qardaş dağıdır... Bir an özünü bütün dünyada yap-yalnız, tək-tənha hiss etdi. Bağrı çatlayacaq oldu. Birdən bayırdakı yoldaşları yadına düşdü. Onları səslədi. Gəldilər.

— Gəlin, a qardaşlar, dan ağarandan at belindəsiniz. Acsınız... Odur, küpdə qovurma var, ocağı alışdırın, isidin, dağarcıqdan əppək alın, yeyin, yatın dincəlin...— deyə qardaşlarının yataqlarını onlara göstərdi.

Qaraca çoban bütün bədənində dözülməz bir sızıltı hiss edirdi. Yaraları, üstünə köz basılmış kimi göynəyir, bütün vücudu od tutub yanırdı. Başı qurğuşun kimi ağırlaşmış, qulaqları uğuldayır, bədəni uçunurdu. Bir az sonra onu qızdırma apardı.

Çobanın iki yoldaşı yarı gecəyə kimi ona əllərindən gələn köməyi etmiş, gah üstünü basdırmış, gah tərini silib sərin su vermiş, gah yaralarını sarımış, nəhayət,

onun dincəlib yuxuya getdiyini görüncə, bir az rahatlanmaq üçün, yenicə uzanmışdılar ki, ağılın köpəkləri səs-səsə verib hürüşdülər. Hər ikisi yerlərindən dik qalxıb bayıra yüyürdülər. Qaraca çoban da vərdişi üzrə yerindən qalxmaq istədisə də, ancaq azacıq qalxıb yenə bitab yatağa sərildi, onu huş apardı.

Çıxanlar məşəllərin titrək işığında, xeyli uzaqdan atlılara bənzər kölgələr görüb haman saat məşəllərlə məşrut həyəcan işarəsi vermək istəyirdilər ki, atlılardan biri:

— Oğul, Qaraca!—deyə çobanı səslədi. Yoldaşlarından biri, məşəl əlində, yaxına gələndə, Qazan xanın qoca məsləhətgüzarını tanıdı. Qoca, atın cilovunu çəkib Qaraca çobanı soruşdu.

— Yaman ağrıyır, ağa,—deyə çobanın yoldaşı cavab verdi,—damda yatır...

Məsləhətgüzar atdan düşüb cilovu onunla eyni zamanda atdan düşən iki müşayiətcisindən birinə verdi.

— Gedək!—deyə çobanın yoldaşına müraciət etdi və hər ikisi Qaraca çobanın damına sarı yenəldilər.

Onlar içəri girəndə, Qaraca çoban geyinib yaraqlanmış, yırğalana-yırğalana qapıdan çıxmaq üzrə idi. Çoban qoca məsləhətgüzarı görəndə, qapını açıb geri çəkildi, onu hörmətlə qarşıladı:

— Buyur, dədə, uğur ola!—deyə onu içəri çağırıb, taxt üstündə yer göstərdi.

— Uğura qənşər gələsən, oğul,—deyə qoca, çobanın qolundan tutub öz yanında oturtdu,—nəyindir, ağrınmı var?

— Keçmiş ola, dədə, nə xəbər?—deyə çoban qocanın hər halda mühüm bir iş üçün gəldiyini bildiyindən, nigaran-nigaran onun üzünə baxdı.

Qoca da çobandan nigaran idi. Onun solğun üzünə, qızdırmanın şiddtindən qızarmış gözlərinə, qurumuş dodaqlarına baxa-baxa, bir müddət dinmədi. Sonra onun huşu yerində olub-olmadığını yoxlayırmış kimi soruşdu:

— Oğul, Qaraca, hançarı belə saysız-sayğısız dönüb gəldin? Demədinmi bəlkə gərəkərsən? İgidlərin hanı?

— Nəyə gərəkəcəyəm, dədə?.. Xana ki, çoban-çoluq yardımı gərəkməzmiş!.. İgidləri də dağıtdım getdi...

Qoca bu cavabdan çobanın yarasına toxunmuş olduğunu bildi. Lakin bununla bərabər bu cavabdan istifadə ilə, həm onun könlünü almaq, həm də əsl mətləbi ona anlatmaq, məqsədilə əziz oğluna nəsihət edən bir ata ədası ilə dedi:

— Oğlum, Qaraca, çoban-çoluq dedikləri el igidləri xana gərəkməzsə, elə də gərəkməzmi? Bir də, sən xandan umma, küsmə, oğul! O özündə-sözündə deyil. Ciyərparəsini itirən bir atadan, xatını yarı əlində dustaq gedən bir ərdən nə umular? Durma, haydı,carçı göndər, qoç ərləri topla, yağı üstünə axın var, axın! Həm də becid ol, uru durmaq, ər tərpənmək gərək... Gün ağarmadan çayı keçməliyik. yoxsa gec olar. Çata bilmərik, yağı xanı, bəyləri də basaralar, şələşiltəsini dərələr-

toplar gedər, bizə ar olar!..

Ancaq Qaraca çobanın acığı soyumamış, qanı durulmamışdı. Xanın «çoban-çoluq»—deyə onun izzəti-nfsinə vurduğu yara o biri ağrılardan yaman göynəyir, onu yandırıb yaxırdı. Qocanın dediyi—«yağı xanı, bəyləri basar-alar»— sözləri hətta onu bir az sevindirən kimi oldu. Onun ürəyndən keçdi ki: «qoy olsun, qoy dikbaş xanın burnu ovulsun!..» Bununla bərabər o, Burlaxatuna, bu mərd el qızına dərin bir hörmət bəsləyir, xan oğlu olsa da, daha artıq anasına çəkib sadə, şən və istiqanlı bir gənc olan Uruzu kiçik bir qardaş kimi sevirdi.

Qoca məsləhətgüzar çobanın dalğınlığından, susmasından onun tərəddüd etdiyini başa düşüb ürəyindən keçənləri duyurmuş kimi, onu təhrik etmək və inamla işə qoşmaq məqsədilə, cavab gözləmədən, yenə özü dilləndi:

— Oğul, Qaraca, bəlli bil ki, bu xan işi, xəzinə işi deyil, el işidir, el işi!.. Azğın yağı xanı da basar-alarsa, qan içmiş canavara dönər, qudurar, yurdu arxasız sanar, bəndini yıxan azğın bir sel olar, yurdu-eli basar. Sel gücü yamandır, ona ancaq el gücü qarşı durar, bəlli bilgil[1]!

Qocanın gözlərində, sözlərində, səsində və ifadəsindəki inam çobanı tutdu, ürəyində qövr edən odu soyutdu. O, şəxsi kini unutdu, qalxdı qoca dədənin əlindən öpdü:

— Baş üstə, göz üstə!—deyə damdan çıxdı.

Zil qaranlıq bir gecə... Qarşıdakı kiçik təpənin üstünə sancılmış məşəlin işıqlandırdığı kiçik bir dairədən kənar hər yer qap-qara bir boşluq kimi görünürdü.

Çoban təpəyə çıxıb oradan əvvəl bir yana, sonra o biri yana diqqətlə baxdı. Hər iki yanda bir çağırımlıqda göz qırpan bir işıltı görünürdü. Bu, çobanın tapşırdığı işarə məşəlləri idi. Çoban məşəlin yanındakı iri küpdən bir parç xələfi nöfüt götürüb məşələ atdı. Məşəl fışıltı ilə od püskürdü. Yanar damlalar fit verə-verə yerə səpələndi. Alov qat-qat artdı. Çoban məşəli əlinə alıb dik başı üstə üç dəfə endirib qaldırdı. Hər iki yanda uzaqda görünən məşəllər də eyni zamanda eyni işarəni təkrar etdi. O, məşəli yerinə sancıb dama qayıtdı.

Qazan xan bir ovuc bəylə gecə yarısı sərhədd çayının sahilinə çatıb atını suya vurdu.

Göz-gözü görmürdü. İki gündən bəri bol-bol yaran payız yağmurlarından aşıb-daşan çay, iri yumru daşları xarıltı ilə yuvarlayıb aparırdı. Suların bu qorxunc nərəsini eşidib tük ürpərdən soyuq nəfəsini duyduqda, xan aciz bir qəzəb və hiddətlə dilini-dodağını gəmirə-gəmirə geri döndü və yalnız indi çobanla etdiyi o qaba rəftardan peşman olub bu sel qarşısında elsiz-arxasız aciz olduğunu anladı.

Adam göndərib kömək istəməyi qüruruna sığdıra bilmədi. Atını geri döndərib bəylərin yanına gəldi. Qəsrdən ayrıldığı müddətdən bəri ilk dəfə dilə gəlib, heç kəsə xitab etmədən, öz-özünə danışırmış kimi dedi:

[1] B ə l l i  b i l g i l —yaxşı bil.

— Bu kor qaranlıqda bu azğın seli keçmək olmayacaq, gərək dan ağarmasını gözləyək.

Bəylərdən heç biri cürət edib ona heç olmazsa yaxın obalardan birində düşüb həm qızınıb qurulanmağı, həm də kömək üçün azdan-çoxdan adam toplamağı təklif edə bilmirdi. Onlardan bir neçəsi yarım çağrımlıqda olan meşəyə gedib quru ağac qabıqlarından, çalıdan-çırpıdan yığıb gətirdilər, iki-üç yerdə iri tonqal qaladılar...

Düşmənlər sahil boyu gözətçi qoymuşdular. Tonqalların alovunu görən kimi, böyüklərinə xəbər getdi. Əsas qüvvəsini öz yanında saxlayan quldurbaşı gecə ilə lazımi tədbir gördü. Hücumun bu tərəfdən olacağını güman edib o ətrafı bərkitdi. Gələn qüvvənin miqdarını bilmək üçün tapşırıqlar verdi və keçidin hər iki tərəfinə, kollar və qayalar ardına ən yaxşı ox atanlarını gizlədib möhkəm tapşırdı ki, qoşunun başında gələcək Qazan xana və bəylərə müqavimət göstərməyib buraxsınlar, arxadan gələnləri isə, şiddətli oxa tutub çayı keçməyə qoymasınlar.

Quldurbaşı güman edirdi ki, Qazan xanı çaydan buraxıb bəri tərəfdə tora salmaqla ona öz təklifini qəbul etdirə bilər, ya da onun özünü də ələ keçirib girov kimi saxlar və əvəzində Bayındır xandan oğlanlarını istər. Buna görə də o, Qazan xanın oğlunu və əsir qadınları, hər ehtimala qarşı, hələ kecə ikən inanılmış qorucular dəstəsilə arxaya, daha inamlı bir yerə göndərmişdi. O da sübhün açılmasını gözləyirdi...

Qazan xan tonqalın kənarında oturub gözünü bir nöqtəyə zilləmiş, əlindəki çubuqla külü eşələyir, dərin düşüncələrə dalmışdı. Hələ bugün baş vermiş hadisələr: meşədəki pis yuxu, qucağında can verən çapar, alt-üst olmuş qəsri, qanına bilənmiş qoca eşikağası, Qaraca çoban... və ən uzaq xatirələr; Burlaxatun ilə ilk görüşü, gəncliyindəki macəralar, sərgüzəştlər, evlənməsi, Uruzun körpəliyi, şirin ata-ana xəyalları bir-birinə qarışıq halda gözünün önündən keçirdi. O bəzən özünün harada olduğunu unudur, üzündə bir keçiçi şölə kimi təbəssüm parıldayır, birdən tonqaldan sıçrayan bir qığılcım və ya küləyin şıltaq bir həmləsi ya da bir gecə quşunun vaxtsız bir çığırtısı onu xəyalat aləmindən ayırır və o, acı həqiqətlə, düşdüyü çıxılmaz vəziyyətlə üz-üzə gəlib diksinir, dişlərini bir-birinə sıxaraq, boğazında yumruq kimi düyünlənmiş kin və qəzəb, əzab və iztirabı udmağa çalışır, boğulurmuş kimi, çətin, ağır-ağır nəfəs alırdı.

Bəylərdən kimisi tonqallara çalı-çırpı atır, kimisi oturduğu yerdə mürgüləyir, xandan aralı olan tonqal başındakılardan bəziləri isə, qorxaq, lal pıçıltılarla deyinir, donquldanırdılar.

Xan ara-bir başını qaldırıb gündoğan tərəfə baxırdı. Bir müddət sonra üfüqün bozardığını görüb kimsəyə bir söz demədən, ayağa qalxdı və bir neçə addımlıqda

ağaca bağlanmış atına sarı yönəldi.

Tonqal başında uzun müddət qımıldanmadan oturmaqdan uyuşmuş ayaqlarında bir gizilti, bədəninin hər yerində sızıltı duydu. Tonqalın istisindən sonra payızın qılınc kimi kəsən səhər nəsimi buzlu bir əl kimi boynunu, sinəsini, bütün vücudunu gəzdi. Xan qeyri-ixtiyari əsdi. Qollarının, çiyinlərinin əzələləri titrəşdi, dişləri bir-birinə dəydi. Xan özünü toplayıb atın belinə sıçradı və ağır-ağır çaya tərəf sürdü.

Çayın iki sıldırım qaya arasından ən sürətlə axan, ən dərin və ən dar yerindən hələ bir insan da keçməmişdi. Buradan suya baxanda, ya da qaranlıqda onun lal nərələrini eşidəndə, adamı vahimə basır, sanki çay adamı aşağı çəkirdi. Hər iki tayın sakinləri arasında ən qorxunc əfsanə və rəvayətlərdə «Quşkeçməz» adı ilə məşhur olan bu yerlərə kimsə yaxın durmazdı.

Qaraca çoban qəsdən buranı seçmişdi. Hələ gecə ikən, meşədən iri gövdəli əsrdidə ağaclardan qırdırdı. Gecənin zil qaranlığında o taya, qarasına kəmənd atmağa başladı. Nəhayət kəməndi o tayda bir qayaya ilişdirib bu taydan bərkitdi və əli ilə kəmənddən asıla-asıla özü hamıdan əvvəl o taya keçdi. İgid yoldaşlarından bir neçəsi də onun ardınca keçdilər və bir neçə möhkəm tiri çəkib bir-birinə bənd etdilər, körpü qurdular. Hamı səssiz-səmirsiz o taya keçdikdən sonra körpünü uçurdular.

El atlıları bir ucu sahildə, bir ucu çağrımlarla içərilərə doğru uzanmış böyük bir yarımdairə təşkil etmişdilər. Qoca məsləhətgüzar düşmən başçısının əsirləri içərilərə qaçıra biləcəyini nəzərdə tutub atlılara tapşırıq vermişdi. Onlar da həry eri arayıb-darayır, kiçik bir qaraltı belə buraxmırdılar.

El atlıları surət və mətanətlə düşmən düşərgəsinə doğru irəliləyirdi, gecəki tonqalların işığından sayıq düşmüş düşmən başçısı gün ağaranda, atlanıb sahilə yaxın bir təpəyə gəldi və oradan keçidi müşahidəyə başladı.

O taydan otuz-qırx atlı çayın yayılıb dayazlaşmış bir yerindən. Bəriyə keçməkdə idi. O diqqətlə hər tərəfi yoxladı. Arxadan gələn yox idi. Gələnlərin içində hamıdan irəlidə Qazan xanı tanıdı. Əynində döyüş paltarı deyil, adi geyim vardı. Bəylər də yüngül geyinmişdilər. Əvvəlcə buna təəccüb etdisə də, sonra Qazan xanın belə saymazyana gəlməsindən, onun özünə və yəqin ki, arxadan gəlməkdə olan qüvvəsinə çox güvəndiyini güman edib qorxuya düşdü.

O, Qazan xanı yaxşı tanıyırdı. O dəfələrlə onun özünü və sair xanları belə saymazyana və tamamilə gözlənilməz mahiranə və cürətli hərəkətlərilə məğlub etmişdi.

Qazan xan bu taya çıxınca, orada-burada görünən yaraqlı düşmən atlılarına əsla etina etmədən, atını saxlayıb nəzərlərilə kimi isə axtarmağa başladı.

Təpədən dırnağa qədər silahlanmış düşmən dəstəbaşçılarından biri məğrur bir əda ilə atını Qazan xanın qabağına sürüb nə isə demək istədi. Lakin o, ağzını açma-

mış, Qazan xan onun üzünə bir qamçı vurub baqırdı:

— Atdan düş köpək! Xan hüzurundasan!

Bu gözlənilməz zərbənin şiddətindən müvazinətini itirən düşmən çul kimi yerə sərildi, o biri düşman atlıları da sehirlənmiş kimi donub qaldılar. Düşmən dəstə başçısı özü də sarsılıb bir an nə edəcəyini bilmədən çaşıb qaldı.

Qazan xan amiranə bir səslə bir də bağırdı:

— Hanı, o quldurbaşı haradadır? Gəlsin görək!

Düşmənlər qeyri-ixtiyari öz xanlarına sarı baxanda, onların hərəkətindən, Qazan xan da o səmtə baxıb xanı tanıdı və gur, məğrur bir səslə çığırdı:

— Əhey, quldurbaşı, təpə dalında nə durursan, ərsən,, irəli gə1.. Evimi, axçamı talamışsan, işin-peşəndir, sənə xərclik olsun! Tovla-tovla şahbaz atlarımı gətiribsən, işin-peşəndir, sənə minət[1] olsun! Qatar-qatar dəvələrimi gətiribsən, işin-peşəndir, sənə yüklət olsun?

A üzü qaralı, başı qadalı, xatınları, oğul-uşağı nə diyə dustaq etdin?! Onları mənə qaytar, savaşmadan-vuruşmadan qayıdıb gedəyin!

Quldurbaşı hələ də işin nə yerdə olduğunu, Qazan xanın belə bir ovuc əli yalın dərəcədə yungül silahlı atlıları ilə belə cürətkarlığının səbəbini anlaya bilmədiyindən, bəlkə də özünün bir tələyə düşəcəyindən qorxub Qazan xanla mümkün qədər mülayim danışmağa çalışaraq, cavab verdi:

— Bizə söymə, qaxma, Qazan! Evini-axçanı istərsən, sənindir, verəyin, al get! Tovla-tovla atlarını, qatar-qatar dəvələrini istərsən, sənindir, verəyin, al get... Xatınlarla oğlunu istərsən, oğullarımı ver, mən də verəyin!..

Qazan xanın qan beyninə vurdu, əlini qılınca atıb qəzəblə:

— Sənin oğullarını əllərində qılınc çapoulçuluqda, basqınçılıqda tutdum, yataqdan gətirmədim, qorxaq tülkü?— deyə bağırdı və atını şaha qaldırıb qılıncı çəkdi düz onun üzərinə sürə-sürə, əlavə etdi:

— Ərsən-igidsən, irəli gəl, ikimiz yarıyıq, ikimiz vuruşaq! I

Düşmən başçısı da atın başını çəkdi, ancaq irəliyə yox, geri çevirdi və boğazında qaynayan xırıltılı bir səslə nə isə bağırdı. Bu döyüş əmri bu ana qədər donub qalmış düşmənləri hərəkətə gətirdi. Hər tərəfdən Qazan xan və bəylər üzərinə at təpməyə, ox səpməyə başladılar.

Bəylər Qazanı üzük qaşı kimi araya alıb arxadan, yan-yörədən qoruyur, Qazan xan yaralı aslan kimi nərələr çəkib qılıncı bərq verə-verə, hər tərəfi çapırdı. İlk həmlədə qıpçaqlar özlərini itirib dağılmışdılar. Qazan xanın və bəylərin ətrafı ölü və yaralı qıpçaqlarla dolmuşdu. Lakin ara açılıb meydan genişlənincə, iş dəyişdi. Bəylər xanı tək qoyub ayrıla bilmədiklərindən, yaxın məsafədən ox atan düşmənləri təqib edə bilmədilər. Özləri, atları oxla vurulan bəylər bir-bir yerə yıxılırdılar. Xanın dövrəsində bir neçə atlı qalmışdı. Xan özü də bir neçə yerindən oxla yaralanmışdısa da, isti-isti bunu duymur, yaralı atının axsayıb büdrədiyinə

baxmadan, düşmən başçısına çatmağa can atır, çığıra-çığıra at çapırdı.

Birdən sanki bir əl xanın gözlərini tutdu. Alnında küt bir sancı duydu, başı gicəldi. Yandan atılan bir ox onun alnını sıyırmış, axan qan gözlərini tutmuşdu... İndi o, heç bir şey görmür, lakin azğın, çılğın bir hirs və qəzəblə heyvani nərələr çəkə-çəkə, qılıncını hər tərəfə hərləyir, yerində fırlanırdı. Onun bu halı düşmənlərdən artıq onu qoruyan bəylər üçün qorxulu idi. Onlar da son dəqiqələrinin gəldiyini görüb yırtıcıların əlinə düşməkdənsə, şərəflə ölməyi üstün tutan adamların qətiyyəti ilə vuruşurdular.

Bu anda uzaq göy gurultusunu, nəhəng dəniz dalğalarının uğultusunu andıran qorxunc döyüş nidaları eşidildi:

— Vurhay, vurha!..

Birdən aşağıdan, çay sarıdan, qıpçaqların seyrəlmiş cərgələri pozuldu. Bir neçə atlı şimşək sürətilə xanı və bəyləri halqaya almış düşmənlər üzərinə şığıdı.

Atlılardan biri Qazan xanın sağından:

— Çal qılıncın, başım baxtı, etdim!—deyə qaplan kimi hayqırdı.

Soldan çapan atlı şahin kimi:

— Çal qılıncın, ağam Qazan, etdim!—deyə qıy vurdu

Qaplan xatını ilə tərlan oğlunun səslərini eşidəndə, xanın sinəsindən qopan sevinc nidası el igidlərinin əzəmətli zəfər nərəsinə qarışdı.

Düşmən sürüləri ani qopan fırtınanın sovurduğu xəzəl yarpaqları kimi üzü aşağı səpələnib axışır, çaya tökülürdü.

Aldığı yaralardan axan qanlar iki gündən bəri çəkdiyi dözülməz iztirablar xanı taqətdən salmışdı. Onun birdən-birə qolu sustaldı, bədəni ağırlaşdı və özündən gedib atdan yıxılmaq üzrə ikən, Burlaxatun və Uruz iki tərəfdən qoluna girdilər. Xan qollarını onların boynuna saldı. Onlar ağır-ağır bir qayanın daldasına çəkildilər, atdan düşüb xanın gözlərini sildilər, yaralarını sarımağa başladılar.

Düşmənləri qovub çaya tökən el atlılarından biri ayrılıb bunlara doğru gəlir, arxasınca kəmənddə nə isə sürüyürdü: Qaraca çoban qabağından qaçan düşmən başçısını kəməndlə tutub gətirirdi. Qaraca çoban onlara yaxınlaşıb atdan düşdü və aslan kimi gur bir səslə, uşaq kimi saf bir əda ilə soruşdu:

— Anam Burlaxatun, ağam Qazan, qardaşım Uruz sağmı?

Ana, oğul Qaraca çobanla çoxdan çöldə, onları əli-qolu bağlı aparan quldurlardan qurtararkan görüşmüşdülər. Onlar bir an əvvəl Qazan xana qovuşmaq üçün silahlanıb at çapmış, çobandan ayrı düşmüşdülər.

Hər ikisi səmimi, şad, lakin bir az nigaran nəzərlə çobana baxdılar. Xan qanlı gözlərini yaralı qollarını zorla açıb çobanı bağrına basdı və taqətsiz halına uymayan aydın bir səslə çığırdı:

— Var ol, oğul çoban!

Qaraca çoban, doğmaqda olan günəşin al şəfəqlərində dəniz kimi dalğalanan

el igidlərini seyr edə-edə, gur səslə cavab verdi.

— Var olsun el gücü!

# DƏLİ OZAN

## I. CEYRAN OVU

İrəlidə gedən qoca ovçu əlini yuxarı qaldırıb atdan endi. Beyrək və yoldaşları da düşdülər. Qoca əyilib diqqətlə yeri yoxladı. Un ələnmiş kimi ağımtıl, sarı şoran torpağın üzərində təzəcə ceyran izləri aydın görünürdü. O, gəncləri başına yığıb yavaşcadan dedi:

— Atları yedəkləyin, ardımca gəlin, səs-səmir çıxarmayın... On-on iki baş ceyran bu yavuqdadır..

Qoca irəlidə, gənclər ardınca, səsizcə iki-üç yüz addım getdilər. Önlərində çəpərə bənzər adam boyu kollar var idi. Qoca ora yetişəndə, durdu və qollarını yana açıb gəncləri dəvət etdi, barmağı ilə irəlini göstərib pıçıltı ilə dedi:

— Odur ha, rəmələrin ətəyində otlayırlar. Hamı birdən çapın, çevrələyin...

Hamı birdən atlanıb çapdılar, atlar yaydan çıxan ox kimi uçurdular. Ceyranlar əvvəlcə sürü ilə qaçırdılar, lakin atlılar yaxınlaşdıqca, darılışıb iki-bir, tək-tək düzə səpələndilər.

Beyrək hamıdan irəlidə qaçan buynuzlu, boylu-buxunlu gözəl bir təkəni seçib dalınca at saldı. O istəsə, daha yaxında olan ceyranlardan bir-ikisini oxla vurar, ya kəmənd ilə tuta bilərdi. Ancaq o bunu istəmirdi. Çətinliklə əldə edilən müvəffəqiyyətin ayrı dadı var.

Ceyran qaçdıqca, sanki qol-qanad açır, uçurdu. Beyrək boz atın yalına yatıb hərdən əli ilə onun boynuna vurur, at da qanadlanırdı. Kolluqlar qurtarıb düzənə çıxanda, boz at ceyrana o qədər yaxınlaşdı ki, onu oxla asanca vurmaq olardı. Ancaq Beyrək oxa, yaya əl atmadı. O, əli ilə kəməndi yoxladı və ayaqlarını atın böyürlərinə sıxdı. At onun istəyini anlamış kimi, bir az da yeyinlədi. Kəmənd mənzilinə çatanda, Beyrək qulaylanıb kəməndi atdı. Kəmənd ceyranın buynuzlarına toxunub belindən, sağrısından sürüşüb düşdü. Ceyran bundan diksinib dik atıldı. Yana sıçradı, buynuzlarını boynuna qısıb daha da bərk vazladı.

Beyrək əlini dizinə çırpıb atını döndərənə və kəməndi yığana qədər ceyran xeyli uzaqlaşdı, irəlidəki xırda təpələri aşdı. Beyrək açığa düşüb boz atın sağrısına

bir şapalaq vurdu. Dabanlarını atın böyürlərinə möhkəm sıxdı. Belə rəftara alışmamış boz at kiçik qulaqlarını qısıb, durna boynu kimi zərif, uzun boynunu irəli uzadıb elə çapdı ki, bir azdan sonra yenə ceyranı haqladı. Bir qədər də çapdıqdan sonra, Beyrək kəməndi bir də atdı. Bu dəfə kəmənd ceyranın boynuna keçdi. O, dal ayaqları üstə dik atılıb geri yıxıldı və yerdə çırpınıb çapalamağa başladı. Beyrək atdan sıçrayıb ceyranın üstünü aldı. O, ceyranın əl-ayağını bağlamaqla məşğul ikən, bir səs eşitdi.

— Hey, oğlan, bizim ovlağın ceyranından bizə də pay düşər!

Beyrək başını qaldırdı. Yaxında bəzəkli, ipəkli gözəl bir gecə çadır vardı. O yalnız indi gördü ki, ceyranı qova-qova yam-yaşıl, güllü-çiçəkli, səfalı bir çəmənliyə gəlib çıxmışdır. Bu sözləri söyləyən isə, çadırdan çıxıb ona doğru gələn orta yaşlı, gülər üzlü bir qadın idi.

Beyrək:

— Hamısı sizə qurbandır, ana!—deyə hörmətlə cavab verdi.

Qadın heç bir söz deməyib yaxına gəldi. Əvvəlcə maraqla ceyrana, sonra daha artıq bir maraq və diqqətlə Beyrəkə baxıb dinməz-söyləməz çadıra qayıtdı.

Beyrək də bir müddət heyrətlə onun ardınca baxıb durdu. Bura hara idi, bu çadır kimindi, o ceyranı qova- qova nə qədər yol gəlmişdi ki, gəlib bu tanımadıqı yerə çıxmışdı?

O, dəsmalını çıxarıb alnının, üzünün tərini sildi. Üst-başını düzəltdi. Bir az kənarda gəzinib ara-bir ətirli payız ot və çiçəklərindən qırpan boz atı fitləyib çağırdı. At qulaqlarını şəkləyib onun yanına gəldi. Beyrək barmaqları ilə onun yalını daradı, alnını, boynunu tumarladı, yəhərinin qayışlarını yoxlayıb düzəltdi.

Beyrək möhkəm sarılmış ceyranı orada qoyub ata minmək istəyirdi ki, birdən çadır tərəfdən bir at kişnəməsi eşitdi. Dönüb baxanda, gördü ki, qıvraq geyinmiş, üzü niqablı, özü yaraqlı, zərif əndamlı, uca boylu bir gənc qəşəng bir qara atı yedəkləyib ona doğru gəlir. Gənc yaxınlaşıb:

— Qoç igid,—dedi,—bizim ovlaqda ceyran ovlayıb bizə hünərmi göstərirsən?!

Bu kinayəli, iddialı sözləri söyləyən gəncin səsində elə bir incəlik və məlahət var idi ki, başqa halda belə rəftara yalnız acı söz və ya silahla cavab verəcək olan Beyrək acıqlanmadı. Bunu bir zarafat kimi qəbul edib o da eyni surətlə cavab verdi:

— Nə olar ki, igid, ovlaq sizindir, ov da sizin olsun... hünər isə, ovda yox, döyüşdə, savaşda görünər!

— Qoç igid, biz də sənin kimi ov etməyi başarırıq. Ovu belə almaq bizə yaraşmaz. Gəl səninlə yarışaq, kim üstün gəlsə, ov onun olsun!

— Olsun!—deyə Beyrək özü də istəmədən, bir az acıqlı bir səslə cavab verdi.

Gənclər atlanıb bir müddət dinməz-sözləməz yanaşı sürdülər. Niqablı gəncin qara atlas kimi tükləri işıldayan atı da özü kimi zərif və yaraşıqlı idi. Gənclər qalın otlaqdan qurtarıb bərk duzənə çıxanda, niqablı gənc əlini qaldırdı və:

— Haydı!—deyə atının başını buraxdı.

Çapa-çap başlandı. Atlar yan-yana çapır, atlılar irəli əyilib sanki özləri atların boynundan atılıb irəli şığımaq istəyirdilər. Atlardan heç biri o birini irəli buraxmırdı. Mənzil başına az qalmış, Beyrəkin boz atı birdən-birə irəli sıçrayıb şığıdı və niqablı gəncin qara atını ötüb keçdi.

Niqablı gənc atın başını çəkib gedə-gedə yerə atıldı. Beyrək də hərlənib onun yanına gəldi və atdan endi.

Niqablı gənc bir az küskün, ancaq yenə haman xoş, məlahətli səslə:

— Hey, igid,—dedi,—mənim atımı kimsə keçdiyi yox... İndi gəl səninlə ox ataq...

Niqablı gənc zərif yayı əlinə alıb meşin sadaqdan bir ox çıxardı. Girişə qoyub yayı gərdi və ox vıyıldayıb bir anda gözdən itdi. Hər ikisi irəlidəki təpənin ətəyinə baxdılar. Bir az sonra xeyli uzaqdan toz qopdu.

Beyrək yayını ələ alanda, naməlum gənc niqabın ardından heyrətlə ona baxırdı. O hələ bu vaxta qədər bu qalınlıqda yay görməmişdi. Beyrəkin oxu da onun oxundan iki dəfə iri və ağır olardı.

Beyrək oxu atdı. Ox qıjıltı ilə gözdən itdi və bir qədər sonra haman yerdən toz qopdu.

Hər ikisi atlanıb ora sürdülər. Beyrəkin oxu ondan iyirmi-otuz addım uzağa düşmüşdü.

Niqablı gənc səsində aydın duyulan bir həyəcanla istəmiyə-istəmiyə etiraf etməli oldu:

— Bunda da sən qazandın, ikid. İndi üçüncü sınaq qalır. Gəl səninlə güləşək...

Beyrək nə edəcəyini bilmirdi. Tanımadığı, Hələ üzünü də görmədiyi bu gəncə qarşı nədənsə anlaşılmaz bir unsiyyət hiss edirdi. Özünü tanıtmaq istəməyən bəyzadə, xanzadə və cəngavərlər arasında niqab taxmaq adət olduğundan o, niqaba təəccüb etmirdi. Ancaq bu gəncin səsindəki xüsusi yumşaq və munis ahəngdən, ox atarkən, yaxından gördüyü barmaqlarının zərifliyindən, ona elə gəlirdi ki, bu gənc boy-buxunlu olsa da, yaşca çox kiçikdir. Həm də naz-nemətlə böyümüş bir gəncdir. Bir də Beyrəkin əsl məqsədi ceyranı ovlamaqdı. Sonrası isə onu maraqlandırmırdı. Buna görə də Beyrək ovu yarışsız, sınaqsız da ona vermək istəyirdi. Ancaq güman edirdi ki, ona bu təklifi etsə, bəlkə də ürəyinə toxunar. Axı o, özü də gənc idi. Onun özünə, yarışda üstün gələn adam belə bir təklif etsə idi, bunu özünə təhqir sayardı. Odur ki, niqablı gəncə bu barədə heç bir söz deməyib təklifini qəbul etdiyini bircə sözlə bildirdi:

— Xoş!

Yaylarını, sadaqlarını, yaraqlarını yerə qoyub güləşməyə başladılar.

Beyrək əvvəlcə saymazlıq edib çox da bərk girişmədi. İki yarışda ona üstün gəldiyindən, könlünü bir də qırmaq istəmədiyi üçün, heç olmazsa, bir qədər əlləşib qəsdən onu basmadan, ayrılmaq fikrində idi. Ancaq niqablı gənc zərif bədəninə uymayan bir qüvvətlə ona girişəndə, Beyrgk özünü topladı. Bir-iki dəfə dizi üstə yerə gəldisə də, tez ayağa qalxdı və artıq qarşısında zənn etdiyi kimi zəif bir gənc deyil, özü kimi güclü-qüvvətli bir cavan olduğunu başa düşüb bir az da hirs ilə onun başını qoltuğuna salıb aşırmaq istəyəndə, gəncin sərpuşu niqab qarışıq onun qoltuğunda qaldı. Özü sıyrılıb çıxdı.

Beyrək dönüb baxanda, heyrətdən gözləri bərəldi. Qarşısında gur qumral saçları dalğa-dalğa çiyinlərinə, üzünə tökülmüş gənc və gözəl bir qız dururdu. Saçlarının arasından al-atəş olmuş yanaqları seyrək bulut ardında səhər günəşi kimi şölə saçır, gül qönçəsinə bənzər dodaqları titrəyir, həyəcanlı ala gözləri şimşək çaxırdı.

Bircə qırpım sürən şaşqınlıqdan sonra gənc qız çevik bir hərəkətlə əlini atıb çəkməsinin boqazından almas kimi parıldayan kiçik əyri bir xəncər çıxardı və başı üzərində qaldırıb qəzəblə dilləndi:

— Hey, hey, oğlan, mənim üzümü kimsə gördüyü yox, sən nə etdin, oğlan? Öz qanına girdin!

Beyrək heyrət və heyranlıqla qızın qəzəb və həyəcandan gərginləşib bir az da pörtləşmiş üzünə baxa-baxa, əfsunlanmış kimi bir neçə addım irəliləyib onunla üz-üzə durdu. Əllərini öz yaxasına aparıb sinəsini gərərək, yumşaq bir səslə dedi:

— Suçumu qanımla yu, gözəl! Bu sən, bu da sinəm... Vur! Ancaq bil ki, sənə ölüb-öldürmək yox, yaşamaq və yaşatmaq yaraşır...

Qız bir an düşündü, sonra verəcəyi qərar alacağı cavaba bağlı imiş kimi, nigaran, həyəcanlı bir səslə soruşdu:

— Oğlan, söylə görüm, sən kimsən? Kimlərdənsən?

Oğlan inamlı və güvənli bir əda ilə cavab verdi:

— Baybura bəy oğlu Bamsı Beyrək dedikləri mənəm!

Qızın əli yanına düşdü. Üzündən qəzəb və hiddət bir anda silindi. Qaş-qabağı açıldı. Üzünə tökülən saçlarını əli ilə yana çəkdi. Sanki bulut ardından gün çıxdı. Onun üzünə qonan sevincli bir təbəssüm güzgü kimi Beyrəkin də üzündə əks etdi. Bu haldan sevinən Beyrək də qızdan soruşdu:

— Bəs sən kimsən, gözəl?

— Mənə də Baybecan bəy qızı Baniçiçək diyərlər, igid!

Bu sual-cavabdan sonra hər iki gənc köhnə dostlar kimi qeydsiz-rəsmiyyətsiz danışıb-gülməyə başladılar.

Deмək olar ki, bunlar heç bir zaman bir-birini görməmişdilərsə də, ancaq bir-birilə tanış, hətta tanışdan daha yaxın idilər.

Bunlar hələ dünyaya gəlməmiş taleləri bir-birilə bağlanmışdı. Əhvalat belə olmuşdu:

Bir gün Xanlar xanı Bayındır xanın qonaqlığında Baybura bəy ilə Baybecan bəy söz qoymuşdular. Birinin oğlu, birinin qızı olsa, bunları bir-birinə beşik kərtmə yavuqlu etsinlər. Beyrəklə Baniçiçək anadan olanda, hər iki tərəf şadlıqla bu qərarı bir də təsdiq etmişdi.. Uşaqlar hələ balaca ikən, bir-birinin adını, tərifini çox tez-tez eşitmiş, hər ikisinin qulağı dolmuş və qaibanə də olsa, bir-birinə isinmişdilər. yeddi-səkkiz yaşlarında ikən, tez-tez görüşüb bir-birilə günlərlə oynamışdılarsa da, sonra Baybecan bəy ölmuş, oğlu Qoçər isə, kimsəyə yovuşmayan əcayib xasiyyət və rəftarı sayəsində dəli ləqəbi qazanmış, hamı ilə, o cümlədən Baybura bəy ailəsi ilə də əlaqəni kəsmişdi. Beyrəklə Baniçiçək də o vaxtdan bəri bir-birini görməmişdilər.

Ancaq saf uşaq qəlbinə nəqş olunmuş səmimi bir məhbbət unudularmı? Keçən bu on-on iki illik müddətdə hər ikisinin qulağı səsdə olmuş, bir-birini arzulamış və nəhayət bu qəribə təsadüf nəticəsində görüşmüş, yenidən tanışmışdılar.

Bunu bir-birinə söylərkən, birdən onların görüşünə səbəb olan ceyran yadlarına düşdü. Hər ikisi atlanıb ora, çadırın yanına çapdılar. Ceyranın əl-ayağını açdılar. Baniçiçək qırmızı ipək yaylığını ceyranın boğazına bağlayıb onu buraxdı. Ceyran vazlayıb yaşıl düzənlikdə gözdən itdi. Baniçiçək onun dalınca baxa-baxa:

— Bu yaylıq nişan olsun, kimsə o ceyrana toxunmasın!

Beyrək də barmağından qızıl üzüyünü çıxarıb Baniçiçəyin barmağına taxdı:

— Ortamızda qoy nişan olsun, xan qızı!—dedi.

Yoldaşları Beyrəki çox axtarıb tapa bilməmiş, Nəhayət: «Görəsən qayadanmı aşdı, çayamı düşdü»... deyə nigaran qalmış, kor-peşiman qayıtmışdılar.

Beyrək axşama yaxın evə çatanda, qoca atası qarşısına çıxıb soruşdu:

— Oğul, handa qalmışdın?

— Atacan, bir ceyran qovub çox uzaqlara getdim, çox şeylər gördüm, çox şeylər bildim...

Qoca oğlunun gözlərinin parıltısından, sözlərinin ifadəsindən onun nə isə çox nəşəli və ürəyi sözlü olduğunu duydu və soruşdu:

— De görüm nə gördün, nə eşitdin, oğul?

— Nə görəcəyəm atacan, oğlu olan evləndirmiş, qızı olan köçürmüş...

Qoca, oğlunun ürəyindəkini bildi və mehriban bir gülüşlə soruşdu:

— Oğul, olmaya evlənmək istəyirsən?

Beyrək bir az utancaq, lakin əvvəlcədən qərara gəlmiş bir adam qətiyyətilə:

— Bəli, əziz ata...—dedi.

Qoca bu cavabdan başa düşdü ki, oğlu kimisə görmüş, könül vermişdir. Ona görə də belə inamlı danışır.

— Oğul, de görüm, sənə kimin qızını alım?

Beyrək qızı nişan vermək əvəzinə onun sifətlərini saydı ki, atası özü tanıya:

— Atacan, mənə elə bir qız al ki, mən yerimdən durmamış, o durmuş ola, mən qara qoç atıma minməmiş, o minmiş ola, mən yarı üstünə varmamış, o mənə baş gətirmiş ola!..

Qoca bildi ki, oğlu ya Baniçiçəyə rast gəlmiş, ya ondan bir soraq almışdır. Ancaq özünü bilməzliyə qoyub ondan söz almaq məqsədilə:

— Oğul,—dedi,—sən qız istəmirsən, özünə bir hampa istəyirsən!.. Mən bizim ellərdə belə qız tanımıram, oğul!

— Amma mən tanıyıram, ata!

— Kimdir, oğul?

— Baniçiçək!

Xan başını yırğalaya-yırğalaya:

— Ay oğul,—dedi,—Baniçiçəyin bir dəli qardaşı var. Adına Dəli Qoçər diyərlər. Bacısını istəyəni öldürər.

— Bəs necə edək, atacan?

Ata-oğul iş bilənlərlə, ağsaqqallarla məsləhətləşib Dədə Qorqudu qıza elçi göndərdilər.

— Oğul, de görüm, sənə kimin qızını alım?

Beyrək qızı nişan vermək əvəzinə onun sifətlərini saydı ki, atası özü tanıya:

— Atacan, mənə elə bir qız al ki, mən yerimdən durmamış, o durmuş ola, mən qara qoç atıma minməmiş, o minmiş ola, mən yarı üstünə varmamış, o mənə baş gətirmiş ola!..

Qoca bildi ki, oğlu ya Baniçiçəyə rast gəlmiş, ya ondan bir soraq almışdır. Ancaq özünü bilməzliyə qoyub ondan söz almaq məqsədilə:

— Oğul,—dedi,—sən qız istəmirsən, özünə bir hampa istəyirsən!.. Mən bizim ellərdə belə qız tanımıram, oğul!

— Amma mən tanıyıram, ata!

— Kimdir, oğul?

— Baniçiçək!

Xan başını yırğalaya-yırğalaya:

— Ay oğul,—dedi,—Baniçiçəyin bir dəli qardaşı var. Adına Dəli Qoçər diyərlər. Baçısını istəyəni öldürər.

— Bəs necə edək, atacan?

Ata-oğul iş bilənlərlə, ağsaqqallarla məsləhətləşib Dədə Qorqudu qıza elçi göndərdilər.

Dəli dedikləri Qoçər nakam bir aşiq idi. Qonşu məliklərdən birinin qızı ilə sevişmiş, atası ilə Məlik arasında olan mənsəb və təəssüb ədavəti bu saf, səmimi eşqi faciəyə çevirmiş, ona könül verən qız isə, öz mütəəssib əqrəbası tərəfindən

öldürülmüşdü. Qoçər də bundan sonra mənsəb və rütbədən üz çevirmiş, atası öldükdən sonra ona düşən xanlıqdan imtina etmiş, mal-dövlətdən əl çəkib hamısını baçısı Baniçiçəyə buraxmış, özü əldən-ayaqdan iraq bir yerə çəkilmişdi.

Qoçər bəzən günlərlə yox olar, dağlara, meşələrə gedib ağac oyuqlarında, maqaralarda gecələr, sonra yenə dönüb baçısının yanına gələrdi. O, saç-saqqalını buraxıb əyninə ən sadə pal-paltar geyərdi. Şəvə kimi qara saçları qıvrım-qıvrım olub alnına, çiyinlərinə tökülmüş, üzünü bığ-saqqal basmış, əslən çox gözəl və yaraşıqlı simasına bir az qorxunc bir görkəm vermişdi.

Bəylərlə, xanlarla əsla görüşməzdi. Oturub-durduğu adamlar: çobanlar, dünyagörmüş qocalar, ölkələr gəzmiş bazərganlar, əl-oba içində tanınmış sözlü-söhbətli ozanlar idi. Qoçər özü də igid, zorlu bir pəhlivan və sazlı-sözlü bir ozan idisə də, məclislərdə, meydanlarda görünməzdi. Dağ başında rast gəldiyi çobanlara çalıb oxuyardı. Onun sözləri adi ozanların sözlərinə bənzəməzdi. Çaldığı havalar, qoşduğu sezlgr dinlgygnlgri əndırıb- əxar, kunlgrlg duşundurgrdi.

Qoçər nakam qəlbinin bütün məhəbbətini bacısı Baniçiçəyə həsr etmiş; heç olmazsa onun kama yetişməsi üçün candan keçməyə hazır idi. O, baçısının qəlbindən xəbərdar idi. Ətrafdakı bəylər, xanlar Baniçiçəyin özündən çox onun atadan qalma var-dövlətini ələ keçirmək üçün tez- tez elçi göndərir, bəzən hətta üstü örtülü hədələyirdilər də. Hər dəfə elçi gələndə, Qoçər baçısının üzündəki ifadədən onun narazılığını anlar və belə eçiləri çox vaxt döyüb-söyüb yola salardı, bir də gəlsələr öldürməklə hədələrdi. Odur ki, el arasında «Qoçər bacısını istəyəni öldürər» şayiəsi yayılmışdı. Qoçər isə, ardı-arası kəsilməyən bu elçilərdən yaxasını qurtarmaq üçün bacısını da götürüb təbiətin bu tənha, lakin gözəl guşəsinə, Ceyrandüzünə yaxın bir yerə köçüb çadır qurmuş, orada qulağı dinc yaşayırdılar ki, Beyrək də, bildiyimiz təsadüf nəticəsində, gəlib ora çıxmış, Baniçiçəklə görüşmüşdü..,

Dədə Qorqud çadıra çatıb Qoçəri səsləyəndə o, qoca ozana bağır basıb baş əydi. Onu içəri çağırıb taxt üstündə oturtdu.

Elin hər müşkülünü açan, xeyirdə-şərdə hamının işinə yarayan, hər kəsin dilini bilən dünyagörmüş Dədə, dünyanın, insanın gəlişindən-gedişindən söz açdı. Yeri gəldikcə, qobuz çaldı, söz qoşdu. Qoçər ilə ozan dililə danışdı; mətləb üstə gəldi.

Qoçər baçısının da rəyini bilib razılıq verdi...

Yeddi gün, yeddi gecə davam edən kiçik toyun axırıncı gecəsi idi. Sabah gəlini aparacaq, Beyrəkin öz obasında da toy davam edəcəkdi.

El adətinə görə, Beyrək ox atmış; oxun düşdüyü yerdə gərdək tikdirmişdi. Bu neçə günü hər gün at çapmış, ox atmış, çovkan oynamış; Beyrək, naibi, sağdışı və soldışı eyib içmiş; çadırda yatıb şirin yuxuya getmişdilər.

Gecənin ən qaranlıq, yuxunun ən şirin bir vaxtında Beyrək və yoldaşları yatan

çadırı xəyali məxluqlar kimi səssiz hərəkət edən otuz-qırx atlı araya aldı. Bir neçəsi atdan düşüb çadıra girdi və yatanların burnuna bihuşdari verib dördünü də yapıncılara bürüdülər, möhkəm sarıdılar və atlara yükləyib yox oldular.

## 2. QOCA CANAVAR

Sərhədd boyunda Şöklü Məlik deyilən xeyrə-şərə yaramaz, kimsəyə yovuşmaz qəribə xasiyyətli qərib bir bəy yaşayırdı. Bunun əslini-nəslini də bilən yox idi. Xeyli zaman vardı ki, başında qırx-əlli atlısı ilə haradansa gəlib buralara çıxmış; Bayındır xana yalvarıb-yaxararaq, bir parçacıq yer almış və bir qaya başında həm qalaya, həm də kilsəyə bənzər qəribə bir qəsr tikdirib orada yaşamaqda idi. Bayındır xandan icazə istərkən, demişdi ki, guya o, Rum bəylərindən birinin oğlu imiş. Vətənində əqrəbaları arasına ədavət düşüb bir-birini qırmışlar; bu da başını götürüb buralara qaçmış, ona sığınmışdır.

Şöklü Məlik üzdən özünü elə göstərirdi ki, guya dünya işlərindən büsbütün əl çəkmişdir. Yalnız ibadətlə məşğuldur. Əti, südü özlərinə yetəcək qədər mal-qaradan, qazdan, toyuqdan saxlayıb guya bununla güzəran edirdi.

Əslində isə bu, köhnə, qoca bir qurd idi. Cavanlıqda uzun müddət dənizlərdə, karvan yollarında quldurluq etmiş, ticarət gəmilərini, bazərgan karvanlarını soymuş; nəhayət hər yerdən qovula-qovula, əlində qalan var-yoxunu toplayıb sağ qalan yoldaşlarını da başına yığmış, saç-saqqal buraxıb özü də, yoldaşları da əyinlərinə uzun ətəkli, gen qollu ləbbadələr geymiş və yarımbəy, yarımruhani tövrü alıb buraya gəlmişdilər.

Bayındır xan onların üstünə gizlicə göz qoydurmuşdu. Doğrudan da bir neçə il bunlardan şübhəli heç bir hərəkət görünməmişdi. Gecəli-gündüzlü kilsəyəbənzər qəsrin zəngləri çalınar, hamı ibadət edər, öz xırdaca təsərrüfatları ilə aza qənaət edib dinc və sakit bir ömür keçirirdilər. İldən-ilə vaxtlı-vaxtında Bayındır xana bac da göndərirdilər.

Şöklü Məlik beləliklə, dünya malında gözü olmayan dinc və sakit yaşayan qərib bir bəy kimi etibar qazandıqdan sonra yavaş-yavaş əl altdan öz köhnə peşəsinə başlamışdı. Onun adamları gündüzlər alış-veriş adına ətrafdakı yollara, karvansaralara dağılıb məlumat yığır, gecələr isə, işə girişirdilər. Hər ayda, iki ayda bir, ən varlı bir bazərganın karvanı soyular, bir cavahirfüruşun evi talanar, karvansaralarda gecələyən pullu tacirlər əlli-ayaqlı yox olardılar. Qonşu və dost Gürcüstandan da Bayındır xana bu barədə şikayətlər gələrdi. Ancaq bu əsrarəngiz cinayətlər o qədər məharətlə edilərdi ki, izini-tozunu tapmaq mümkün olmazdı. Bu caniləri üz- üzə, göz-gözə kimsə görməmişdi. Onlar adi quldurlar kimi xəncər-

bıçaqla dava-dalaşa çıxmazdılar. Soyulan tacirlər, talanan xəzinə və karvansaraların keşikçiləri ə zəhərlənmiş, ya boğulmuş, ya da bihuşdarı ilə yatırıldılmış, oğurlanan şeylər isə, vəzndə yüngül, qiymətdə ağır şeylər olardı.

Sərhədd boyunda hər iki tərəfdə yaşayan yerlilər arasında yeni bir narahatlıq da başlanmışdı. Hər iki tərəfdə, hər ayda, iki ayda beş-on nəfər boylu-buxunlu, qıvraq, zirək gənc yoxa çıxırdı. Fırtınalı, boranlı zil qaranlıq gecələrdə bəzən yerlilərin gözünə kölgə kimi səssiz hərəkət edən ata minmiş nəhəng yarasalara bənzər həyulalar görünər, səhər isə, haman yerdə heç bir əsər- əlamət qalmazdı. Buna görə kəndlilər arasında bu qorxunc məxluqlar barəsində cürbəcür dəhşətli rəvayətlər, əfsanələr dolaşırdı.

«Fəqir», «qərib» rahiblərə kimsənin gümanı gəlmir; əksinə, bela əsrarəngiz cinayətlər artdıqca, onlara nəzir-niyaz gətirənlər də olurdu. Hətta bəzən bu nəzirlər qəbula keçir; yox olmuş bəzi cavanlar ya meşədə, bir ağac oyuğunda, ya xaraba bir hamam və ovdanda, ya köhnə boş bir sərdabada yatmış, bihuş halda tapılırdı. Belə hallarda onun nəzir verən əqrəbasından birinə bu barədə əvvəlcə «qeybdən» bir səs gələrdi.

Bunların hamısını edən Şöklü Məlik idi. O həm mahir və təcrübəli bir quldurbaşı, həm də başqasının əzab və iztirablarından zövq alan düşgün bir canavar idi. Onun xüsusi işgəncə üsulları var idi: ətlə dırnağın arasına iynə batırmaq, adamları başı aşağı asmaq, yağlı-duzlu yeməklər verib günlərlə susuz qoymaq, qurşağa qədər üfunətli soyuq suda günlərlə yuxusuz saxlamaq, barmaqları bircə-bircə qarıb sındırmaq, adamları üz-üzə möhkəm sarıyıb günlərlə açmamaq, qızmış dəmirlə dağlamaq və sairə və sairə...

Əzab və işgəncələrə dözüb sirr verməyən adamları bihuşdarı ilə yatırıb ayılana yaxın dindirməklə, yarım yuxulu halda, özlərinin də xəbəri olmadan, onlardan sirr alardılar. Bu gzab vg işkgnçglgrg dezmgyib ©lgnlgr gl- li-aəqlı yox olarlar; çap qalanları isə, ya uzaq ölkələrdə qul kimi satdırar, ya da «möcüzə» göstərib, nəzir-niyaz müqabilində meşələrdə, qəbristanlıqda, xarabalarda tapdırardılar. Bu tapılan adamlar harada olduqlarını, başlarına nələr gəldiyini, kimləri gördüklərini əgsla xatırlaya bilməzdilər; çünki onları, heç bir şey görüb eşitməmək üçün, daim qaranlıq zirzəmidə və yarımbihuş bir vəziyyətdə saxlardılar. Onların ara-bir görə bildikləri adamlar isə, adamdan artıq qorxunc xəyalı məxluqlara bənzər qara kölgələr, div və ifritə qiyafətli həyulalar olardı.

Şöklü Məlik əlaltılarının vasitəsilə oğurlatdırıb qəsrinə gətirtdiyi adamlara bu üsullarla ağılagəlməz işgəncələr verib həm bu qanlı işgəncələrdən bir vəhşi kimi zövq alar, həm də öz qurbanlarından lazım olan sirləri öyrənərdi. Onun adamları guya Beytulmüqəddəsə ziyarətə getmək bəhanəsilə bazərgan karvanlarına qoşulub talanmış ağır-yüngülü müxtəlif şəhərlərdə satar, eyni zamanda karvanın sirrlərini öyrənirdilər. Arada bir üstü-örtülü iri arabalarda bihuşdarı ilə yatırılmış cavan-

ları xəstə adı ilə guya sağaltmaq üçün müqəddəs yerlərə aparar, dəniz sahillərindəki şəhərlərdə qadırğaçılara satar, onlar da bu yazıqları zəncirlə gəmilərə bənd edib ömürlük kürək çəkdirərdilər.

Toy gecəsi Beyrəki və yoldaşlarını yatdıqları yerdə bihuş edib aparanlar da Şöklü Məlikin adamları idi.

Bunun səbəbi vardı. Vaxtilə Şöklü Məlik Baybecan bəyin ölümündən sonra oğlu Qoçərin bəylikdən və var-dövlətdən əl çəkdiyini, Hər şeyin Baniçiçəyə qaldığını eşidib qızı oğullura götürdüyü cavan bir quldura almaqla mal-dövlətinə yeyələnmək qəsdinə düşmüşdü. Ancaq dəli Qoçər onun elçilərini söyüb-döyüb qovmuşdu. İndi Beyrəki qaçırmaqla ikiqat xeyr etmək niyyətində idi: Həm Baniçiçək bədnam olacaq, onu daha adlı-sanlı bəylərdən istəyən olmayacaq, beləliklə bəlkə də o, gec-tez öz arzusuna çata biləcəkdi; Həm də dörd sağlam boylu-buxunlu igidi qadırğaçılara satıb xeyli pul qazanacaqdı...

## 3. QOŞA ÇADIR

Ceyrandüzü yaxınlırındakı yaşıl çəmənlikdə bir-birindən bir ox mənzili aralı iki çadır üz-üzə durmaqda idi. Yaşıl çəmənin otları-çiçəkləri beş dəfə göyərib açılmış, beş dəfə saralıb solmuşdu. Bu iki çadır beş qışı, beş baharı burada üz-üzə qarşılamışdı. Əsən küləklər, yağan qarlar, yarışlar, yaxıb yandıran yay günəşi bu çadırların ipək nəqşəli bəzəklərini soldurmuşdusa da, vüqar və qüruruna toxuna bilməmişdi.

Beyrək yox olandan sonra Baniçiçək yay-qış orada, öz çadırında yaşamağı qət etmişdi. O, Beyrəkin bəylik çadırı yanına da keşikçilər qoymuş, özü də gündə bir neçə dəfə gedib müqəddəs bir məkan kimi oranı ziyarət edərdi. Beyrəkdən sonra çadırın içinə kimsə ayaq basmamışdı. Onun və yoldaşlarının yataqları, başının üstündə asılmış yayı, sadaqı, hər şeyi yerli-yerində idi.

Qoçər əvvəlki kimi baçısını yaddan-yağıdan qoruyub Beyrəkdən və yoldaşlarından bir xəbər-ətər bilmək ümidilə hər yeri arayıb-darayır, gəlib keçən yolçulardan, uzaq səfərlərə gedib qayıdan bazərganlardan, diyar-diyar gəzən ozanlardan soraq tutardı.

İlk həftələrdə Bayındır xandan tutmuş yasavullara qədər hamı əl-ayağa düşmüşdüsə də, bir iz tapılmadığından, hamı ümidini kəsmiş, yavaş-yavaş ara soyumuş və bu hadisə də yaddan çıxmağa başlamışdı.

Yalnız iki nəfər, Baniçiçək ilə Qoçər gün keçdikcə daha böyük bir inad və inamla Beyrəkin yolunu gözləyir, onun hər an gələcəyini ümid edirdilər. Baniçiçək iki çadırdan bir an ayrılmadığı üçün, Qoçər ara-bir Beyrəkin obasına gəlir, onun ata-anası, bacıları ilə görüşür, onları da ürəkləndirirdi. Beyrəkin anası taqətdən düşmüş, atasının yol gözləməkdən gözünün nuru getmiş, bacıları qara matəmə

batmışdılar. Hər dəfə Qoçər gələndə, onun sözlərindəki inamdan onlar da fərəhlənir, üzləri gülür, qəlbləri ümidlə dolurdu.

Baniçiçəkdə çox adamın gözü vardısa da, amma onların əhvalından, inam və ümidlərindən xəbər tutub kimsə elçi göndərməyə cürət etmirdi. Bacısının qız vaxtında gələn elçiləri hədələyən Qoçər indi nişanlı, hətta demək olar ki, gəlin baçısına elçi gedənləri yəqin ki, doğrudan da öldürərdi.

Baniçiçəkdə gözü olanlardan biri də yalıncaq ləğəbi ilə məşhur, ortada eyib qıraqda gəzən ac bir bəy oğlu idi. Fərsiz olduğundan, atasından qalan var-yoxu bir dəstə yaltaq süfrə dostları ilə yeyib-içmiş, əli boşa çıxınca, hamı onu atmış, bir əl-bir təpə qalmışdı. İndi işi-peşəsi varlı, adlı-sanlı bəylərə, xanlara yaltaqlanmaq, onlara qoşulub ovlarda, bayram şənliklərində qulluq göstərmək, üzə salıb hər gün bir qapıda qarın otarmaq idi. Bayram şənliklərində hamı at minib cıdıra çıxanda, bu da hamıdan qəşəng  geyinib özü kimi uzunduraz arıq yabısını zınqrovlar, ipək qotazlarla bəzər, arada bu baş o başa çapır öz yanında guya münsiflik edərdi. Cavanlar bura öldürüb güc sınayanda, o da o yan-bu yana çapıb meydan sulardı. Bəylər ova çıxanda, o, yaralı ceyranları qovub tutar, gətirib bəylərə, xanlara təqdim edərdi. Bir sözlə, meydanda, bayram şənliklərində, ovda, qonaqlıqda hamıdan bəzək-düzəkli olub, hamıdan çox canfəşanlıq edər, dəstənin başında zərli-zınqrovlu yabısının üstündə elə bir vüqarla gələrdi ki, kənardan baxanlar onu xanlar xanı zənn edərdi. Xanlar və bəylər də onun bu təkəbbür və iddiası ilə əylənib qəsdən onu şişirdər, öz aralarında ələ salardılar. Yalıncaq özü-özlüyündə ya bunları anlamaz, ya da özünü anlamazlığa qoyardı. özü yaltaqların yaltağı olduğu halda, həmişə özünü tox tutar, loğa-loğa izzəti-nəfsdən, şərəfdən danışar, qorxaqların qorxağı olduğu halda, cürət və mərdlikdən dəm vurardı. Başqalarından görüb-eşitdiyi əhvalatı öz adına uydurub elə ürəklə danışardı ki, nəinki sadədil adamlar, hətta özü də yavaş-yavaş onun doğruluğuna inanmağa başlardı...

Haman bu Yalıncaq bəy də Baniçiçəyi almaq xülyasına düşmüşdü. Ancaq əvvəllər Qoçərin qorxusundan bu xülyanı röyada da görə bilməzdi. Sonra Beyrəkin Baniçiçəyə nişanlandığını eşidib onu təbrik etdi. Qız ona qismət olmasa da, xələtdən-peşkəşdən ki, qismət olardı. Baniçiçəyin Beyrək üçün öz əli ilə tikib göndərdiyi gül-çiçək nəqşlərilə bəzədiyi ipək köynəkləri o qədər tərifləmişdi ki, ürəyi, kimi əli də açıq olan Beyrək onlardan birini ona bağışlamış, başqa peşkəşlər də vermişdi.

Beyrəkin toy gecəsi yox ,olması hamını təşvişə salıb kədərləndirdiyi zamanlarda, Yalıncaq bəy gizlindən-kizlinə sevindi. Keçmiş xülyaları dirçəlməyə başladı. Kim bilir, bəlkə bəxtiyar oldu... Köhnə məsəldir: biri ölməsə, biri dirilməz...

Ancaq yox... Baniçiçək indi əvvəlkindən də əlçatmaz, Qoçər əvvəlkindən də yovuşmaz olmuşdu.

Daha sonralar, Beyrəkin yox olmasının beşinci ili baş verən bir hadisə Yalıncaq bəyi bir az ürəkləndirdi.

Payızın əvvəli, aydınlıq mehtablı gecələrdən biri idi. Göy üzündə daranıb didilmiş pambıq qalaqları kimi ağ-appaq bulut dalğaları arasında ay gümüş bir qayıq kimi ağır-ağır üzürdü. O, dalğaların ardında qalanda, yer üzünə xəfif bir qaranlıq çökür, sonra yenə hər tərəf əvvəlkindən daha parlaq görünən göyümtül sarı bir nur ələnirdi.

Banıçiçək çadırında uzanıb çadırın təpəsindəki dəyirmi pəncərədən gözünü gümüş aya zilləmiş, dərin düşüncəyə dalmışdı: «Kim bilir, bəlkə o da indi gözlərini haman bu aya zilləyib baxır!..»—deyə düşündükcə, sanki ayın içində, güzgüdə olduğu kimi, Beyrəkin ona baxan mehriban, həzin-həzin gülümsəyən gözlərini görür, özü də eynən onun kimi həzin həsrətli bir təbəssümlə gülümsəyirdi.

Qoçər, adəti üzrə, belində qılıncı, bu çadırdan o çadıra ağır-ağır gedib gəlir, hərdən dayanıb ətrafı uzun-uzun seyr edir, dinləyirdi.

Birdən ona elə gəldi ki, Beyrəkin çadırının ardında bir qaraltı göründü. Qoçər haman saat yerə uzanıb diqqətlə baxdı. Bəli, çadırdan xeyli aralı, qara at belind yekə, başı qanadlı, bədəni nəhəng bir yarasaya bənzər qorxunc bir kölgə durmuşdu. At birdən şaha qalxdı. Yarasa qanadlarını açdı. Sanki atın belindən qalxıb havada bir-iki dəfə qanad çaldı. Yenə atın belinə qondu. Qoçər yerindən sıçrayıb qılıncını çəkdi və ora yügürdü. Kölgə bir anda qaranlıqda ərimiş kimi yox oldu.

Qoçər çadıra çatıb orada duran iki keşikçini daş heykəl kimi donub qalmış gördü. Onları səsləyəndə, hər ikisi yuxudan ayılmış kimi diksindilər və dilləri dolaşa-dolaşa onlar da o qorxunc məxluqu gördüklərini təsdiq etdilər.

Bu birinci dəfə deyildi. Axır zamanlar burada duran başqa keşikçilər də haman əcayib məxluqu görmüş, Qoçərə xəbər vermişdilərsə də, Qoçər nə o zaman, nə də ertəsi gün haman yerləri diqqətlə yoxlayanda, heç bir izə rast gəlmədiyindən: «Ya mürgüləyib yuxu görübsünüz, ya da sizi qorxudan qara basıb!»—deyə keşikçiləri danlamışdı. İndi isə artıq özü, həm də açıq-aydın görmüşdü. Qoçər yüyürüb tayanın dalında yəhərli, hazır duran boz ayqıra atıldı və kölgənin getdiyi səmtə çapdı. Bir xeyli yol getmişdisə də, heç bir şey görə bilməmişdi. Atın başını çəkib geri dönmək istəyirdi ki, birdən bulutdan çıxan ayın işığında bir çağırım irəlidə haman kölgəni gördü və boz ayqırın sarğısına bir şapalaq vurub dabanlarını atın böyürlərinə basdı. Boz at qopdu, nə qopdu...

Bu ayqır Beyrəkin ceyranbasan boz atı idi.

İrəlidəki qara kölgə qarşıdakı meşəyə yetişib bir an durdu, atını şaha qaldırıb hərlədi və Qoçəri dəvət edirmiş kimi, paltarının yarasa qanadına bənzər gen ətəklərini yelləyib dar cığırla meşəyə girdi. Qoçər onu təkrar gözdən qaçırmamaq üçün atın cilovunu çəkmədən haman çığırla çapdı. Birdən boz atın ayaqları nəyə isə ilişib oxla vurulmuş kimi yerə sərildi. Qoçər də onun başından aşıb daş kimi

düşdüyü yerdə qaldı.

Müxənnətlər cığırın iki tərəfindəki ağacların kötüyünə möhkəm kəndir bağlayıb tələ qurmuş, atı yıxmışdılar.

Qoçər gözlərini açanda, özünü yarı qaranlıq, alçaq tağlı, rütubətli, kif qoxuyan bir zirzəmidə gördü. Küncdə yanan qəndilin zəif titrək işığında zirzəmi hərəkət edən kölgələrlə dolu görünürdü. Qoçər tərpənmək, qalxmaq istədi. Başından, qollarından dözülməz bir ağrı qopdu. Gözlərini yumdu. Yanında anlamadığı bir dildə pıçıltılı danışıq səsi eşitdi. Bir də gözlərini açanda, başı üzərində əyilmiş üç qaraltı—üç kölgə gördü. Qara ridaya burunmuş, başlarında ucu şiş qara qalpaq, üzlərində yalnız göz yerləri dəlikli qara niqab olan qorxunc xəyali məxluqlara bənzər bu adamlar öz aralarında nə isə danışırdılar. Qoçər bir də çırpındı. Başında, çiyinlərində duyduğu. Kəskin ağrının şiddətindən zarımamaq üçün dişlərini bir-birinə sıxdı. Qurğuşun kimi ağırlaşmış göz qapaqları yumuldu. Bir qədər sonra kəskin, qıcıqlayıcı bir qoxudan ayılıb yenə gözlərini açdı,

Burnuna tutduqları dərman gözlərini də acıtmışdı. Qeyri-ixtiyari bir hərəkətlə burnunu, gözlərini ovuşdurmaq üçün əlini qaldırmaq istəyəndə, uyuşmuş qollarında duyduğu şiddətli ağrıdan başa düşdü ki, onun qollarını da, ayaqlarını da üstündə uzandığı soyuq daş taxta möhkəm sarımışlar.

Bura hara idi, bunlar kimdi, onu buraya nəyə gətirmişlər, ondan nə istəyirdilər?

Başına yığışmış üç qara kölgədən biri nəhayət dilə gəlib quyudan çıxan tutqun bir səslə ona müraciət etdi:

— Oğlan, dünyadan bezməyibsənsə, xəzinənin yerini de!

Qoçər bu sözlərin mənasını anlaya bilmədi. Bəlkə onu qara basır, bəlkə bu qorxunc bir röyadır... Alt-üst olmuş yaddaşını axtarmağa başladı. Uzaq bir xatirə kimi at üstündə qara bir həyulanı qovaladığı yadına düşdü, bəs sonra.,.sonra heç bir şey xatırlamırdı.

Qoçərin cavab vermədiyini və gözlərinin məchul bir nöqtəyə dikilib açıla qaldığını görən kölgə onun hələ yaxşı ayılmadığını zənn edib tünd qoxulu dərmanı bir də burnuna tutanda, Qoçər qeyri-ixtiyari üz-gözünü yığışdırıb üzünü kəskin bir hərəkətlə yana çevirdi. Kölgə bir də dilləndi:

— Tərs olma, oğlan, söylə, xəzinə haradadır?

— Nə xəzinə?

— Atandan qalan xəzinə!

— Atam atana xəzinəmi borclu idi, ərasa!?

Kelkglgrdgn bir başqası amirang bir əda ilə əvvəlkinə nə isə dedi: o yəqin Qoçərin cavabını tərcümə etdikdən sonra yenə dilləndi.

— Bura hazırcavablıq yeri deyil, oğlan, sualıma cavab ver: xəzinə hardadır?

— Yerində!

Belə sual-cavabdan bir şey çıxmayacağını görən canilər istədiklərini işgəncələr üsulu ilə əldə etmək ümidilə çıxıb getdilər.

Baniçiçəyin yeganə ümid və dayağı olan Qoçərin də belə əsrarəngiz bir surətdə yox olduğu xəbəri yayılanda, kimi samimi bir ürəklə, Baniçiçəyə kömək məqsədilə əlayağa düşdü, kimi bundan, bu uğursuz qızın taleyindən qorxuya düşdü, kimi də bikəs qalmış bu qızın xəzinəsinə yiyələnmək xülyasına düşdü.

Başda Qazan xan olmaqla, bəylər, adlı-sanlı igidlər axışıb gəldilər. Bu iki tənha çadırın ətrafında çadırlar quruldu. Beyrək itəndə olduğu kimi, hər tərəfi ara-yıb daradılarsa da, heç bir əsər-əlamət tapılmadı. Bu hadisənin yeganə şahidi olan boz at qan tər içində axsaya- axsaya ertəsi gün Baniçiçəyin çadırına qayıtmışdı.

Bir müddət sonra Qazan xan Baniçiçəyə təsəlli verib bəyəndiyi bəylərdən birinə ərə getməyi və bu uğursuz yerdən keçməyi məsləhət görmüşdüsə də, Baniçiçək Beyrəkdən və qardaşından qəti bir xəbər bilməyincə, oradan tərpənməyəcəyini bildirmişdi.

Gələnlər yavaş-yavaş dağılışıb getdilər. Ancaq Baniçiçəyi bu tənha, qorxulu çöldə tək qoymaq istəməyən xeyirxah adamlardan bir çoxu burada qaldılar və bu qoşa çadırın ətrafında kiçik bir oba əmələ gəldi.

Burada çadır qurub qalanlardan biri də Yalıncaq bəy idi. O, adəti üzrə haməhan çox canfəşanlıq edir, ora-bura at başı salıb gündə bir yalan xəbərlə gəlirdi. Nəhayət, bir gün ən vəfalı bir dost kimi, fədakarlıq göstərən bir adam ədası ilə Baniçiçəyə xəbər göndərmişdi ki, Beyrəkdən qəti bir xəbər bilmək üçün uzaq səfərə çıxmağı qət etmişdir. O, Qazan xanın yanına gəlib ondan icazə ilə bərabər bir miqdar yol məxarici də alıb getdi...

Aradan bir on-on beş gün keçdikdən sonra Yalıncaq bəy Qazan xanın qəsrinə qayıtdı. Onun üst-başı toz torpap içində, özü, həmişə sırtıq bir halda gülümsəyən üzünə heç yaraşmayan bir surətdə qaş-qabaqlı və kədərli idi. Qazan xan onu belə görüb həyəcanla soruşdu:

— Nə xəbərlə gəlmisən, oğul?

Yalıncaq günlərlə düşünüb taxındığı təəssüflü və yanıqlı bir tövrlə ağlamsına-ağlamsına cavab verdi:

— Xan sağ olsun, kaş getməyəydim! Kaş bu qara xəbəri gətirən mən olmayaydım!.. Beyrəki çoxdan öldürüblər...

Xan beş ildən bəri heç bir izi-sorağı olmayan Beyrəkin öldüyünə onsuz da inanmış olduğu halda, Baniçiçəyin ona inanmayacağını bildiyindən, həm də özü bu xəbəri yəqin etmək qəsdilə soruşdu:

—Buna bir sübutun, dəlilin varmı, oğul?

Yalıncaq ax-ufla heybəsini açıb oradan üstündə qan ləkələri qurumuş nəqşəli-cizgili bir ipək köynək çıxardı.

— Budur,— deyə içini çəkə-çəkə izahat verməyə başladı,—budur, qardaşdan

çox sevdiyim dostum Beyrəkin qanlı köynəyi... Hər yeri qarış-qarış gəzdim. Nə əzablar çəkdim, bu da sonu... Ax, qardaşım Beyrək!.. Gözlərim kor olaydı, bu günü görməyəydim!..—deyə o əlinin dalı ilə guya gözlərinin yaşını silib qəzəbli bir səslə davam etdi.—Bunu mənə göstərən çobanı bütün obası ilə qırmaq istədim. Yalvarıb ayaqlarıma düşdü. Bir də fikirləşdim ki, o yazığın nə günahı var. Axı Beyrəki burdan oğurlayıb aparmışdılar... Çoban mənə danışdı ki, onun meyitini beş il bundan əvvəl meşənin içində bir talada tapıbmış. gətirib qayda ilə basdırıblar. Köynəyi də saxlayırmış ki, bəlkə dalınca gələn və köynəkdən onu tanıyan ola... Var-yoxumu o çobana verib köynəyi aldım...

Qazan xan Yalıncağın bu dəlilinə inanmaə bilməzdi. Ancaq yenə yoxlamaq istədi; soruşdu:

— Orul, o çoban Ğardaydı?

— Uzaqlarda, çox uzaqlarda... Dərbənddən də o tərəfə. Köçəri bir çobandı. İndi kim bilir haralara köçüb...

Bu sözlərlə Yalıncaq Qazan xanı haman yerə adam göndərib dediklərini yoxlamaq fikrindən daşındırmaq istəyirdi. Sonra sözü əsl mətləb üstə çəkib dedi

— Ağam Qazan, bu xəbəri mən Baniçiçəyə yetirə bilmərəm... Yazıq, bədbəxt qız... Nə uğursuz taley varmış... Nişanlısı belə, qardaşı elə... İndi onun halı nə olacaq? Uğursuz deyə kimsə yaxın durmaz... Ancaq mən...—deyə Yalıncaq yanıqlı kimi bir ah çəkdi.—Mən...Beyrəkin xatırına, dostum Qoçərin xatırına, hər şeyə razıyam, özümü o bədbəxt qızın yolunda qurban etməyə hazıram...Hətta öz cavan bəxtimi onun uğursuz taley ilə bağlamağa da...

Qazan xan Yalıncağın ürəyindən keçənləri bilirdi. O zahirən minnət qoysa da, nə inki tək onun, hətta ən adlı-sanlı bəyzadə və xanzadələrin də Baniçiçək kimi mərd, vəfalı və gözəl bir qızla evlənməyə minnəti vardı. Ancaq Qazan xan bunun üstünü vurmayıb Yalıncağı:

— Yoldan gəlmişsən, get dincəl!—deyə yola saldı.

Qazan xan qanlı köynəyi arvadı Burlaxatun və bir neçə təcrübəli, dilli-ağızlı arvadla Baniçiçəyə göndərdi və tapşırdı ki, onun könlünü alıb təklikdən, qəm-qüssə içində yaşamaqdan əl çəkdirib ərə getməyə razı etsinlər.

Baniçiçək öz əli ilə tikib nəqşə çəkdiyi qanlı köynəyi tanıdı, bağrına basdı. Lakin Burlaxatuna bildirdi ki, kimsəyə ərə getməyəcək. Bu gündən Beyrəkin çadırına köçüb ömrünün axırına qədər onun adı ilə yaşayacaqdır...

Baniçiçəyin ərə getmək təklifini qəti surətdə rədd etməsinə baxmayaraq, Yalıncaq bəy oradan köçmür, hər vasitə ilə ona yaranmağa çalışır, Qazan xan da ona ümid verir di ki, qız gec-tez razı olacaqdır. Buna görə də Baniçiçəyin xəbəri olmadan, söz yayılmışdı ki, guya o, Yalıncağa ərə gedir.

# 4. GƏMİDƏ

Külək yatmışdısa da, dəniz hələ dalğalı idi. Gəmiçilər arasında «ölü dəniz» adlanan bu küləksiz dalğalı dəniz qorxulu idi. Külək əsəndə, dalğaları çox ucalmağa qoymayıb yayır və yelkənlərə dolub gəmini irəli basdıqca onun müqavimətini artırır. İndi isə, başları açılmayan dalğalar gəminin hər tərəfindən dağ kimi ucalır, gəmi ləngər vurduqca, yelkənlər qırıq quş qanadı kimi cansız bir hərəkətlə yırğalanırdı. Ümid yalnız kürəklərə qalmışdı. Gəminin hər iki tərəfindən qırxayağın ayaqları kimi suya uzanan kürəklər müəyyən müntəzəm fasilələrlə enib qalxır, bəzən gəminin altından qaçan suya çatmır, bəzən də az qala dəstəyə qədər suya girirdi.

Göyərtədə, payız axşamının dəniz ayazından sərnişinlər titrəyir, aşağıda kürəkçəkənlər isə, qan-tər içində idilər. Yayın qızmarında, qışın şaxtasında, həmişə çıl-çılpaq kürək çəkib qan-tər içində olan bu bədbəxtlər ömürlük bu əzaba məhkum idilər. Onları qoşa-qoşa dal-dala oturtmuş, ayaqlarından möhkəm zəncirlə gəmiyə band etmişdilər. Yemək-içməkləri, yatmaqları, hər şeyləri burada, bu rütubətli, qətran qoxulu bir parça taxta üzərində idi. Üsütnü göyərtə örtmüş bu yerə gün düşməzdi. Kürək dəliklərindən gələn tutqun işıqda onlar hamısı bozumtul qara kölgələr kimi görünürdülər. Arada gəzən əli qırmaclı nəzarətçilər «tənbəllik» edənləri döyəclər, bu əzaba dözməyib ölənləri isə, dənizə atardılar.

Bu bdbəxtlərin içində ağalarına usyan edib məhkəmələr tərəfindən kürək cəzasına məhkum olunmuş «canilər», dünyanın qul bazarlarında satın alınmış zənci qullar və dəniz quldurları—qursanlar tərəfindən soyulan gəmilərdə tutulan və ya bizim tanıdığımız Şöklü Məlikin adamları kimi fırıldaqçılar tərəfindən saxta sənədlərlə məhkum cani adı ilə satılan cavanlar da var idi.

Dünyanın ən müxtəlif xalqlarından olan bu kürəkçilər uzun illər boyu yan-yana oturmağa məhkum olduqlarından, hamı bir-birinin dilini az-çox öyrənmiş, bir-birini doğma qardaş kimi tanıyır və sevirdilər.

İndi beş ildi ki, Beyrək və yoldaşları bu gəmidə kürəkçi idilər. Onları bir-birindən uzaq guşələrdə zəncirlə bənd etmişdilər. Hər nə qədər bu ömürlük əzablı zindandan qurtarmaq üçün gəminin bir qayaya çarpıb parçalanmasından başqa bir ehtimal yoxdusa da, onlar hamı yenə xilas olmaq ümidilə yaşayırdı.

Ümid!.. Bu böyük xilaskar qüvvət olmasa, insan dözülməz məşəqqətlərə dözə bilərmi?! İnsan ki, dünyada yaranmışların ən mükəmməlidir, ümid və inamı, ağıl və iradəsi sayəsində ən çətin, ən çıxılmaz vəziyyətlərdən çıxmağa qadirdir. Üstünü qalın buz dağları basmış yerin mərkəzindəki o sönməz əbədi atəş neçə hər dəqiqə bir yol tapıb vulkan halında fışqırar və buzları əridib suya, buxara döndərə bilərsə, insan qəlbindəki azadlıq ümidi də bir gün fürsət tapınca, əsarət zəncirini azadlıq

qılıncına çevirib zülm və təzyiqi məhv edər. Məhkum insanları yaşadan da bu böyük ümiddir...

Beyrək və yoldaşları da bu ümidlə yaşayır, hər gün, hər dəqiqə, hər an belə bir fürsət düşəcəyini gözləyir və buna qovuşmaq üçün bacardıqlarını edirdilər. Su illər uzunu dama-dama qalın qart daşı necə dələrsə, onlardan hər biri zəncirlərini, onların bənd olduğu möhkəm palıd ağaclarını dişlərilə, dırnaqları ilə didirdilər. Onların hər biri bütün gün davam edən əzab və məşəqqətdən sonra tər və üfunət qoxuyan sərt taxtaların üstünə uzanıb yatdıqda, və gözəl vətənlərini, munis və mehriban ana və bacılarını, oğul və uşaqlarını röyada görür, oyanıb sərt həqiqətlə üz-üzə gəldikdə, nifrət və qəzəbləri daha da artır, xilas olmaq üçün əzm və iradələri daha da qüvvətlənirdi.

Kürəkçilər bu ağır əzabdan, bu ömürlük zindandan, ölümdən də min qat ağır olan bu ağır əsarətdən qurtarmaq üçün yeganə bir çarə tapmışdılar. Bu kiçik bir yegə idi. Gəmi əmələlərindən biri tərəfindən gizlincə kürəkçilərə verilən bu yegə Beyrəkə qismət olmuş və aralarında qoyduqları qərara görə Beyrək bu vasitə ilə qurtardıqdan sonra bir təhər yoldaşlarını da xilas etməli idi.

Beyrək gəminin ən səs-küylü zamanlarında kürək çəkərkən, ayağındakı zəncirin bir halqasını gündə bir az sürtüb kəsirdi. Bu zamanlarda hamı göz-qulaq olub bir təhlükə duyduqda, gizli işarə ilə onu xəbərdar edirdilər. İl uzunu davam edən bu təhlükəli zəhmət sayəsində (çünki gəmi nəzarətçiləri belə adamları haman saat öldürüb dənizə atırdılar), halqanı yarıdan artıq kəsmişdi.

Gəmi sahilə çatmış, düşənlər düşmüş, minənlər minmişdi. Gecə çökmüş, hamı yuxuya getmişdi. Birdən Beyrəkin başı üstündəki göyərtədən qopan bir tappıltı onu oyatdı. Beyrək yatmaq istəyirdi ki, birdən göyərtənin dəliyindən öz ana dilində danışıq səsləri eşitdi.

— Gördünmü!—deyə yoğun gur səsli birisi qəhqəhə çəkdi,—di ver axçamı, mərci uduzdun!.. Buna Rum gürzü deyərlər. Uruz bəy kimi bir pəhlivanın əlində belə bir sərpuş nədir, bir qalanı da uçurdar...

— Vah, vah!..—deyə daha yoğun və küpdən çıxan kimi boğuq bir səs buna cavab verdi.—Neylədin, a qardaş!.. Onu mən Yalıncaq bəyə toy ərmağanı almışdım...

O birisi daha uzun qəhqəhələrlə gülüb dedi:

— Kaş ki, indi başında olaydı!

Boğuq səs ciddi bir əda ilə cavab verdi:

—Elə demə, qardaş, indi Yalıncaq bəy böyük adam olub Baniçiçəklə evlənir. Baybecan bəyin yerinə bizə bəy olacaq...

Bu sözləri eşidəndə, Beyrəkin sinəsindən qeyri-ixtiyari bir fəryad qopdu. Bu səsə özü də diksindi və özünü yuxululuğa vurdu ki, nəzarətçilər bir şey duymasınlar.

Beyrəkin başı üzərindəki gəmi hücrəsində danışanlar iki bazərgan idi. Bunlardan biri—gürz gətirən, uzaq ölkələrdən gəlirdi. O biri—sərpuş alan isə, bu limanda minmişdi. Hər ikisi Beyrəkin vətəninə gedirdilər. Onlar yeyib içmiş, keflənmiş, aralarında mərc çəkmişdilər. Gürz bir zərbədə sərpuşu əzib parçalamışdı. Qazan xanın oğlu Uruz bəy gürzü pay aparan bazərgan Yalıncağın böyüyüb bəy olacağını eşidəndə, bir az əvvəl gürzü vuranda, sərpuşun onun başında olmasını arzuladığı halda, indi rəyini dəyişməli olub müsahibinə dedi:

— Eh, a qardaş, bəy dediyin nədir, bəyənmədiyin nədir?.. Bu yaxın şəhərdə mən də gərək ona bir ərmağan alam. Başımızın böyüyü olacaq... Bəs belə, el gözəli Baniçiçək axır Yalıncağa qismət oldu!

— Qəbrin çatlasın Beyrək!—deyə o biri bazərgan onun sözünü tamamladı.

— Yazıq Beyrəkin qəbri varmı çatlaya?

— Var... var... Yalıncaq gedib Dərbənddən o taya çıxmış, onun ölüm xəbərini, qanlı köynəyini gətirmiş... Baniçiçək öz tikdiyi köynəyi tanımış...

— Belə de... yoxsa Baniçiçək...

Bu sözlərdən sonra bazərganlar artıq söhbəti dəyişdilər.

Beyrəkin bağrı çatlayırdı. Vəfalı Baniçiçəyin, ata-anasının, bacılarının xain Yalıncaq tərəfindən belə vicdansızca aldadılması onu hər şeydən artıq yandırırdı. Bu ağır iztirablı illərdə onun özü kimi onlar da yəqin hər gün ümidlə yaşayır, onun yolunu gözləyirdilər.

O xain bu alçaq yalanı ilə onların son ümidlərini də qırmışdı.

Ax Baniçiçək... Sən bu yalana necə aldandın?!

Qanlı köynək!

Ax, rəzil, alçaq Yalıncaq!..,

Beyrək var gücü ilə bağırmaq, bazərganlara eşitdirmək istəyirdi ki:

«Yox yalandır, mən ölməmişəm, sağam!..»

O, yerində qımıldandı və ayağına vurulmuş ağır paslı zəncirin qıcırtısı sanki onu ehtiyatlı olmağa çağırdı. Yox, o bağırmamalı, bir-iki gün də dözməli, ayağındakı zənciri qoparıb bu səyyər zindandan qaçmalı, Yalıncağın toyunu yasa çevirməli və yoldaşlarını xilas etməli idi... Bu vəzifə duyğusu onun şəxsi hisslərinə qalib gəlib onu ehtiyatlı olmağa məcbur edirdi.

Səhərə yaxın şiddətli bir külək əsməyə başladı. Ləpələr bargahda duran gəmini yırğalayırdı. hava işıqlananda, gəmi hərəkət etdi. O, sahil boyunca irəliləyirdi.

Beyrək yanındakı yoldaşına işarə etdi. O, kürəyə daha möhkəm sarıldı. Beyrək isə, hamı ilə bərabər, kürəklərin hərəkətinə uyğun olaraq əyilib düzəlirdisə də, hər iki əli ilə zənciri kəsməklə məşğul idi. Nəhayət o var gücünü toplayıb halqanı qardı, halqa azacıq aralandı: Beyrək sevincindən gözləri parıldaya-parıldaya yoldaşını köməyə çağırdı. O da kürəyi buraxıb ikisi birdən güc elədi.

Zəncir qopdu. Bu anda hərəkətsiz qalan bir kürəyin başqalarına da mane olduğunu görən nəzarətçi onların üstünə yüyürüb qamçını qaldıranda, Beyrək qaplan kimi onun üzərinə atıldı. Belindəki xəncəri qoparıb qəbzəsilə onun gicgahına bir zərbə vurdu. Xəncəri siyirdi və göyərtəyə çıxan qapıya sarı yüyürdü. Onu, əlində siyirmə xəncər görən o biri nəzarətçilər ozlgrini itirib^kurgk- çilgrin aəqları altına kirdilgr. Beyrgk koygrtgyg çı- xanda yoldaşlarına: |

— Sağ olun, qardaşlar, yaxında görüşərik!—deyə bağırdı və yüyürüb özünü köpüklənən dalğaların qoynuna atdı.

Yelkənlər şiddətli küləkdən qabarmış və kürəkçilər qəsdən kürəkləri elə qüvvətlə çəkirdilər ki, Beyrək dalğaların köpükləri içində bir anda gözdən itib yox oldu...

## 5. DƏLİ OZAN

Beyrək obalarına yaxınlaşanda, yolda qoca bir ozana rast gəldi.

— Ozan baba, hara belə?—deyə soruşdu.

— Toya gedirəm oğul, Yalıncaq bəyin toyuna...

— Baba toyda nə qazanacaqsan? Gəl bu atı sinə verim, qobuzunu mənə ver!..

Qoca ozan altdan-altdan bir ata, bir Beyrəkə baxdı. Beyrəki saç-saqqal basmış, gün görmədiyindən, rəngi saralmışdı. Altındakı at pis deyildi. Ozan bir az şübhələndi.

Beyrək:

— Qorxma, baba,—dedi,—gümüş qınlı polad bir xəncər verib almışam, öz malımdır. Peşman olsan, Baybura bəy evinə gələrsən, qobuzunu qaytararam...

Qoca ozan düşündü ki: «Səsim batıb nəfəsim kəsilmədən, bir atdır əlimə keçib, qoy alım». Qobuzu verib atı mindi, geri qayıtdı.

Beyrək qobuzu çiyninə salıb yola düzəldi. Öz obalarına gəldi.

Beş ildir görmədiyi evlərini, evin önündə atası ilə birgə öz əli ilə əkdiyi yaşıl söyüdü saralıb solmuş görəndə, ürəyi döyündü, dizləri əsdi. Söyüdün dibindən axan bulaq başında durub ağaca söykəndi. Gördü ki, kiçik bacısı əlində səhəng, suya gəlir. Xeyli böyümüş, boy atmış, ancaq rəngi solğun, qaş-qabaqlı, yaşına yaraşmaz qara geyimli və çox pərişandır. Yüyürüb onu qucaqlamaq, bağrına basmaqdan özünü zorla saxladı. Həm öz dərdini gizlətmək, həm onun könlünü açmaq üçün qobuzu əlinə alıb çalmağa başladı:

A xanım qız, bir içim su versənə!

A xanım qız, nə dərd üz verib sənə?

Bacısı qəmdən kölgələnmiş iri ala gözlərilə yalvarıcı bir əda ilə ona baxıb dedi:

— Çalma, ozan, çalma... Bizə çalmaq, çağırmaq nə yaraşır... Söylətmə məni,

dərdim böyükdür...

Çalğı səsinə Beyrəkin böyük bacıları da evdən çıxıb gəldilər. Beş ildir qulaqları səsdə, gözləri yolda olan bacılar hər gələndən, hər keçəndən xəbər sormağa, soraq almağa adət etmişdilər. Son qara xəbər onlara çatmışdısa da, yenə ümidlərini üzməmişdilər. Yerli ozanlar bu qapıda qobuz çalmaz, oxumazdılar. Bu ozan kim isə qəribdi. Uzaqlardan gəlmişdi. Bəlkə onda bir xəbər ola...

Beyrək bacılarını belə qəmgin, məyus görəndə, ürəyi göynədi, dili-dodağı titrəyə-titrəyə, səsi əsə-əsə, onlara müraciət etdi.

— Xanım qızlar, keçmiş ola, sizə nə dərd üz verib?

Ortancıl qız həzin-həzin belə cavab verdi:

— Atamız yol gözləməkdən gözdən oldu, anamız qəmdən qüssədən yatağa düşdü, aslan kimi bircə qardaşımız beş ildir yox olub...

Böyük bacı hər yolçudan, hər qərib adamdan sorduğu kimi Beyrəkdən də sordu:

— Ozan qardaş, çox yaşayan çox bilməz, çox gəzən çox bilər deyərlər. Sən də ellər-obalar gəzmişsən. Şəhərlərdən, kəndlərdən keçmişsən... Söylə görək, Beyrək adlı, boylu-buxunlu, qara qıvırcıq saçlı, qonur şəhla gözlü, aslan biləkli bir igid görmədinmi? Bir yerdə gördüklərini, bildiklərini eşitmədinmi?

Beyrəkin ürəyi köyrəldi. Sanki hulqumunda düyünlənib qalan bir şey onu boğurdu. Əyilib sənəyi götürdü, bir-iki udum su içdi. Sonra söhbəti dəyişmək üçün dedi:

— Xanım qızlar, ürəyimə damdı. Üç gün keçməz qardaşınızdan şad xəbər alarsınız... Üç gündür yol gəlirəm, açam, mənə bir az qatıqdan, əppəkdən, verərsinizmi?

Beyrək bu sözləri elə inamla dedi ki, qızların üzü güldü. Onu evə apardılar, yedirib doydurdular. Beyrək durub getmək istəyəndə, divardan asılmış öz qaftanını gördü. Üst-başına baxıb böyük qıza dedi:

— Xanım qız, toya gedirəm. Üstüm-başım köhnədir. O, qaftanı verin geyim, qayıdanda gətirərəm.

Qız qardaşından qalan hər şeyi müqəddəs bir şey kimi qoruyurdu. Ancaq bu xoşxəbər ozanın könlünü qırmaq istəməyib qaftanı ona verdi. Özü otaqdan çıxdı.

Beyrək qaftanı əyninə geyib çıxanda, onu görən böyük bacısı Beyrəkə bənzədib elə ürək dələn bir səslə hönkürdü ki, Beyrəkin gözləri ixtiyarsız yaşardı. Arxasına baxmadan, yoluna davam etdi. Ancaq bildi ki, bu paltarda bəylər də onu tanıyaçaqlar. Dost-düşmənini ayırd etmək üçün, özünü hələ tanıtmamaq məqsədilə, həyətdən bir dəvə çuvalı götürüb qoltuğuna vurdu. Bir az sonra özünü ağaclığa verib çuvalı dəldi, başına keçirdi, özünü dəliliyə qoyub toy yerinə getdi.

Ceyrandüzünə yaxın çəməndə Baniçiçəyin və Beyrəkin çadırları ətrafında al-əlvan ipəkli-bəzəkli çadırlar qurulmuşdu. Çəmənlikdən başlanıb getdikcə artan və

Qalın meşə ilə birləşən kolluqlar və xırda ağaclar payızın əvvəllərinə məxsus ala-bula rənglərg boyanmışdı.

Çadırlardan bir az aralı sarıya çalan yaşıl otlar və sarı, göy, al çiçəklərlə döşənmiş açıqlıqda meydan qurulmuş, ortada taxt üstündə Qazan xan oturmuş, ətrafına adlı-sanlı bəylər, igidlər, pəhlivanlar düzülmüş, camaat böyük bir yarımdairə halında arxada durmuşdu.

Beyrək, əynində yırtıq çuval, çiynində qobuz, gəlib yetişəndə, bəylər, igidlər Yalıncağın üzüyünü uzun bir ağacın haçası arasına asıb oxla nişan atırdılar. Beyrək dinməzcə gəlib bəylərə yaxın bir yerdə durdu. Tanıdığı adlı-sanlı yaxşı igidlər, ox atanda:

— Hey, əlin var olsun!—deyə çığırıb əlini-əling vururdu. Yalıncağın oxu nişana yaxın belə keçməyəndə:

— Əlin qurusun, barmaqların çürüsün!—deyə qəhqəhə ilə gülürdü.

Beyrəkin səsi, atılan oxlara çığırtılarla öz münasibətini bildirən camaatın səsinə qarışıb bəylərə çatmır, yalnız yaxında olan adamlar dönüb heyrətlə ona baxırdılar. O, yavaş-yavaş bəylərə tamamilə yaxınlaşıb ön cərgəyə keçdi. Yalıncaq bir də atanda, ox heç ağacın başına çatmayıb aşağıdan keçdi və bir az o yanda yerə düşəndə, camaat gülüşdü. Beyrək əlini bir-birinə çırpıb qəsdən dəlicə bir qəhqəhə çəkdi və:

— Əlin qurusun, barmaqların çürüsün, belə ox atan!— deyə elə bərkdən çığırdı ki, hamı ilə birgə Qazan xan da dönüb ona baxdı. Beyrək heç kəsi tanımır və saymırmış kimi, bir də əllərini bir-birinə çırpıb qəhqəhə çəkdi. Onun belə gülüşü hamını bir də güldürdü. Pərt olmuş Yalıncaq kəskin bir hərəkətlə ona sarı getdisə də, bəylərdən və xüsusən Qazan xandan çəkindiyindən, Beyrəki vurub seymək əvəzinə yayını ona uzatdı:

— Nə gülürsən, a dəli ozan!—dedi.—Bu qobuz çalmaq deyil, ox atmaqdır, bacarırsan, gəl sən at, sonra gül!..

Beyrək ox atanlar cərgəsinə gəldi, yayı aldı və oxu qoymadan, sınayırmış kimi, girişi çəkəndə, yay ortadan iki parça oldu.

— Belə yay uşaqlara turağay atmağa yaxşıdır!—deyə istehza ilə gülüb yayın parçalarını yerə atdı. Ona bir neçə yay verdilər. hamısı sınaqdan keçirəndə qırıldı.

Qazan xanın taxtına üstünü toz basmış qalınca bir yay söykənib dururdu. Bu Beyrəkin yayı idi. Öz baş tutmayan toy gecəsindən bəri çadırında asılıb qalmış, Baniçiçək kimsəni ona toxunmağa qoymamışdı. İndi Yalıncaq fürsətdən istifadə edib onu gətirmiş, ancaq bəylər güclərini sınayıb kimsə çəkə bilmədiyindən, ora qoymuşdular.

Yalıncaq dəli ozanı pərt etmək üçün:

— Hanı, o Beyrəkin yayını verin!—deyə çığırdı.

Beyrək yayı əlinə alanda, xoş günləri, o günlgrin vəfalı dostları, indi gəmidə

kürək çəkən yoldaşları yadına düşdü. Meydan başına dolandı. Yay əlində, bir an mütərəddid qaldı...

Bunu zəiflik əlaməti zənn edən Yalıncaq məğrur bir əda ilə dilləndi:

— Hey, nə durubsan, dəli ozan, atsana!..

Beyrək diksinmiş kimi, kəskin bir hərəkətlə başını dik qaldırıb meydanı süzdü, üzünü Qazan xana və bəylərə tutub:

— Vəfalı dostlar, ər igidlər eşqinə!—deyə oxu qoydu, kirişi çəkdi. Oxun qopması ilə üzük haçadan yox oldu.

Hamı ilə birlikdə bəylər də əl çalıb bir ağızdan:

— Sağ ol, var ol!...—deyə onu alqışladılar.

Qazan xan ümumi səs-küy içində işarə ilə onu yanına çağırdı. Hamı susdu. Xan:

— Sağ ol, ozan!—dedi.—İstə məndən nə istəyirsən. İpək çadır, qul-qaravaş, qızıl-gümüş... nə istəsən verəcəyəm!

Dəli ozan bağır basıb baş əydi.

— Sağlığını istəyirəm, xan!—dedi, sonra birdən qəhqəhə çəkib güldü və əli ilə Yalıncağı göstərib:—Bu saydıqlarını ona ver, xan,—dedi,—bəlkə gözü doysun. Özgə payında gözü olmasın!.. Mənə isə, bir hovurluq toy bəyliyini ver...

Qazan xan güldü:

— Vay səni, dəli ozan!—dedi.—Belə toyun belə də bəyi olar!.. Sonra üzünü bəylərə tutub ucadan dedi:—Bəylər, bu günki toy bəyliyim bu dəli ozanın olsun, qoy hara gedir-getsin, nə edir-etsin...

Dəli ozan qobuzunu çomaq kimi əlinə alıb yuxarı qaldırdı və yüyürə-yüyürə bəylər cərgəsindən keçib qara camaatın içinə qarışdı:

— Haydı, ardımca!—deyə toy yeməkləri bişən qazanlara sarı gedib yetcək, sağına-soluna təpik ilə vurub hamısını yerə dağıtdı və ardınca gələn camaata:

— Aparın!—deyə bağırdı,—itlərinizə, köpəklərinizə qismət olsun!

Sonra özü tək qızlar-gəlinlər üçün qurulmuş iri toy çadırına sarı gedib içəri girdi.

— Bu toyda gərək dəli ozan çalıb-çağıra!—deyə çığırdı və zurnaçıları qovdu.

Qızlar-gəlinlər bir-birinə dəyib çığırışdılar. Məclisin başında oturan Burlaxatun ayağa qalxıb ozana acıqlandı:

— Çıx bayıra, dəli oğlu dəli! Bu nə cürətdir?!

Beyrək ona baş əyib:

— Xanış,—dedi,—acıqlanma, Qazan xandan mənə buyuruq olub!

Burlaxatun ozanın ədəblə danışıb hərəkət etdiyini görəndə, acığı soyudu. Bir az yumşaq səslə soruşdu:

— Yaxşı, bəs istəyin nədir?

— İstəyim odur ki, xanım, mən qobuz çalım, ərə gedən qız oynasın!

Bu sözləri deyib qobuzunu sinəsinə basdı və çala-çala dolanmağa, göz altından məclisdə olan gəlinləri, qızları süzməyə başladı. O, Baniçiçəyi axtarır, onu öz gözü ilə görüb halından-tovrundan bu işə necə razı olduğunu bilmək istəyirdi.

Burlaxatun isə, bilirdi ki, Baniçiçək durub oynayan deyil; çünki əslinə baxsan, o nəinki Yalıncağa, ümumiyyətlə ərə getməyə razılıq verməmiş və bugünkü toy məclisini də ona guya könlünü açmaq üçün Qazan xan tərəfindən verilən böyük bir qonaqlıq kimi qəbul etdirmişdilər. Sonra guya düyagörmüş arvadlar onu dilə tutacaq, əmri-vaqe qarşısında qoyub razı edəcəkdilər. Məclisə gələn qızlar-gəlinlər hamı geyinib bəzənmiş olduqları halda, Baniçiçək adi, sadə və tutqun rəngli bir paltarda idi. Qazan xanın və Burlaxatunun sözlərini yerə salmamaq üçün məclisə gəlmiş, Burlaxatunun arxasında başı aşağı, üzü yarı örtülü oturmuşdu.

Dəli ozanın çalıb hərləndiyini görən Burlaxatun, Qısır Yengə adı ilə məşhur olan yaşlıca, şişman bir qadına işarə etdi ki, gəlin adına durub oynasın.

Beyrək çala-çala gəlib bir buçaqda durdu. Gəlinin oynamasını gözlədi.

Yengə ayağa qalxıb əl-qol açdı və süzə-süzə Beyrəkə sarı gəlməyə başladı. Beyrək bunu görəndə, öz-özünə güldü və oyun havasına uyğun oxumağa başladı:

Saç birçəyin çəngə-çəngə,
Gəl özünü salma rəngə,
Əsdirmə, ay Qısır Yengə!
Kənar dur, gəlin oynasın,
Get otur, gəlin oynasın!..

Qısır Yengə pərt olub, qolları yanına düşdü.

— Buy, bu dəli məni hardan tanıdı!—deyə deyinə-deyinə öz yerinə qayıtdı.

Byrək yenə qobuz çalıb gəlini gözləyirdi. Bu dəfə də Burlaxatun uzun, arıq və el arasında Yağrıca Fatma adı ilə məşhur bir qadına işarə etdi. O da əlacsız ayağa qalxdı və uzun qollarını qaldırıb örpəyini yelləyəndə, uçmağa hazırlaşan bir leyləyə bənzəyirdi.

Beyrək yenə öz-özünə gülüb qobuzu çala-çala oxudu:

Uçarsan, çox əl-qol atma,
Qaş gözünü çox oynatma,
Ay Yağrıca, qara Fatma,
Kənar dur, gəlin oynasın,
Get otur, gəlin oynasın!

Bu sözləri eşidəndə arvadın açılmış qolları havada donub qaldı və birdən:

—Buy, buy!—deyə ulaya-ulaya öz yerinə qayıtdı. Hamı bərkdən gülüşdü.

İşi belə görən Burlaxatun dönüb Baniçiçəyə dedi:

— Dur, qızım, çarə nədir? Yoxsa bu dəli bizdən əl çəkən deyil!

Baniçiçək başını aşağı salıb dinmirdi. Qazan xanın arvadı Burlaxatunun sözündən çıxmaq hörmətsizlik sayılsa da, ortaya çıxıb oynaması da razılıq kimi

anlaşılacağından, yerindən tərpənmirdi. Onun ürəyindən xəbəri olmayan bəzi bəy arvadları öz gəlinlik vaxtlarını yada salıb Baniçiçəyin bu hərəkətini sadəcəg bir utancaqlıq və ya naz sayaraq, ərklə əllərindən tutub onu qaldırmaq istədilər.

Burlaxatuna cavab qaytarmağı hörmətsizlik sayan Baniçiçək bu arvadlara qəzəblə cavab verdi.

— Gəlin kim isə, buyursun oynasın. Mənə qonaq gəlibsiniz, gözüm üstə yeriniz var, yoxsa burda nə toy var, nə gəlin!.. ;

Beyrək söhbətin uzandığını görüb qobuz çala-çala onlara yaxın gəlməyə başladı ki, işin nə yerdə olduğunu bilsin.

Burlaxatun onu görüb əli ilə işarə etdi. Qadınlar yerlgrinə oturdular. O, üzünü Beyrəkə tutub dedi:

— Bilirsənmi, ozan səni aldatmışlar. Burda gəlin-flan yoxdur. Bura toy məclisi deyil, qonaqlıq məclisidir.

Beyrək nə olursa-olsun, Baniçiçəyi görmək məqsədilə dedi:

— Nə olar, xanım, eləsə, Baybecan qızı Baniçiçək kim isə, o oynasın!

Hamı denub Baniçiçəyə baxdı. Bu yad, qərib ozanın ağzından öz adını eşidəndə, Baniçiçək diksindi. Bu ozan kim idi ki, qadınları belə adları ilə, ləqəbləri ilə tanıyırdı. Onun səsində nə isə, tanış bir ahəng və elə bir əda var idi ki, ona əməl etməmək mümkün deyildi. Bir az əvvəl Burlaxatunun və sair bəy arvadlarının sözlərini yerə salan Baniçiçək vüqarla ayağa qalxıb, üzü yağı örtülü, əlləri uzun örpəyin altında, başı aşağı ağır-ağır, ayaqlarını tərpətmədən, xalı üzərində sürüşürmüş kimi rəqsə başladı.

Onun qaşları çatılmış, uzun kirpikləri gözlərini kölgələmiş, dodaqları əsəbi bir halda bir-birinə qısılmış, solğun üzündə həzin bir vüqar var idi...

Yox, yox bu əzəmət və vüqar, bu həya və ar sahibi olan bir qız ölmüş nişanlısına belə vəfasız çıxa bilməz, xüsusən Yalıncaq kimi bir arsıza ərə getməkdənsə, ölümü üstün tutardı!..

Beyrək saxta qiyafəsini və vəziyyətini az qala yaddan çıxarıb: «Bəs bu nə işdir, nə xəbərdir?»—deyə çığırmaq istəyirdi. Lakin özunu ələ alıb qobuzun ahəngini duyulmadan dəyişdi, daha ağır bir havaya keçdi və ürəyini dələn bir sirri öyrənmək üçün, danışırmış kimi, ağır- ağır oxumağa başladı:

Xan qızısan, şahısan gözəllərin.
Belə deyil adəti bu ellərin,
Aç örpəyi, qoy görünsün əllərin!
Yoxsa, gözəl, söhbət olar, söz olar,
Ozan diyər əllərində, eybi var!..

Baniçiçək əfsunlanmış kimi, onun dediyinə əməl etdi. Örpəyin uclarını buraxdı, onlar quş qanadı kimi gərildi. Beyrək onun barmağında özü taxdığı üzüyü görüb tanıdı. Qobuzu sinəsinə basıb çala-çala, ona bir az da yaxınlaşdı, bütün

məclisi qaplamış dərin həyəcanlı bir sükut içində, pıçıldayırmış kimi, yavaşcadan bu sözləri oxudu:

A Xan qızı, unutdunmu peymanı?
Nişan taxıb buraxdığın ceyranı?
Söz veribən söz aldığın oğlanı?
Ozan diyər—Yalıncağa ar olsun!
Beyrək diyər—Baniçiçək var olsun!..

Bu sözləri eşidəndə, Baniçiçəyin heyrət və həyəcandan əlləri havada donub qaldı. Beyrək bir anda çuval ilə birgə qoyma saç-saqqalını siyirib atdı. Baniçiçək ürəkdən qopan yanıqlı bir səslə :

—Beyrək!!!—deyə çığırıb onun boynuna sarıldı.

Birdən-birə tufan qopmuş, zəlzələ olmuş kimi, hamı bir-birinə dəydi. Qapıya yaxın olan gənc qızlar:

— Beyrək!.. Beyrək!—deyə çığıra-çığıra meydana sarı, meydandakı bəylər, igidlər çadırlara sarı yüyürüşdülər...

Beyrəklə Baniçiçək Qazan xanın hüzuruna gəldilər. Beyrək başına gələn macəranı müxtəsərcə danışdı. Qazan xan hər iki gəncin mərdlik, dözüm və vəfadarlığını alqışlayıb dedi:

— Hazır el-oba toplanmışkən, toyunuzu edək!

Beyrək etiraz etdi:

Yox, xan baba,—dedi,—mənim əhdim-ilqarım var. Yoldaşlarımı qurtarmayınca, üzüm gülməyəcək!

## 6. CAN SƏSLƏRİ

Beyrək gəmidən suya atıldığı sabahdan indiyə kimi dincəlməmiş, yorğun-arğınsa da, yenə gözünə yuxu getmirdi. Bir sirr, anlaşılmaz bir məsələ onu narahat edirdi. İndi beş illik hicran, nigaranlıq, əzab və iztirabdan sonra onu hər zaman düşündürən bu məsələ, sanki əvvəlkindən daha böyük bir əhəmiyyət qazanmışdı. Bugün ata-anasının, bacılarının, Baniçiçəyin və bütün dost-aşnanın onu nə qədər sevdiklərini, nə böyük bir ümid və məhəbbətlə gözlədiklərini və nəhayət ng böyük bir sevinclə qarşıladıqlarını öz gözü ilə görəndə, beş illik dözülməz əzab və iztirablarını unutmuşsa da, ancaq Qoçərin əsrarəngiz bir surətdə yox olmasını eşidəndə, üzünün və yoldaşlarının o işgəncəli macərası ilk anlarından başlayaraq xatirəsində canlanmışdı. Bu xatirələrin son dövrü: gəmidəki işgəncələr, fəlakət yoldaşlarının hər birinin məşəqqətli-acıqlı çöhrəsi, xilas olmaq üçün bəslədikləri ümidlər, bu yolda qurban gedənlər, boğazlarına daş bağlanıb dənizə atılanlar, qamçı zərbələri, həqarət və əziyyətlər...Hər şey, hər şey gözünün önündə aydın

canlanırsa da, ancaq onu narahat edən əsl məsələni fəlakətin başlanğıcını xatırlaya bilmirdi. Gəmidən əvvəl hər şey uzaq, dolaşıq bir röya kimi qaranlıq pərdələrə bürünmüşdü. Bu qaranlıq pərdələr arasından bəzən üzü-gözü seçilməz, dinməz-söyləməz, yarasaya bənzər iri qara kölgələr, bəzən günəş şöləsinə bənzər bir işıltı, karvan zınqırovlarını xatırladan can səsləri, bəzən sərin bir hava, sonra yenə üfunət, əl-ayaqları, göz-qapaqları qurquşun kimi ağır... Yalnız bircə şey onun xatırında aydın qalmışdı: can səsləri!..

Sabaha yaxın onu huş aparmışdı: qara qorxunc röyalarla dolu bir yuxu... O soyuq, yaş bir daşa möhkəm sarınmışdır, başının üsüundə yekə iyrənc qara yarasalar uçuşur, birdən fırtına qopur, üstünə uzandığı daş döşəmə dönüb gəmi olur, yarasalar iri zəncir qırmaclarla onu vurub kürək çəkdirirlər. O zənciri qırmaq istəyir; tutub əl-qolunu sarıyırlar; boğazına daş bağlayıb dənizə atırlar. O, əl-qol atmaq, özlərini açmaq istəyir, əlləri-ayaqları, göz qapaqları qurquşun kimi ağır... uzaqdan, çox uzaqlardan ağır-ağır boğuq can səsləri gəlir... can səsləri...

Beyrək bu səslərə ayılıb gözlərini açdı... Beş ildə ilk dəfgə idi ki, rahat yorğan döşəkdə, iki-üç yaxın yoldaşı da onun yanında yatmışdılar.

Beyrək bütün bu qara xülyaların boş bir röya olduğuna sevinib köksünü ötürdü və çevrilib yatmaq istəyirdi ki, birdən yenə uzaqlardan, çox uzaqlardan can səsləri eşidildi. O, gözlərini bir neçə dəfə qırpıb yan-yörəsinə baxdı... yox, o artıq oyaq idi. Diqqətlə dinlədi. Müəyyən fasilədən sonra can bir də səsləndi. Beyrək qalxıb çadırın qapı pərdəsini araladı. Sabah açılırdı. Sabahın sakit, səssiz havasında uzaqlardan, çox-çox uzaqlardan, o əzab və işgəncə dolu günlərin şəriki olan haman can səsləri bir də daha aydın eşidiləndə, Beyrək birdən elə çığırdı ki, yoldaşları dik atılıb hərə öz silahını qapdı. Beyrək çadırın qapısında durub əli ilə səs gələn tərəfi göstərərək bərkdən:

— Oradır, ora!!!—çığıra-çığıra, başaçıq-ayaqyalın o tərəfə yüyürməyə başladı. Yoldaşları onu zorla saxladılar və bir təhər özünə gətirdikdən sonra məsələnin nə yerdə olduğunu anlayıb igidləri topladılar. Başda Beyrək olmaqla, otuz-qırx atlı, dan ağaranda sirli qalaya doğru at çapdılar...

Qaladakı saxta rahiblər beş-on il əvvəlki hərbi ehtiyat tədbirlərini çoxdan unutmuşdular. Qalanın ətrafına çəkilmiş xəndəklərin suyu çoxdan qurumuş, içini ot, qamış basmış, dəmir bənd qapılar paslanıb yerindən laxlamış, vaxtilə qılınc vurmağı, ox atmağı da başaran quldurlar indi kökəlib piylənmiş, döyüşüb savaşmağı yadırğamışdılar. Bununla bərabər qalanın içərisini diri başlı olan bircə kənar adam da görməmişdi.

Qala əsrarəngiz bir surətdə qeyb olan adamları tapmaq və bunlardan dili, ağızı, gözləri tutulanlara şəfa vermək sayəsində ziyarətgaha çevrilmişdi. Ətraf kəndlərdən, obalardan axışıb gələn adamlar qalaya buraxılmadığından, bəzən günlərlə onun divarları dibində qalıb şəfa gözləməli olurdular. Bunu nəzərə alan

bəzi mahir adamlar orada daxmalar tikib alver edir, qonaq saxlayır və ziyarətgah sayəsində asanca varlanmağa çalışırdılar.

Sabah ibadəti üçün çanlar çoxdan çalınmış, sabah çoxdan açılmışsa da, ancaq ziyarətgah-qalada qoca zəngçalandan başqa oyaq heç bir kimsə yox idi. Hər gecə olduğu kimi dünən gecə də hıçqırınca yağlı yeməklər yeyib, yıxılınca tünd şərabdan içmiş rahib qiyafətli quldurlar hələ də xorha-xorla yatırdılar.

Beyrək, atlıları ilə qalaya yaxınlaşanda, nəzir-niyaz vermək üçün darvaza önünə yığışmış qocalı-cavanlı, arvadlı-kişili rəngarəng geyimli zəvvarlar arasına çaxnaşma düşdü; çünki atlılar dördnala düz darvazaya sarı çapırdılar. Bu zavallılar elə güman edirdilər ki, bu «müqəddəs» məkana əl qaldıranın əli quruyar və işdir, oraya bir xətər toxunsa, dunya alt-üst olar.

Zəvvarların qorxu, dəhşət və həyəcan dolu çığırtılarına əsla etina etməyən atlılar darvazaya çatıb güclü bir zərbə ilə qapıları paslanmış dabanlarından qoparıb saldılar və içəri girdilər. Hücrələrə və otaqlara soxulub yarısərxoş, yarıyuxulu saxta rahibləri həyətə yığdılar. Yalnız Şöklü Məlik yox idi. Nəhayət onun da iqamətgahını tapdılar. O, qapını açmayıb bir yumurta yerləşəcək qədər kiçik bir pəncərəcikdən dəstənin başçısını istədi. Beyrək gəldi. Şöklü Məlik onu görüb tanıdı hələ də kefli və yuxulu olduğunu zənn edib öz ora-burasını cimdiklədi. Bunun amansız bir həqiqət olduğunu anladıqda, gözləri bərələ qaldı və dili dolaşa-dolaşa:

— Oğlan, sən kimsən?!—deyə qarışıq suallar yağdırmağa başladı:— Bilmirsənmi biz xanlar xanı Bayındır xanın buyuruğu ilə bəylər bəyi Qazan xanın amanında bu ellərin qonağıyıq? Sizin eldə qonağı beləmi saxlarlar?

Beyrək acı və istehzalı bir qəhqəhə ilə güldü:

— Mən ac-yalavac yetimlərin, nakam ölən cavanların, gözləri yollarda qalan anaların fəryad səsi, intiqam pəncəsiyəm! Bəli, bizim ellərdə təmiz və əziz qonaq adına vurulan ləkəni qanla yuyarlar!..

Şöklü Məlik kiçicik pəncərəni də örtüb içəri çəkildi və belə çıxılmaz vəziyyətlərdə çox zaman olduğu kimi, ani bir qərara gəldi Cavahirat sandığından heç olmazsa ilk aylarda özünü dolandırmaq üçün cavahirat və qızıldan bir ovuc cibinə doldurdu; dibdəki pəncərədən bayıra, qəsrin lap dibindən axan çaya atılıb yaxındakı meşəyə qaçmaq ümidilə o tərəfə yüyürdü.

İçəridən bir cavab gəlmədiyini və qapının açılmadığını görən Beyrək igidlərə işarə etdi. Bir anda qalın palıd qapını qırdılar. Beyrək içəri girəndə, Şöklü Məlik, arxası içəri, qollarını qaldırıb pəncərədən atılmaq üzrə idi. Beyrək belindəki xəncəri çəkib ox kimi ona atdı. Xəncər xainin iki kürəyi arasından sancıldı və o bir çuval ət kimi bayıra, qəsrin divarı dibinə sərələndi.

Beyrək böyük bir həyəcan içində tutduğu işdən ağır bir məsuliyyət və peşmanlıq duyurdu. Tutulan rahibləri nə qədər dindirdi, qalanı nə qədər axtardısa,

yuxu kimi xatırladığı o qaranlıq, əzab və işgəncələrlə dolu zindandan, orada tapacağı umduğu Qoçər və sair qeyb olmuş adamlardan bir əsər-əlamət görmədi.

İndi o, Qazan xana bu özbaşınalığı üçün nə cavab verəcəkdi? Hamının müqəddəs bildiyi bir məkanı belə alt-üst edib başçıları Şöklü Məliki öldürməyi nə ilə izah edəcəkdi?

Bayırdan qalanın qapısı ağzında toplaşıb şəfa və əlac uman izdihamın həyəcanlı hay-küyü eşidilməkdə idi. Onların qarşısına nə üzlə çıxacaqdı? «Beyrək silahsız, müdafiəsiz rahiblərə hünər göstərib!»—deyə el igidləri arasında söylənəcək tənəli sözləri necə qəbul edəcəkdi?..

Beyrək bu acı-üzücü düşüncələrlə bərabər: «yox, yox, burdadır, burda, o zindan burdadır!»—deyə ürəyində öz-özünə təkrar edə-edə, qalanı qarış-qarış gəzir, o zindanı axtarırdı.

Kənardan baxanda, qalada zirzəmi əlaməti görünmürdü. Aşağı qatdakı, əsasən, ərzaq ambarı olan hücrələr iri ağır sal daşlarla döşənmişdi. Daşların üstünü toz basmış, onların hamısı tək bir daş imiş kimi, bir-birinə möhkəm bitişmişdi. Burada zirzəmi filan yox idi...

İndi yoldaşları da Beyrəkə şübhəli-şübhəli baxır, sözlə demirdilərsə də, gözlərindən onların da bu işdən narazı və peşman olduqları, ürəklərində Beyrəki danladıqları aşkar duyulurdu.

Beyrək bütün bu məsuliyyəti boynuna götürüb xanlar xanı Bayındır xanın divanında yoldaşlarına aman, özünə cəza istəyəcəyini qət edərək, rahibləri buraxmaq və qaladan kor-peşman çıxıb getmək istəyirdi. O, can qülləsi altında iki-üç pillə ucalıqda, eni-uzunu dörd-beş addım olan kiçik bir meydançaya çıxıb oradan yoldaşlarına və rahiblərə peşmanlığını bildirmək istəyirdi ki, birdən rütubətli bir üfunət duydu. O bir ayağı yerdə, bir ayağı pillədə donub qaldı. Bu qoxu da çan səsləri kimi, onun işgəncəli, əzablı günlərinin şəriki idi. O hər şeyi unudub əyildi. Diz çökdü, pillələrin arasında kiçik dördbucaq deliklər vardı. Bu rütubət və üfunət qoxusu oradan gəlirdi. Beyrək yerindən sıçrayıb çılğın bir səslə:

— Buradır, bura!..—deyə bağırdı.

İgidlər yığışıb meydançanın döşəməsi olan uzunsov, dördkünc, sal daşı itələdilər. Daş siyirmə bir qutu qapağı kimi açıldı və qaranlıq rütubətli zirzəmiyə enən dar pillələr göründü. Beyrək və bir neçə yoldaşı məşəl alışdırıb oraya endilər.

Zirzəmi uzun, dar bir dəhliz boyunca yan-yana düzülmüş, bir-birindən ayrı kiçik üfunətli hücrələrdən ibarət idi. Bu hücrələrdə kimi sadəcə bihuş yatmış, kimi çarmıxa gərilmiş, kimi daş bir taxta sarınmış, kimi dizə qədər çirkab suyun içində ayaq üstə durmuş, kimi tavandan qollarından ya ayaqlarından asılmış, xeyli biçarə dustaq var idi.

Boş hücrələrdən birində divarlardan iri qartal qanadları, əcayib-qərayib div-ifrit maskaları, quru heyvan kəllələri, ayı, pələng dəriləri və sairə asılmışdı.

Saxta rahiblər bunları əyinlərinə geyib başlarına taxaraq əcayib həyulalar şəklində yarımbihuş dustaqları qorxudur, min cür işgəncə ilə onlardan istədikləri sirrləri alırdılar.

Beyrək məşəl işığında bu dustaqları yoxlaya-yoxlaya, nəhayət Qoçəri hücrələrin birində ayaqlarından başı aşağı asılmış tapdı. O, ölü kimi hərəkətsiz və taqətsiz idi. Dustaqları həyətə çıxardılar. Təmiz havanın təsirilə onlar bir-bir ayılıb özlərinə gəldikcə, gözlərinə inanmır, heyrət və sevincdən nə edəcəklərini bilmirdilər.

Çır-çılpaq olan dustaqları geyindirdilər. Qoçəri də zor-güc huşa gətirib ata mindirdilər və quldur rahibləri zirzəmiyə doldurub qalada keşikçilər qoydular, atlanıb qaladan çıxdılar.

Darvaza ağzındakı izdiham qurtarılan dustaqları körüb burada qohum-əqrabası olanlar bir-birinə sarmaşdılar. İşin nə yerdə olduğunu başa düşən izdiham, bir az əvvəl rahiblərə mütəəssib, kor-korana bir ehtiramla, basqınçılara qarşı nifrət yağdırdığı halda, indi:

— Bəs mənim balam hanı!

— Bəs mənim ərim? ! "

— Bəs mənim qardaşım? deyə bağrışa-bağrışa içəri soxulmaq, bu vəhşət və dəhşət ocağını alt-üst etmək, fırıldaqçı rahibləri didib parçalamaq istəyirdi. Beyrək onları sakit edib ulu divanı gözləmələrini tapşırdı və atlıları ilə qaladan uzaqlaşıb getdi.

## 7. DƏNİZDƏ TOY

Necə yəni, dənizdə toy,—deyə gəmi sahibi təəccüblə müştərinin üzünə baxırdı.—Mən iyirmi ildir gəmiçiyəm, hələ belə bir şey eşitməmişəm... İşim gücüm var, yükün varsa, göndər gəlsin, məni lağa qoyma!..

— Niyə inanmırsan? Qulaq as, deyim: Mənim atam da gəmiçi idi. Burada yox, Xəzər dənizində... O, toyunu dənizdə etmişdi. Mən də, qardaşım da dənizdə doğulmuşuq. Atamızdan bizə vəsiyyətdir, toyumuzu dənizdə, gəmidə etməliyik. İndi qardaşımın toyudur. Gəmini bizə icarəyə ver. Üç gün-üç gecə açıq dənizdə toy edəcəyik. İstəyirsən, haqqını da əvvəlcədən al!..—deyə ipək qaftan altından tirmə don geymiş, belində qızıl kəmər, zərif cavahiratlı kiçik bir,xəncəri olan cavan, cibindən meşin bir kisəcik çıxarıb qızılları ovcuna tökdü. Gəmiçi qızılların parıltısını görüb cingiltisini eşidəndə, yumşaldı. Ancaq pulu çoxca qoparmaq üçün, bəhanə axtarmağa başladı:

— Sözüm yoxdur, biz kirakeş babayıq... Ancaq əvvəlcədən danışmışam, söz vermişəm, miniklərim, yüküm var, onlara da gərək peşman pulu verəm...

—Zərər yoxdur, neçə istəsən, əvvəlcə verərəm. Ancaq gəmiyə bizdən başqa kimsəni götürməyəcəksən!

Danışıb razılaşdılar. Toy dəm-dəsgahı, şaqqa-şaqqa ətli qoyun əti, tərəvəz, meyvəcat, küp-küp şərab gəmiyə yükləndi.

Baniçiçək bəzəkli gəlin, Beyrək zərli-zibalı bəy paltarında, otuz-qırx yoldaşı da geyimli-keçimli, zurnaçılar-qavalçılarla gəmiyə mindilər.

Səhərin xoş nəsimi əsəndə, gəmi dənizə açıldı. Sabah yeli gəminin yelkənlərinə dolub şişirdi, kürəklər işlədi və gəmi sürətlə sahildən uzaqlaşdı.

Bir az sonra şişlik qoxusu, zurna-qaval səsləri, şərab qədəhlərinin cingiltisi bir-birinə qarışdı. Toy sahibləri gəmiçini də, mürəttəbatı da qonaq çağırmışdılar. Beyrək heç yana tələsmədiklərini, hələ üç gün dənizdə üzəcəklərini söyləyib kürəkçiləri dayandırmağı, yalnız yelkənlərin gücü ilə gəmini ağır-ağır sürməyi tapşırdı. Kürəkçilərə də yemək-içmək göndərmək istədisə də, gəmi sahibi onları qudurtmamaq üçün, bu təklifi qəbul etmədi.

Bütün günü yeyib içdilər, çalıb oynadılar. Axşama yaxın Beyrək gəmini Qara dənizin şərq sahilinə yaxın sürməyi əmr etdi. Hava qaralanda gəmini çırağban etdilər. Məşəllərin işığında toy şənliyi davam edirdi.

Gecə yarıdan keçmişdi. Gəmi sahibi bir yandan içdiyi bol müftə və tünd şərabın, bir yandan da on qat artıq aldığı pulun nəşəsi ilə sərməst idi. O, musiqinin ahənginə əsla uymayan, yöndəmsiz hərəkətlərlə atılıb düşür; iyrənc, qaba nərələrlə çığırıb-bağırır, guya nəğmə oxuyurdu. Nəzarətçilər bu toy məclisində belə qamçılarını əllərindən qoymamış, onların dəstəyindəki halqanı qolbaq kimi qollarına taxmış, qamçıları sallada-sallada atılıb düşür, ara bir adətləri üzrə qamçını sağa-sola gəminin dirəklərinə, göyərtə döşəməsinə, bəzən də bir- birinin qalın meşin çəkmələrinin boğazlarına çırpıb şappıldadır, bundan zövq alırdılar.

Beyrək bunlara baxdıqca dişlərini bir-birinə sıxır, orada aşağıda, kürəkçilərin cərgəsində keçirdiyi məşəqqətli-işgəncəli günləri yad edirdi. Haman bu alçaqlar, haman bu qamçılarını onun öz kürəklərinə, başına, sifətinə azmı çırpmışdılar!..

O, dişlərini bir-birinə sıxıb qıcırdatdı və başını qaldırıb göyə, göy atlas üzərinə səpilmiş civə kimi parıldaşan ulduzlara baxdı. Zamanın etişdiyini görüb yumruğunu masaya çırpdı və ayağa qalxıb məşrut hərəkət işarəsini verdi.

—Vurhay, vurhay, vurha!..

Bir anda göyərtənin altındakı kürəkçilər də, üstündəki igidlər də bu səsə səs verib bir ağızdan bağırışdılar:

— Vurhay, vurhay, vurha!..

Gəmi sahibi və nəzarətçilər bu döyüş nərəsindən diksinib başlarını qaldırmağa fürsət tapmamış, igidlər onları basmarladılar. Tutub yoğun gəmi ipləri ilg dorlara, yelkən dirəklərinə sarıdılar və aşağı enib kürəkçilərin zəncirlərini qırdılar.

Hamı göyərtəyə yığışdı. Beyrək və yoldaşları cəfakeş kürəkçilərlə, həsrətli

doğma qardaşlar kimi bir; birlərinə sarmaşdılar. Sonra zurna-qaval çalındı, əsl toy başlandı...

Səhərə yaxın, kürəkçilər və Beyrəkin yoldaşları ehtiyat qayıqlarını suya salıb onlara mindilər və bu səyyar zindanı, içində qalan zindanbanlarla birlikdə hər tərəfdən alışdırıb sahilə doğru üzməyə başladılar.

Onlar azadlıq və səadət sahilinə yaxınlaşdıqca, uzaqda dənizin ortasında qalan səyyar zindan nəhəng bir məşəl kimi yanır, od püsgürən bir əjdaha kimi sularda boğulurdu.

Onlar sahilə çıxdılar. Beyrəklə Baniçiçək əl-ələ dik bir qayanın başında durmuş, onları dövrəyə alan yoldaşları uca səslə xoş bir nəğmə oxuyurdular.

Bu nəğmə—məhəbbət, dostluq, sədaqət və fədakarlıq nəğməsi idi.

# KİTABIN İÇİNDGKİLGR

Nəşriyyatdan ..................................................................................... 3

Ana ürəyi........................................................................................... 7

El Gücü............................................................................................ 31

Dəli ozan ......................................................................................... 59

Redaktoru: M. V. Cəfərov
Rəssamı: Q. Xalıqov

Texredaktoru: X. Əzizbəyov

Çapa imzalanmış 12-V-1948 Çap listi 6 $^{1}/_{2}$+4 şəkil.
Avtor listi 7$^{3}/_{4}$ Bir çap listində getmiş mətbəə hüru-
fatı 46080. F Q09862 Nəşriyyat №15. Sifariş №819.
Tirajı 15000.

Azərbaycan SSR NS yanında Poliqrafiya və Nəşriyyat
işləri idarəsinin “Qızıl Şərq” mətbəəsi.
Bakı, Həzi Aslanov küç., 80.